# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 201 (8517) CÜMƏ, 2 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin dəyişməz şərti

"Bizim davamız haqq davasıdır. Biz tarixi nöqteyi-nəzərdən, beynəlxalq hüquq nöqteyi-nəzərdən, ədalət nöqteyi-nəzərdən haqlıyıq. Azərbaycan əsgəri, zabiti öz doğma torpağı uğrunda vuruşur. Bu gün Füzulidə, Cəbrayılda, işğal edilmiş digər ərazilərdə şiddətli döyüşlər gedir və biz itkilər veririk, bizim qazilərimiz, hərbçilərimiz yaralanır. Amma bu dava haqq davasıdır. Ona görə mən bir daha demək istəyirəm ki, bizim işimiz haqq işidir, tarixi həqiqət, beynəlxalq hüquq, haqq-ədalət 100 faiz bizim tərəfimizdədir".

## Ermənistan silahlı birləşmələri torpaqlarımızdan qeyd-şərtsiz, tam və dərhal çıxdıqdan sonra döyüşlər dayanacaq, qan tökülməyəcək

Vətən uğrunda gedən döyüşlərdə yaralanan hərbçilərlə görüşdə Ali Baş Komandan İlham Əliyev savaş meydanında aciz durumda qalan Ermənistan rəbərliyinə çıxış yolunu göstərərək atəşkəs şərtini bəyan etdi: hələ ki, gec deyil, torpaqlarımızdan qeyd-şərtsiz, tam və dərhal çıxıb rədd olun!

Əgər İlham Əliyevin bu şərtinə əməl olunarsa, döyüşlər dayanacaq, qan tökülməyəcək, bölgəyə sülh gələcək. Çünki sülhü istəyən Azərbaycandır. Belə olmasaydı, 30 ilə yaxın danışıqlara ümid bəsləməzdik.

### Bizim davamız haqq davasıdır, erməni xalqı ilə işimiz yoxdur

Azərbaycan Prezidenti həmçinin erməni xalqına müraciət edərək üzləşdikləri acınacaqlı durumdan xilas yolunu göstərdi - erməni xalqı öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsin. Əgər onlar sülh şəraitində yaşamaq istəyirsə, öz hökumətini məsuliyyətə cəlb etsin. Övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər.

Ali Baş Komandan haqlı olaraq sual etdi: "Nə işi var erməni əsgərinin Azərbaycan torpağında?"

Azərbaycan əsgəri öz döğma torpağı uğrunda savaşa qalxıb. Əsgər və zabitlərimiz qəhrəmancasına döyüşərək öz torpağında yaralanır, öz torpağı uğrunda şəhid olur və dədə-baba yurdunu düşmən tapdağından azad etmək üçün silaha sarılır.

Artıq neçə gündür davam edən döyüşlərdə Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri düşməndən azad edib, bir neçə yaşayış məntəqəsi işğalçıdan təmizlənib. Uzun fasilədən sonra yenidən doğma yurda ayaq basırıq və indi bu torpaqlarda üçrəngli bayrağımız dalğalanır.

Ardı 9-cu səh.

## Ermənistanın hərbi təcavüzünə son qoyulmalı və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir



Oktyabrın 1-də Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Belarus Prezidenti Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurma ilə bağlı yaranmış vəziyyətlə maraqlanıb.

Dövlətimizin başçısı məlumat verərək bildirib ki, Ermənistanın sentyabrın 27-də səhər saatlarında başladıqları hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və bizim döyüş mövqelərimiz şiddətli ağır artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində bu günə kimi hərbi qulluqçularımız, 17 mülki şəxs həlak olub, 50-dən çox mülki şəxs yaralanıb, 200-dən çox ev dağıdılıb. Buna cavab olaraq Azərbaycan tərəfi əks-hücum əməliyyatlarını həyata keçirir.

Prezident İlham Əliyev qeyd edib ki, artıq Ermənistan ərazisindən də Azərbaycan mövqeləri atəşə tutulur ki, bu da qəti şəkildə yolverilməzdir. Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistanın hərbi təcavüzünə son qoyulmalı və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Prezident İlham Əliyev onu da bildirib ki, Ermənistan tərəfi şüurlu şəkildə danışıqlar prosesini pozur və Ermənistan hərbi təxribatlara rəvac verməklə yanaşı, danışıqlar prosesinə də böyük zərbə vurur.

*Prezidentin Mətbuat Xidməti*

## Rəcəb Tayyib ƏRDOĞAN: "Bölgədə sülhün yaranması Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından çəkilməsindən asılıdır"



Bölgədə uzunmüddətli sülhün yaranmasının yolu Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından çəkilməsidir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyə Böyük Millət Məclisindəki çıxışında bildirib.

Şəhidlərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyən dövlət başçısı deyib: "Türkiyə olaraq bir millət, iki dövlət kimi gördüyümüz azərbaycanlı qardaşlarımıza bütün imkanlarımızla və qəlbimizin hökmü ilə dəstəyimizi davam etdirəcəyik".

Rəcəb Tayyib Ərdoğan deyib ki, Ermənistan rəhbərliyi Türkiyəyə böhtan atmaqla məşğuldur. Dövlət başçısı Ermənistana dəstək olanları da qınayıb.



## Erməni «pandemiya»sı

### Şanlı Azərbaycan Ordusu Qarabağda şovinizm və separatçılıq virusunun kökünü birdəfəlik kəsəcək

Dünya indi hiyləgər, təhlükəli bir infeksiyayla qarşı-qarşıya qalıb, onunla mübarizə aparmağa çalışır, Azərbaycan xalqı isə məkrli və qəddar bir virusla xeyli müddətdir cəngdədir...

Erməni virusuyla...

Tarixboyu xalqımızın canına, torpaqlarına daraşan bu virus hazırda dünyanı bürümüş pandemiyadan daha qorxunc, daha dəhşətlidir...

Bu virusu indiki pandemiyadan dəhşətli edən isə xislətindəki insanlığı hədəf almış şovinizm və separatçılıq mahiyyəti, deportasiya, təcavüzkarlıq, soyqırımı kimi insanlığa sığmayan hisslərdən bəslənməsi və heç bir peyvəndinin, müalicə üsulunun olmamasıdır...

### Faşist ideologiyalı erməni vandalları

Xalqımızın alnına erməni "pandemiya"sı ilə mübarizə aparmaq kimi müşkül bir tale də yazılıb. Zaman-zaman onların törətdikləri faciələrin qurbanına çevrilmişik, tarixi dədə-baba yurdlarımızdan məcburən çıxarılmışıq, əsirə, qaçqına, köçkünə çevrilmişik.

Ardı 5-ci səh.

## "AZƏRBAYCAN tarix yazır"

### Qarabağ savaşı türk mediasının gündəm mövzusu olaraq qalır




Bax: səh. 6

## Xalqımızın müqəddəs mübarizəsi

Bu gün tariximizə növbəti şanlı səhifələr yazılmaqdadır. Müqəddəs Vətən torpaqlarımız Ermənistan ordusunun işğalından azad edilir.

Döyüş bölgələrindən şad xəbərlər alırıq. Azərbaycan Ordusunun zəfər yürüşləri hər bir azərbaycanlının qəlbini dağa döndərir. Qürur, fəxr, fərəh hissləri yaşayan xalqımız döyüş bölgələrindən yeni qələbə xəbərləri gözləyir.

Mənfur düşmən yenə öz xislətini göstərir, yaşayış evlərimizi, məktəblərimizi nişan alır. Azərbaycanın mülki əhalisi arasında həlak olanlar var. Ancaq vəziyyətin mürəkkəbliyi, düşmənin namərdliyi yerli sakinlərin gözünü qorxutmur. Hər kəs öz evində, öz yurdunda möhkəm dayanıb.

Bu günlərdə hər birimizi qürurlandıran, ümidləndirən məqamlar çoxdur. Bunlardan ən ümdəsi ölkəmizdə birliyin, bərabərliyin olmasıdır. Hər bir Azərbaycan vətəndaşı dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmrinə müntəzirdir.

Ölkəmizin hər yerində bu günlər döyüş əhvali-ruhiyyəsi, qələbə əzmi hökm sürür.

Ardı 5-ci səh.

## Vətənə can da qurban, qan da...

### Qanvermə aksiyası keçirən könüllülərimiz Milli Orduya hərtərəfli dəstək olmağa çalışırlar



Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını uğurla alması, düşmənə sarsıdıcı zərbələr endirməklə cəbhədə əldə etdiyi qələbələr hamı tərəfindən böyük sevinc və ruh yüksəkliyi ilə qarşılanır.

Xalqımız qısa müddətdə Milli Ordunun əldə etdiyi zəfərlərə görə Ali Baş Komandan İlham Əliyevin qətiyyətli, cəsarətli mövqeyini alqışlamaqla, 1941-1945-ci illər müharibəsində olduğu kimi, bu gün də "Ana Vətən çağırır!", "Hər şey cəbhə üçün, hər şey Qələbə üçün" devizi ilə öz dəstəyini göstərir.

Ardı 9-cu səh.

**Düşmənin ümumilikdə 2300-dən artıq canlı qüvvəsi; 200-dək tank və digər zirehli texnikası; 228-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan; 30-dan çox hava hücumundan müdafiə vasitələri; 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqələri; 5 silah-sursat anbarı; 50-dən artıq tank əleyhinə vasitələr; 110-dan artıq avtomobil texnikası; 8 "Qrad" yaylım atəşli reaktiv sistemi; 1 "S-300" zenit-raket kompleksi məhv edilib**

# “Bu gün hər bir Azərbaycan vətəndaşı Sizin ətrafınızda sıx birləşərək həmişəkindən daha güclü birlik nümayiş etdirir”



Ordumuzun cəbhədə Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını müvəffəqiyyətlə alması, düşmənə ağır zərbələr endirməsi Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları tərəfindən böyük sevinclə qarşılanır. Onlar sevinc hisslərini Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə yazdıqları məktublarda ifadə edirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Zaqatala şəhərindən əsgər anası **Elmira Hacıyeva** yazır: “Möhtərəm cənab Prezident, bu gün Azərbaycanımızın şanlı əsgərləri əzəli-əbədi torpaqlarımıza soxulan erməni qaniçənlərinə sarsıdıcı zərbələr endirir. Torpaqlarımız 30 illik işğaldan azad edilir. Ordumuzun mətinliyi, igidlərimizin vətənpərvərliyi bizləri sevindirir. Sevinirik ki, şəhidlərimizin qanı yerdə qalmayacaq. Erməni faşistləri düşünürdülər ki, illər keçdikcə Qarabağ torpaqları azərbaycanlıların yadından çıxacaq. Ağıllarına gətirmirdilər ki, əksinə, Qarabağ sevgisi, Vətən sevgisi bu 30 ildə xalqımızın qəlbində məşələ çevriləcəkdir. Düşünmürdülər ki, oğullarımız müharibəyə toya-bayrama gedər kimi ruh yüksəkliyi ilə, Qələbə əzmi ilə gedəcəklər. Cənab Prezident, Siz erməniləri xəbərdar etmişdiniz və bildirmişdiniz ki, əgər onlar bizə hücum etsələr, peşman olacaqlar. Bu gün Sizin Vətənimizin bütövlüyü, xalqımızın rifahı üçün apardığınız bütün siyasəti dəstəkləyirik. Bir nəfər kimi ətrafınızdayıq. Cənab Ali Baş Komandanımız, bütün xalqımız Sizin yanınızdadır. Qələbə bizimdir, Vətən bizimdir. İrəli, Azərbaycan əsgəri! Əziz Prezidentimiz, Uca Tanrım Sizi və əsgərlərimizi qorusun”.

Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələri adından rektor **Elçin Babayev** yazır: “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, artıq bir neçə gündür ki, təcavüzkar Ermənistan xislətinə uyğun işğalçılıq siyasətini davam etdirərək yeni ərazilər qəsb etmək məqsədilə bütün cəbhəboyu hücuma keçməyə cəhd göstərir, beynəlxalq humanitar hüquq normalarını, beynəlxalq konvensiyaları kobud şəkildə pozaraq mülki əhalimizi, yaşayış məntəqələrimizi müxtəlif növ silahlardan, o cümlədən iriçaplı artilleriyadan atəşə tutur. Düşmənin xain hücumlarının qarşısını almaq, təhlükəsizliyimizi təmin etmək məqsədilə Sizin rəhbərliyinizlə bütün cəbhəboyu əks-hücuma keçən müzəffər Azərbaycan Ordusu tərəfindən erməni vandallarının törətdiyi növbəti təxribatın qarşısı qətiyyətlə alınır, düşmənə adekvat cavab verilir. Ordumuz tam şəkildə hərbi və mənəvi üstünlük əldə edərək, düşmənə sarsıdıcı zərbələr endirir. Fərəhli haldır ki, xalqımız hər gün, hər saat uzun illər ərzində işğal altında qalan ərazilərimizin, yaşayış məntəqələrinin işğaldan azad edilməsi, strateji əhəmiyyətli yüksəkliklərin ələ keçirilərək nəzarətə götürülməsi barədə rəsmi qələbə xəbərləri alaraq bu zəfərlərin qürur və sevincini yaşayır. Xüsusilə Sizin xalqımıza müraciətiniz, BMT-nin 75 illiyinə həsr edilmiş iclasda dərinməzmunlu çıxışınız və Rusiyanın “Rossiya-1” telekanalına verdiyiniz müsahibənizdə səsləndirdiyiniz fikirlər, haqlı və kəskin mövqeyiniz bizdə Böyük Qələbəyə inamımızı daha da artırıb. Bu gün ölkəmizin ərazi bütövlüyünü təmin etmək, torpaqlarımızı tam olaraq işğaldan azad etmək üçün tarixi bir məqam yetişib. Bilirik ki, bu şansı əldən verməmək üçün bizə birlik və həmrəylik hər şeydən vacibdir. Bu gün hər bir Azərbaycan vətəndaşı rəşadətli və yenilməz Silahlı Qüvvələrimizin, Sizin ətrafınızda daha sıx birləşərək həmişəkindən daha güclü birlik və həmrəylik nümayiş etdirir. Cənab Ali Baş Komandan, bizə bu xoş günləri yaşatdığınıza görə Sizə Bakı Dövlət Universiteti ailəsi adından hədsiz təşəkkür edirik. Sizin hər bir əmrinizi layiqincə yerinə yetirməyə, Böyük Qələbəyə nail olunması naminə dövlətimizə və ordumuza hər cür dəstək verməyə hər an hazırıq. İnanırıq ki, Sizin rəhbərliyinizlə biz mütləq qalib gələcəyik! Əminik ki, o gün uzaqda deyil. Allah Sizi və rəşadətli Ordumuzu qorusun!”

Mingəçevir şəhərindən **Səba Osmanova:** “Möhtərəm cənab Prezident, Sizə hərbçi ailəsi olaraq öz təşəkkürümü bildirmək istəyirəm. Siz daim xalqın qayğısına qalan, hər bir vətəndaş üçün narahat olan Prezidentsiniz. Çətin zaman kəsiyində olmağımıza rəğmən inanıram ki, Sizin təşkilatçılığınızla hər bir çətinliyin öhdəsindən gələcəyik. Fəxr edirəm ki, həyat yoldaşım Azərbaycan Respublikasının şanlı Ordusunda xidmət edir. Sizin verdiyiniz hər bir qərar bizim üçün qanundur. Allah Sizi, əsgərlərimizi, zabitlərimizi və xalqımızı qorusun. Amin”.

Bakı şəhərinin Binəqədi rayonundan **Niyaz Cəlilov** və **Ərəstun Yusibov** yazırlar: “Hörmətli cənab Prezident, biz Sizinlə fəxr edirik. Cəbhədə baş verən bu döyüş günlərində Sizə, Ordumuza və xalqımıza qələbə, zəfər arzu edirəm. Artıq biz bunun ilk soraqlarını alırıq. Şanlı və rəşadətli Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirir, torpaqlarımızı işğaldan azad edir. Cənab Prezident, Qələbəyə doğru gedən yolda Sizin yanınızdayıq. Allah Sizi qorusun”.

İmişli şəhərinin sakini **Rüstəm Qüdrətov:** “Hörmətli cənab Ali Baş Komandan, Qarabağ torpaqlarının azad olunması haqqında verdiyiniz əmrə görə Sizə təşəkkür edir, uğurlar arzulayırıq. Biz Sizi dəstəkləyirik. Qarabağ torpaqlarının azad olunması yolunda İmişli oğulları da hazırdırlar. Tanrı köməyiniz olsun, cənab Prezident”.

Azərbaycan Dövlət Aqrar Universitetinin dosenti, ehtiyatda olan mayor **Elçin Atayev** yazır: “Möhtərəm cənab Prezident, mən Qarabağ müharibəsi veteranıyam, müxtəlif bölgələrdə vuruşmuşam. Milli Ordumuzun qeyrətli övladlarının Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində erməni təxribatına qarşı sentyabrın 27-30 tarixlərində layiqli cavabları məni keçmiş hərbçi kimi ürəkdən sevindirir. Mən tam əminəm ki, Sizin uzaqgörən daxili və xarici siyasətiniz nəticəsində biz böyük Qələbəyə nail olacağıq. Möhtərəm Prezident, Sizə möhkəm cansağlığı, uzun ömür, şanlı Milli Ordumuzun daha da qüvvətlənməsi naminə yeni-yeni uğurlar diləyirəm”.

Abşeron rayonundan **Nihat Ağayev:** “Hörmətli cənab Prezident, mənim 10 yaşım var, əslən ağdamlıyam. Amma mən hələ Ağdamı görməmişəm. Mənim ən böyük arzum Ağdamı azad görməkdir. Son günlər Vətənimiz uğrunda gedən döyüşlər məni çox sevindirir və inanıram ki, Sizin rəhbərliyinizlə biz qalib gələcəyik və dünyanın ən gözəl yeri olan Qarabağ yenidən bizim olacaq”.

Beyləqan rayonundan **Əbdül Təhməzov:** “Hörmətli cənab Prezident, Sizin bu uğurlu işlərinizi bütün Azərbaycan dəstəkləyir. Cəbhə bölgəsində əldə olunan uğurlar uzun illər ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir. Əsgərlərimizin və xalqımızın döyüş ruhuna və birliyinə heyran qalmışam. Bunun sayəsində biz hələ çox uğurlar əldə edəcəyik. Allah Sizə və bütün ailə üzvlərinizə uzun ömür versin”.

Lənkəran rayonunun Sinovli kəndinin sakini **Bəhlul Hüseynovun** məktubunda deyilir: “Möhtərəm cənab Prezident. Düşmən təxribatına əks-hücumla cavab verilməsi haqqında əmrinizi dəstəkləyirəm. Gün o gün olsun ki, xalqımıza Qələbə müjdəsi verəsiniz. Xalq Sizi alqışlayır. Sevincdən gözlərimiz dolub. Yaşlı olmağıma baxmayaraq, mən də Ordumuza bu dar gündə kömək etmək istəyindəyəm. Müəllim kimi cəbhədə yaxşı təbliğatçı ola bilərəm. Əmr olduğu halda cəbhəyə getməyə hazıram”.

Laçın rayon Ağsaqqallar Şurasının sədri **Ağayar İsmayılov:** “Möhtərəm cənab Prezident, Ali Baş Komandan kimi rəhbərliyinizlə torpaqlarımızın yağı düşməndən azad edilməsinə başlanması biz yaşlı nəslin nümayəndələrini də ürəkdən sevindirir. İnanırıq ki, uzun illərdən bəri istər ölkəmizin inkişafı, istərsə də ordu quruculuğu istiqamətində yorulmaz fəaliyyətiniz artıq öz bəhrəsini verdi. Dəfələrlə vurğuladığınız kimi xalqımızın haqq işi Qələbə çalacaq. Siz zəfər bayrağını Şuşada, Laçında və digər azad olunacaq torpaqlarımızda ucaldacaqsınız. Bu taleyüklü məsələnin həlli naminə yorulmaz fəaliyyətiniz xalqımızı bir daha ətrafınızda səfərbər edərək daha da sıx birləşdirdi. Sizinlə qürur duyur, fəxr edirik. Xalqımıza bəxş etdiyiniz sevincli anlara görə Sizə dərin minnətdarlığımızı bildiririk. Qəti inanırıq ki, rəhbərliyinizlə ordumuzun həyata keçirdiyi bu müqəddəs iş nəticəsində dövlətimizin ərazi bütövlüyü təmin olunacaq. 30 ildən çox bir müddətdə ata-baba yurdlarının həsrəti ilə yaşayan köçkünlər öz doğma evlərinə dönəcəklər. Allah bu müqəddəs işdə Sizə yar olsun”.

Şəki şəhərindən **Zabit Həsənov** və **Sevinc Musayeva** yazırlar: “Hörmətli cənab Prezident, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi uğrunda apardığınız qətiyyətli siyasətə görə Sizə öz adımızdan və ailələrimiz adından minnətdarlığımızı bildiririk. Ən böyük arzumuz Qarabağın azad edilməsidir. Sizə və Ordumuza bu yolda uğurlar arzulayırıq. İnşallah, Sizin və Ordumuzun sayəsində Qələbə bizimlə olacaq. Allah hər birimizə Şuşada Azərbaycan Bayrağının dalğalanmasını görməyi nəsib etsin”.

Şəki şəhərinin daha bir sakini **Elmira Hacıyeva:** “Möhtərəm cənab Prezident, Şəki Tibb Kollecinin kollektivi Sizin müdrik və uzaqgörən siyasətinizi birmənalı şəkildə müsbət qiymətləndirir. Azərbaycanın tarixi torpaqlarını, Qarabağımızı zəbt edən mənfur ermənilərə qarşı aparılan döyüşlərə mənəvi dəstəyimiz sonsuzdur. Sizin qeyd etdiyiniz kimi, biz Ermənistan torpağını işğal etməmişik. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun! Əminik ki, düşmənimiz bundan sonra da layiqli cavabını alacaq. Azərbaycan Ordusu buna qadirdir. O, öz doğma torpağını müdafiə edir, Vətən uğrunda vuruşur, şəhid olur. Bütün şəhidlərimizin xatirəsi isə qəlbimizdə əbədi yaşayacaq. Qarabağ bizimdir, bizim olacaq!”

Neftçala rayonu Yenikənd kənd məktəbinin şagird-valideynləri adından **Ə.N.Qafarova, Ü.Q.Hüseynova** və **A.Q.Həsənova** yazırlar: “Əziz Prezidentimiz, Sizin verdiyiniz sərəncamla bu il bizim kəndimizdə yeni məktəb binası inşa olundu. Yeni məktəb binasının tikintisi barədə xəbər həm uşaqlar, həm də biz valideynlərdə bu çətin və həssas pandemiya dövründə gələcəyə daha ümidli baxışlarla baxmağa zəmin yaratdı. Binanın ilk təməl qoyuluşundan tutmuş bina tam hazır olana kimi işlərin gedişini sevinclə izləmişik. Hələ övladlarımızı demirəm... Onların körpə qəlblərində bu cür sevinc, xoşbəxtlik hissini yaşatmaq hər insana nəsib olmur. Siz bunu çox gözəl bacarırsınız, əziz Prezidentimiz. Hər il yüzlərlə uşağa bu sevinc hissini bəxş edirsiniz. Bütün bunlar Sizin təhsilimizə göstərdiyiniz qayğının nəticəsidir. Uşaqlara xoşbəxt hisslər yaşatmaq insanlığın ən gözəl, ən vacib əməllərindən biridir. Bu hissi övladlarımıza yaşatdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Övladlarımız belə müasir, geniş və hər cür şəraiti olan məktəbdə təhsil aldıqları üçün çox şanslıdırlar. Ən böyük şansımız isə Sizin kimi bir Prezidentimizin olmasıdır. Biz hər zaman Sizinləyik”.

Gəncə şəhərindən **Oruc Vəliyev** və **Ramiz Sadıxov** yazırlar: “Hörmətli cənab Prezident, cəbhə bölgəsində düşmən təxribatına əks-hücumla cavab verilməsi barədə göstəriş və qısa müddətdə əldə olunan uğurlar bizi sevindirdi, qəlbimizi dağa döndərdi. Biz ahıl insanlar üçün bu xəbərlər sanki ömrümüzə ömür calayır. Deməli ki, taleyimizdə bu günləri görmək də varmış. O qədər ruhlanmışıq ki, bu qoca yaşımızda əlimizə silah götürüb cavanlarla vuruşmaq istəyirik. Cənab Prezident, Allah ömrünüzü uzun eləsin. Bizə təkcə qələbə sevinci deyil, yeni həyat eşqi, yaşamaq sevdası bəxş etdiniz. Hər zaman Sizinləyik”.

Mingəçevir şəhərindən **Firdovsi Məsimov** və **Könül Məsimova** yazırlar: “Hörmətli cənab Prezident, tarixi keçmişdən bugünədək daim Ermənistanın təcavüzkarlığının Azərbaycan dövlətinə və xalqına təhlükə törətdiyini görürük. Erməni terroruna və işğalına qarşı mübarizədə irəli sürdüyünüz qətiyyət şübhəsiz ki, təqdirəlayiqdir. Artıq illərlə gözlədiyimiz gün gəlib çatıb. Biz Sizə inanırıq. Sizin uğurlu daxili və xarici siyasətiniz güclü Azərbaycan Ordusunu formalaşdırdı. Həmin siyasət və güclü ordu ilə yaxın gələcəkdə torpaqlarımızı azad edəcəyik. Bu günü bizə yaşatdığınıza görə Sizə təşəkkür edirik. Azərbaycan xalqı daim Sizinlə fəxr edib, edir və edəcək. Əminik ki, Sizin rəhbərliyinizlə Qarabağımız qısa müddət ərzində işğaldan azad olunacaq. Ya Qarabağ, ya ölüm! Bizim başqa yolumuz yoxdur. Yaşasın, Azərbaycan Ordusu! Var olsun, cənab Ali Baş Komandan! Qarabağ Azərbaycandır!”

Azərbaycan Dövlət Aqrar Universitetinin baş müəllimi **Fazilə Əliyeva** yazır: “Möhtərəm cənab Prezident, Sizin rəhbərliyinizlə şanlı Ordumuz düşmənlərimizə layiqincə cavab verir. Bu, Sizin düzgün daxili və xarici siyasətinizin nəticəsidir. Biz inanırıq ki, yaxın zamanda üçrəngli bayrağımız zəbt olunmuş torpaqlarımızda dalğanacaq. Cənab Ali Baş Komandan, mən fəxr edirəm ki, Siz bizim Prezidentimizsiniz. Biz həmişə Sizin yanınızdayıq”.

Lənkəran şəhərindən **Baldadaş Əliyev:** “Hörmətli cənab Prezident, Sizin sentyabrın 29-da “Rossiya-1” telekanalında yayımlanan “60 dəqiqə” proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan verilişdə aparıcıların suallarına verdiyiniz məntiqli, müdrik, əsaslandırılmış və əsl siyasətçiyə xas cavablarınız Lənkəran Dövlət Universitetinin professor-müəllim və tələbə kollektivində qürur hissi oyatmışdır. Bunun əksinə olaraq, siyasi baxımdan savadsız və yalançı Paşinyanın verdiyi izahlar nə qədər gülünc və əsassız idi. Biz bir daha əmin olduq ki, Sizin rəhbərliyinizlə tezliklə mənfur düşmənə qalib gələcəyik. O gün uzaqda deyil. Haqq bizim tərəfdədir. Biz Sizin yanınızdayıq. Sizin müstəqil Azərbaycan naminə bütün addımlarınızı bəyənir və dəstəkləyirik”.

Bakı şəhərinin sakini **Müzəffər Müzəffərov:** “Cənab Prezidentimiz, Sizi Ali Baş Komandanı olduğunuz Ordumuzun zəfər yürüşləri münasibətilə təbrik edirəm. Bu qürurlu günlərdə şəhid və yaralı əsgərlərimiz haqqında məlumatlara Sizin qədər biz də kədərlənirik. Nəzərinizə çatdırıram ki, mən bir keçmiş döyüşçü kimi özümü keçmişin yox, bu günün əsgəri sayıram və əlimdə silah daim döyüşə getməyə hazıram. Təki Vətənim mənfur düşməndən təmizlənsin. Uca Allahdan bunları arzulayıram”.

Masallı rayonunun Çayqıraq kəndindən **Rəşad Cəfərov:** “Hörmətli Prezident, cənab Ali Baş Komandan, Azərbaycan xalqı işğalçı Ermənistan dövlətinə qarşı apardığınız qətiyyətli mübarizədə son nəfəsinədək Sizin yanınızdadır. Sizin qəbul etdiyiniz qərarlar, apardığınız danışıqlar, qətiyyətli mövqeyiniz qeyrət simvoludur. Erməni işğalçıları və onun havadarları bilməlidir ki, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ Sizin rəhbərliyinizlə tez bir zamanda azad ediləcəkdir. Yaşasın Azərbaycan, yaşasın Azərbaycan xalqının fəxri olan Prezidentimiz!”

Binəqədi rayonundan **Niyaz Cəlilov** və **Ərəstun Yusibov:** “Hörmətli cənab Prezident, biz Sizinlə fəxr edirik. Cəbhədə baş verən bu döyüş günlərində Sizə, Ordumuza və xalqımıza qələbə, zəfər arzu edirəm. Artıq biz bunun ilk soraqlarını alırıq. Şanlı və rəşadətli Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirir, torpaqlarımızı işğaldan azad edir. Cənab Prezident, Qələbəyə doğru gedən yolda Sizin yanınızdayıq. Allah Sizi qorusun”.

Türkiyənin İstanbul şəhərindən **Ömər Öztürk** dövlətimizin başçısına yazır: “Hörmətli cənab Prezident, Qarabağda ordunuzun uğurlu əməliyyatları barədə xəbərlər bizi xoşbəxt etdi, hər kəndin adı çəkildikcə ayrıca sevinc anları yaşadıq. Hər yaralanan əsgər, hər şəhid xəbəri ürəyimizdə bir yara oldu. İnşallah, Qələbə xəbəri bu yaraları sağaldacaq. İnşallah, xalqınız Qarabağda gözəl günlər yaşayacaq. Mən də bu mübarizənizdə Sizlərlə bir sıradayam. Yaşasın türk birliyi! Çox yaxın günlərdə Şuşada, Xankəndidə, Xocalıda ucalacaq azan səsləri Qarabağın hər guşəsində eşidiləcək”.

Kayseri şəhərindən **Saraç Mustafa:** “Hörmətli cənab Prezident, biz türklər ermənilərlə mübarizədə bütün qəlbimizlə Sizi dəstəkləyirik. Azərbaycan Ordusunun tərkibində Dağlıq Qarabağ və işğal altındakı digər torpaqlar üçün qardaşlarımızla vuruşmağı ürəkdən istəyirik. Xain ermənilər bilməli idilər ki, türklər üçün qazdıqları quyuya bir gün özləri düşəcəklər. Onların elə bugünkü durumu da quyunun dibində yazıq-yazıq durub kimdənsə kömək gözləyən birini xatırladır. Bu, Sizin siyasi, diplomatik və hərbi uğurunuzdur, cənab Prezident. Uğurlarınızın davamı gəlsin”.

Aydın şəhərindən **Yakup Kurt:** “Hörmətli cənab Prezident, Sizin də dediyiniz kimi, “Qarabağ Azərbaycandır!” Biz bunu belə görmüşük, belə oxumuşuq və belə də bilirik. Mən 53 yaşındayam, polis işçisi olmuşam, hazırda təqaüddəyəm. Canımla, qanımla Azərbaycan dövlətinin yanındayam. Hansı an “gəl!” əmri verilsə, gələcəyəm. Belə bir gündə cəbhə xəttində olmaq hər birimizin borcudur. Sizə Qarabağ qələbəsi arzu edirəm, cənab Prezident”.

Beynəlxalq Avrasiya Həmkarlar İttifaqı Birliyinin və Türk Egitim-Sen Həmkarlar İttifaqı Komitəsinin sədri **Talip Geylan:** “Hörmətli cənab Prezident, bir daha işğalçı Ermənistanın beynəlxalq hüququ və insan haqlarını pozan, Azərbaycan ərazisini və birbaşa mülki əhalini hədəf alan xain hücumunu qətiyyətlə pisləyirəm. Türk Egitim-Sen Həmkarlar İttifaqı Komitəsi olaraq bütün varlığımızla qardaş Azərbaycan xalqının yanındayıq. Bir daha bildirirəm ki, Azərbaycanın beynəlxalq hüquqla təsdiq edilmiş bütün hüquqlarını sonadək müdafiə edəcəyik. Azərbaycan torpaqlarının 20 faizi işğal edildi və 1 milyondan çox soydaşımız evlərindən didərgin düşdülər. Qarabağ təkcə Azərbaycanın deyil, həm də Türkiyənin həsrətinə çevrildi. Qarabağ məsələsinin yeganə həll yolu Ermənistanın dərhal işğal olunmuş ərazilərini tərk etməsi və 30 ildir əziyyət çəkən bütün vətəndaşlarımıza təzminat ödəməsidir. Ermənilərin məsuliyyətsiz rəhbərləri bu günə qədər bunu etmədikləri üçün bu gün Dağlıq Qarabağı və işğal olunmuş bütün ərazilərimizi öz gücümüzlə azad etmək təbii haqqımızdır. Bəzi beynəlxalq təşkilatların Azərbaycan və Ermənistanı danışıqlara çağırmalarını mənasız hesab edirik. Bu nöqtədə danışıqların yeganə mövzusu Ermənistan tərəfindən işğal olunmuş torpaqlardan çıxma təqvimi olmalıdır. Türkiyənin Azərbaycana münasibəti və dəstəyi yalnız sözdə deyil, hər iki dövlətin rəsmi xarici siyasət strategiyasında, qarşılıqlı münasibətində də yer alıb. Bu münasibətin təbii nəticəsi olaraq, canımız, qanımız və bütün varlığımızla Azərbaycanın yanındayıq. Duamız və dəstəyimiz Sizinlədir. Həmişə olduğu kimi ürəkdən deyirik, Qarabağ türk torpağıdır, belə də qalacaq! Həsrət sona yetəcək. Gec-tez üçrəngli bayraq Qarabağın hər guşəsində dalğalanacaq”.

Kocaeli şəhərindən **Arif Karadurakoğlu:** “Hörmətli cənab Prezident, Türkiyədəki qardaşlarınızdan biri olaraq haqq mübarizənizi dəstəkləyir, yeni uğurlar diləyir, bu mübarizənizdə maddi, mənəvi dəstəkdən başqa canımla da Sizlərlə bir sırada olduğumu şərəflə bildirirəm. Allah yar və yardımçınız olsun”.

Almaniyanın Vuppertal şəhərində yaşayan **Osman Dənizxanlı:** “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, son günlər cəbhə bölgəsindən gələn xəbərlər məni və bütün xalqımızı çox sevindirir və qürurlandırır. Siz və Sizin əmrinizdə olan Azərbaycan Ordusu düşmənlərimizə və bütün dünyaya göstərdiniz ki, Qarabağ uğrunda, öz torpaqlarımız uğrunda sona qədər döyüşməyə hazırıq. Bunları yazaraq Sizə dərin hörmət və dəstəyimi bildirir, hər an əmrinizdə olduğumu bir daha ifadə etmək istəyirəm. Qəlbimiz Vətən ilə döyünür. Sizin rəhbərliyiniz və Allahın köməyi ilə yaxın vaxtlarda torpaqlarımızı son qarışına qədər geriyə alacağımıza inanıram. Yolumuz haqq yoludur. Qarabağ Azərbaycandır!”

# Milli Məclisin Sədri ilə Parlamentlərarası İttifaqın prezidenti arasında telefon danışığı olub



Oktyabrın 1-də Milli Məclisin Sədri Sahibə Qafarova ilə Parlamentlərarası İttifaqın prezidenti Qabriela Kuevas Barron arasında telefon danışığı olub. Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Telefon söhbətində Milli Məclisin Sədri Parlamentlərarası İttifaqın prezidentinə sentyabrın 27-dən etibarən Ermənistan tərəfindən cəbhə xəttində törədilən hərbi təxribatlar barədə məlumat verib. Milli Məclisin Sədri Ermənistanın son 30 ildir davam edən işğal siyasətinin regionda sülhə və sabitliyə təhlükə olduğunu vurğulayıb.

Sahibə Qafarova qeyd edib ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycana qarşı növbəti təxribat törətməklə aşkar şəkildə beynəlxalq birliyin çağırışlarına məhəl qoymadığını nümayiş etdirir. İşğalçı ölkə mülki vətəndaşları da hədəfə alaraq beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozur.

Sahibə Qafarova Parlamentlərarası İttifaqın prezidenti Qabriela Kuevas Barronla telefon danışığında beynəlxalq ictimaiyyəti Ermənistanın işğalçı siyasətini sərt şəkildə qınamağa çağırıb.

Qeyd edək ki, Parlamentlərarası İttifaq dünyanın 179 ölkəsinin parlamentini özündə birləşdirən ən böyük beynəlxalq parlament təşkilatıdır.

# Milli Məclisin Sədri Sahibə Qafarova Küveytin Azərbaycandakı səfirliyində olub

Oktyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova Küveyt Dövlətinin ölkəmizdəki səfirliyində olub.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Sədr Sahibə Qafarova Küveyt Dövlətinin Əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın vəfatı ilə əlaqədar Azərbaycan dövləti və xalqı adından başsağlığı verib, matəm kitabına ürək sözlərini yazıb.

Sahibə Qafarova Küveytin Azərbaycandakı səfiri Səud Əbdüləziz Məhəmməd əl-Şəmlan əl-Rumi ilə söhbət edib, ona başsağlığı verib.

Səfir Səud Əbdüləziz Məhəmməd əl-Şəmlan əl-Rumi Azərbaycan Respublikasının rəhbərliyinə və xalqına minnətdarlıq ifadə edib.

# Milli Məclisin Elm və təhsil komitəsinin növbəti iclası keçirilib

Oktyabrın 1-də Milli Məclisin Elm və təhsil komitəsinin növbəti iclası keçirilib. İclasın gündəliyinə üç məsələ daxil edilib.



AZƏRTAC xəbər verir ki, komitə sədri Bəxtiyar Əliyev əvvəlcə Dağlıq Qarabağda təmas xəttində vəziyyətlə bağlı fikirlərini bildirib. O qeyd edib ki, Ermənistanın sentyabrın 27-dən başlayaraq ölkəmizə hərbi hücumu barədə bütün beynəlxalq təşkilatlar, dünya ölkələri məlumatlandırılıb. Düşmənin hərbi təxribatı nəticəsində Azərbaycanın yaşayış məntəqələri və döyüş mövqeləri şiddətli artilleriya atəşinə tutulub. Nəticədə 16 mülki vətəndaşımız qətlə yetirilib, onlardan üçü uşaqdır. Hərbi qulluqçularımız arasında da həlak olanlar və yaralananlar var. Ermənistan hərbi qüvvələri Azərbaycanın yaşayış məntəqələrini - evləri, məktəbləri, xəstəxanaları hədəfə alıb. Ermənistanın işğalçı qüvvələri hətta işğal altında olmayan ərazilərimizi, məcburi köçkünlərin məskunlaşdığı şəhərcikləri atəşə tutur.

Bəxtiyar Əliyev bildirib ki, hazırda Azərbaycan tərəfinin apardığı uğurlu əks-hücum əməliyyatları nəticəsində bir çox strateji yüksəkliklər, yaşayış məntəqələri azad edilib. Ermənistan ordusuna məxsus 200-dən artıq tank, hərbi texnika, 100-dən artıq artilleriya və reaktiv sistemlər sıradan çıxarılıb. Bütün bunlar göstərir ki, Ermənistan qəti surətdə danışıqlara, sülhə hazırlaşmırdı. Əksinə, Prezident İlham Əliyevin bəyan etdiyi kimi, düşmən Azərbaycanın 20 faizini işğal etməklə yanaşı, əlavə əraziləri də ələ keçirmək üçün növbəti döyüşə hazırlaşırdı. Bunlar onu deməyə əsas verir ki, Ermənistan öz təcavüzkar siyasətindən qətiyyən əl çəkməyib. BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələrdə deyilir ki, işğalçıya silah satıla bilməz. Vaxtında Ermənistana qarşı sanksiyalar tətbiq edilsəydi, bu gün döyüş bölgəsində, Azərbaycan torpaqlarında işğalçı Ermənistan tərəfindən dinc sakinlərin qanı yenidən axıdılmazdı.

Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin 75 illiyi ilə əlaqədar keçirilən sessiyada videokonfrans vasitəsilə çıxış edərək Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Dövlət başçısı qeyd edib ki, Ermənistanın işğalçı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılmalıdır. Yalnız bundan sonra bölgədə sülh bərqərar olar və sülh danışıqları aparıla bilər. Bu, beynəlxalq hüququn normasıdır, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin tələbidir.

Komitə sədri çıxışında Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyətinə də toxunub, fikirlərini söyləyib. Bildirib ki, bu gün Azərbaycan özünün əzəli torpaqları uğrunda mübarizə aparır və əminik ki, bu mübarizə bizim qələbəmizlə nəticələnəcək.

Sonra Bəxtiyar Əliyev iclasın gündəliyi barədə məlumat verib. Qeyd edilib ki, gündəlikdəki qanun layihələri ikinci oxunuşda müzakirəyə çıxarılıb.

"Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə məsələ ilə bağlı bildirilib ki, layihə "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli fərmanına uyğun olaraq hazırlanıb. Düzəliş övladlığa götürülən uşaqların təhsil xərclərinin dövlət vəsaiti hesabına ödənilməsini ehtiva edir. Bu, ölkəmizdə övladlığa götürməni, xüsusilə də az və orta təminatlı ailələr tərəfindən valideyn himayəsindən məhrum olan uşaqların övladlığa götürülməsini təşviq edəcək.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə sənəd "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2018-ci il 12 iyun tarixli və "Ümumi təhsil haqqında" 2019-cu il 29 mart tarixli Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq hazırlanıb.

Qeyd edilib ki, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" qanuna "inklüziv təhsil" anlayışı əlavə olunub, digər termin və ifadə dəyişiklikləri edilib.

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanununa təklif olunan dəyişikliyə görə, təsisçisi əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və ya xarici hüquqi şəxslər, o cümlədən nizamnamə kapitalının və ya səhmlərinin 51 faizdən çoxu əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə və ya xarici hüquqi şəxslərə məxsus təhsil müəssisəsinin rəhbərinin müavini Azərbaycan Respublikasının vətəndaşı olmalıdır.

"Təhsil haqqında" qanuna təklif olunan dəyişikliklər "Ümumi təhsil haqqında" qanuna uyğunlaşdırma məqsədi daşıyır və qanunda ümumi təhsillə bağlı normaların təkmilləşdirilməsinə xidmət edir.

"Ümumi təhsil haqqında" qanuna təklif olunan dəyişikliklər dəqiqləşdirmə və bir sıra qanunlara uyğunlaşdırma məqsədi daşıyır. Qanunda ümumi təhsil müəssisəsində günü uzadılmış qrupların yaradılması nəzərdə tutulsa da, onun təşkili mexanizmi olmadığından qanuna günü uzadılmış qrupların təşkili qaydasının müəyyənləşdirilməsini nəzərdə tutan yeni cümlə əlavə edilir.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi ilə əlaqədar bildirilib ki, Məcəlləyə yeni 192.12-ci maddə əlavə olunur. Əlavəyə əsasən, qanunla pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən şəxslərlə pedaqoji fəaliyyətlə məşğul olmaq üçün əmək müqaviləsinin bağlanılmasına görə vəzifəli şəxslər üç min manat məbləğində cərimə edilir.

Müzakirələr zamanı komitə üzvləri İsa Həbibbəyli, Musa Qasımlı, Ceyhun Məmmədov, Aqiyə Naxçıvanlı, Etibar Əliyev, Anar İsgəndərov, Fatma Yıldırım, Şahin Seyidzadə, Kamilə Əliyeva, Pərvin Kərimzadə, Afət Həsənova, Tamam Cəfərova, Ülviyyə Ağayeva qanun layihələrinin əhəmiyyəti barədə fikirlərini səsləndiriblər.

Deputatlar öz çıxışlarında Dağlıq Qarabağda baş verən son hadisələrə münasibət bildiriblər. Qeyd edilib ki, Azərbaycan bu gün öz əzəli, beynəlxalq səviyyədə tanınmış torpaqları uğrunda mübarizə aparır. Millət vəkilləri bu haqq işində şanlı ordumuza uğurlar diləyiblər.

Müzakirələrin sonunda təqdim edilən qanun layihələri ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# *Hikmət HACIYEV:* "Ermənistan ərazisindən Azərbaycana hücumlar dayandırılmadığı halda, atəşi həyata keçirən hərbi hədəflərə qarşı adekvat tədbirlər görüləcək"

Ermənistan silahlı qüvvələri ağır artilleriya və digər iriçaplı silahlardan istifadə etməklə Azərbaycanın yaşayış məntəqələrini atəşə tutmaqda davam edir.



AZƏRTAC xəbər verir ki, bununla bağlı açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib:

"Ermənistan silahlı qüvvələrinin qəsdən və hədəflənmiş şəkildə yaşayış məntəqələrini artilleriyadan atəşə tutması nəticəsində ikisi uşaq olmaqla 17 nəfər mülki şəxs həlak olub, 51 nəfər yaralanıb. Dövlət və özəl mülkiyyətə zərər dəyib.

Ermənistanın bu əməlləri ilə sivil dəyərlərdən kənar olan ölkə olduğunu və növbəti dəfə mülki insanlara və azyaşlı uşaqlara qarşı xain hücumlar törədən ölkə olduğunu göstərir. Hərbi əməliyyatlar şəraitində mülki insanların hədəfə alınması və ya qəsdən öldürülməsi müharibə cinayətidir. Ermənistan dövləti və Ermənistanın siyasi rəhbərliyi buna görə məsuliyyət daşıyır.

Ölkəmizə qarşı növbəti təcavüz aktı kimi bu gün Ermənistanın Gorus rayonu istiqamətindən Azərbaycan ərazisi raket atəşinə məruz qalıb. Bu, artıq Ermənistan ərazisindən Azərbaycana qarşı həyata keçirilən ikinci hücum aktıdır. Birinci hücum Ermənistanın Vardenis rayonu ərazisindən həyata keçirilib. Raket zərbəsi nəticəsində məcburi köçkünlər üçün yeni salınmış Cocuq Mərcanlı kəndində 20-yə yaxın evə zərər dəyib.

Ermənistan tərəfinə xəbərdarlıq edirik ki, Ermənistan ərazisindən Azərbaycana qarşı hücumlar dayandırılmadığı halda, atəşi həyata keçirən legitim hərbi hədəflərə qarşı adekvat tədbirlər görüləcək".

# Prezidentin köməkçisi Hikmət Hacıyev Ermənistanın hərbi təxribatları ilə bağlı "Al Arabiya" telekanalına müsahibə verib

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın hərbi təxribatları ilə bağlı "Al Arabiya" kanalına müsahibə verib.




AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi müsahibəsində Ermənistanın Yaxın Şərq ölkələrindəki muzdlu və hərbçiləri Ermənistan-Azərbaycan münaqişəsi zonasına cəlb etməsi, terror təşkilatlarının Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilməsi, Ermənistanın Azərbaycana qarşı son hərbi təxribatları və Azərbaycan dövlətinin özünün suveren ərazisini müdafiə etməsi barədə danışıb.

Hikmət Hacıyev Azərbaycanın dəfələrlə Ermənistan tərəfinin Yaxın Şərq ölkələrindəki muzdlu və hərbçiləri Ermənistan-Azərbaycan münaqişəsi zonasına cəlb etməyə çalışması ilə bağlı narahatlığını ifadə etdiyini bildirib. O, Ermənistanın uzun illərdir belə bir siyasət yürütdüyünü və bəzi Yaxın Şərq ölkələrindən terrorçuları Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsinə gətirdiyini və onlardan Azərbaycana qarşı istifadə etdiyini bildirib.

Prezidentin köməkçisi ötən əsrin 90-cı illərində də Ermənistan-Azərbaycan münaqişəsinin aktiv mərhələsində bir sıra terror təşkilatlarının Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilməsi və onların Azərbaycana qarşı döyüşməsi ilə bağlı faktların mövcud olduğu barədə məlumat verib. Ermənistanın kəşfiyyat xidmətlərinin Azərbaycan torpaqlarında 30-dan çox terror aktı törətdiyini qeyd edən Hikmət Hacıyev bununla bağlı Azərbaycanın narahatlığını ifadə edib və beynəlxalq ictimaiyyətin buna lazımi qaydada reaksiya göstərmədiyini vurğulayıb. O, Azərbaycanın heç bir muzdluya ehtiyacı olmadığını, əksinə, Azərbaycanın peşəkar silahlı qüvvələrə sahib olduğunu, ölkədə kifayət qədər şəxsi heyətin və ehtiyat qüvvələrinin olduğunu bildirib. "Bu səbəbdən bizim başqa bir ölkənin hər hansı şəxsi heyətinə və ya muzdlu döyüşçülərinə ehtiyacımız yoxdur," - deyə Hikmət Hacıyev qeyd edib.

Hikmət Hacıyev Azərbaycan dövlətinin özünün suveren ərazisini müdafiə etdiyini deyib. O, Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq hüquqa riayət etməklə vətəndaşlarımızın təhlükəsizliyini müdafiə etdiyini və ölkəmizin ərazilərinin Ermənistan işğalından azad edilməsi məqsədilə özünün suveren ərazisində fəaliyyət göstərdiyini bildirib.

Prezidentin köməkçisi hərbi qarşıdurmanın davam etdiyini və sentyabrın 27-si səhər saatlarından Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan mülki vətəndaşlarına qarşı atəş açdığını və Azərbaycan silahlı qüvvələrinin öz mülki əhalisinin təhlükəsizliyini qorumaq və Ermənistanı sülhə vadar etmək üçün əks-hücum tədbirləri həyata keçirdiyini bildirib. Otuz ildən çoxdur ki, biz danışıqlar prosesi aparırıq, lakin Ermənistan status-kvonu qoruyub saxlamaq üçün əlindən gələni edir. Onlar həmçinin Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni fəaliyyətlər həyata keçirirlər. Ermənilər Azərbaycanın işğal edilmiş ərazilərində məscidləri, islam mədəni irsini dağıdırlar. Dünyanın heç bir ölkəsində məscidlərin dağıdılması və məscidlərdə donuzların saxlanılması kimi hallar baş verməyib. Mülki azərbaycanlıları öldürən və işğal edilmiş ərazilərdə məscidləri və islam mədəni irsini dağıdan Ermənistan islam dünyasına və ərəb xalqına özünü necə dost kimi göstərə bilər? Onlar bu gün də Azərbaycan mülki əhalisini öldürməyə davam edirlər. Güclü artilleriya hücumları nəticəsində mülki vətəndaşlarımız həlak olub və ağır yaralanıb. Beynəlxalq ictimaiyyət bu vəhşiliyi, Ermənistanın əsl üzünü görməlidir. Biz islam ümmətinə, xüsusilə Türkiyəyə, Səudiyyə Ərəbistanına və Pakistana minnətdarıq. Ermənistanın Azərbaycana təcavüzünə görə bu ölkələrin Ermənistan ilə diplomatik əlaqələri yoxdur. Biz, həmçinin İslam Əməkdaşlıq Təşkilatına (İƏT) minnətdarıq. İƏT Ermənistanın Azərbaycana qarşı törətdiyi təcavüzü pisləyən qətnamələr qəbul edib.

Prezidentin köməkçisi vurğulayıb ki, yalnız Ermənistan öz qoşunlarını Azərbaycan ərazisindən çıxardıqdan sonra biz sülhdən danışa bilərik. Ermənistanın müdafiə naziri yeni ərazilər üçün yeni müharibələr konsepsiyasını elan edib. Ermənistan nə zaman təxribatlara son qoyacaq? Ermənistan beynəlxalq ictimaiyyəti aldatmağa və çaşdırmağa son qoymalıdır.

## Azərbaycan Prezidentinin köməkçisi İsrail portalına müsahibəsində Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzündən danışıb

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İsrailin "Walla" xəbər portalına müsahibəsində Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü barədə danışıb.

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi müsahibəsində İsrail-Azərbaycan əlaqələrinə, xüsusilə də uğurlu hərbi əməkdaşlığa, ticarət tərəfdaşlığına da toxunub. "Biz bir çox sahələrdə əməkdaşlıq edirik. Biz əlaqələrimizi, eləcə də hərbi əməkdaşlığımızı yüksək qiymətləndiririk", - deyə Hikmət Hacıyev qeyd edib.

## Böyük Britaniyanın "The Times" qəzeti Azərbaycan səfirinin cavab məktubunu dərc edib

Bu günlərdə Böyük Britaniyanın "The Times" qəzetində guya Türkiyənin Ermənistan silahlı qüvvələri ilə döyüşmək üçün Azərbaycana muzdlu əsgərlər göndərməsi ilə bağlı reallığı əks etdirməyən informasiya dərc olunub.

Azərbaycanın Böyük Britaniyadakı səfiri Tahir Tağızadənin həmin qəzetdə bu qərəzli informasiya ilə əlaqədar cavab məktubu dərc olunub. Səfir həmin informasiyanın müəllifinə yazır:

"Sizin xəbəriniz reallığı əks etdirmir. Özünün yüksəkixtisaslı və lazımi səviyyədə təchiz olunmuş Silahlı Qüvvələri olduğu halda, Azərbaycan başqa bir ölkənin döyüşçülərinə niyə ehtiyac duysun? Azərbaycanla Türkiyə arasındakı hərbi əməkdaşlıq yalnız hərbi təlimlərin keçirilməsi ilə məhdudlaşır. Digər tərəfdən, indiyədək Yaxın Şərqin bu münaqişəyə cəlb olunması ancaq Livan və Suriyadan olan etnik ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşdırılması ilə bağlıdır".

# Almaniyanın "Nex24.news" portalında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən bəhs edən məqalə dərc olunub

Almaniyanın "Nex24.news" portalında "BMT: Ermənistan qoşunlarını Azərbaycan ərazisindən çıxarmalıdır" adlı məqalə dərc edilib.




AZƏRTAC xəbər verir ki, Almaniyada yaşayan azərbaycanlı alim Asif Məsimovun müəllifi olduğu məqalədə Ermənistanın Azərbaycan ərazisinin 20 faizini işğal etməsi ilə nəticələnən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs olunur. Müəllif alman oxucularına bu il sentyabrın 27-də Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində döyüşlərin başladığını, nəticədə Azərbaycan tərəfdən mülki şəxslərin həlak olduğunu xatırladır. O qeyd edir ki, hakimiyyətə gəldiyi ilk gündən Azərbaycana qarşı təxribatlarla məşğul olan Ermənistanın baş naziri Nikol Paşinyanın mövqeyi münaqişənin gərginləşməsinə gətirib çıxarıb. Bundan əlavə, BMT-nin qəbul etdiyi qətnamələrin, habelə ATƏT-in Minsk qrupunun Madrid prinsiplərinin Ermənistanın fikir ayrılığı üzündən həyata keçirilmədiyi bildirilir.

Müəllif yazır ki, bir sıra ölkələr, təşkilatlar atəşkəs çağırışı edirlər, lakin buna Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması ilə nail olmaq mümkündür.

# Müdafiə Nazirliyi xəbər verir

## Müdafiə Nazirliyinin rəsmi teleqram kanalı istifadəyə verilib

Oktyabrın 1-dən Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəsmi teleqram kanalı **(https://t.me/Azerbaijan_MOD)** fəaliyyətə başlayıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Müdafiə Nazirliyinin təqdim etdiyi məlumatları operativ şəkildə əldə etmək istəyənlər yeni yaradılmış səhifəyə aşağıdakı keçid vasitəsilə abunə ola bilərlər:

**https://t.me/joinchat/AAAAAFRJdL3rSk913o87trw**

## Azərbaycan Ordusu ancaq hərbi obyektlərə zərbə endirir

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan tərəfinin guya mülki şəxslərin Azərbaycan Ordusu tərəfindən atəşə məruz qalması ilə bağlı yalan məlumatlarını təkzib edib.

Bununla əlaqədar Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib: "Ermənistan tərəfi Hadrut və Xocavənd yaşayış məntəqələrində məskunlaşan mülki əhalinin Azərbaycan Ordusunun atəşinə məruz qalması barədə növbəti yalan məlumat yayıb. Bir daha bildiririk ki, Ermənistan ordusundan fərqli olaraq, Azərbaycan Ordusu mülki əhaliyə deyil, yalnız hərbi obyektlərə zərbələr endirir.

Bölmələrimiz tərəfindən düşmən işğalı altında olan Hadrut yaşayış məntəqəsindəki Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının qərargahına, onun tabeliyində olan 1-ci motoatıcı alayın infrastrukturuna və Xocavənddəki 3-cü motoatıcı alayın qərargahına atəş zərbələri endirilib".

## Azərbaycan HHQ-nin döyüş təyyarəsi və helikopterləri bugünkü döyüşlərdə tətbiq olunmayıb

Ermənistan tərəfinin guya bu gün Azərbaycan Hərbi Hava Qüvvələrinə (HHQ) məxsus 3 təyyarə, 2 helikopter və 6 pilotsuz uçuş aparatının (PUA) vurulması ilə bağlı məlumatı dezinformasiyadır.

Bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a açıqlamasında deyib.

V.Dərgahlı bildirib ki, bu gün Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus heç bir aviasiya vasitəsi ümumiyyətlə havaya qalxmayıb. HHQ-nin bütün döyüş aviasiya vasitələri tam tərkibdə sıradadır və döyüş qabiliyyətlidir.

Görünən odur ki, Ermənistan müdafiə nazirliyinin rəsmiləri Azərbaycanın itkiləri barədə yalan məlumatlar yaymaqla təsəlli tapmağa çalışırlar.

## Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus təyyarə və helikopterin vurulması barədə məlumat yalandır

Ermənistan mətbuatında guya Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus təyyarə və helikopterin vurulması və İran ərazisinə düşməsi barədə yayılan məlumatlar yalandır və əsassızdır.

Bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a açıqlamasında deyib.

V.Dərgahlı bildirib ki, Hərbi Hava Qüvvələrimizə məxsus bütün aviasiya vasitələri tam tərkibdə sıradadır və döyüş qabiliyyətlidir.

## Ermənistan ordusunun hərbi hissəsinin zərərsizləşdirilən komandirinin yerinə fərarilik etmiş zabit təyinat alıb

Ermənistan ordusunun Madagizdə yerləşən 6-cı dağ atıcı alayının komandiri və onun müavini Azərbaycan Ordusunun bölmələrinin artilleriya atəşinə məruz qalıb və ağır yaralı vəziyyətdə döyüş mövqeyindən çıxarılıb.

AZƏRTAC xəbər verir ki, həmin hərbi hissə komandirinin yerinə 10-cu dağ atıcı diviziyasının komandir müavini Gevorq Manqalaryan təyin edilib.

Qeyd edək ki, G.Manqalaryan 2016-cı il Aprel döyüşləri zamanı döyüş meydanını özbaşına tərk etdiyi üçün ciddi şəkildə cəzalandırılıb. Lakin sonradan yüksək rütbəli qohumlarının müdaxiləsi nəticəsində yenidən bəraət qazanıb və müvafiq vəzifəyə təyin edilib.

Məlumdur ki, G.Manqalaryan komandanlığın etimadını qazanmayıb, əsgərlər və kiçik zabitlər arasında nüfuzu yoxdur. Bu fakt Ermənistan ordusunda vəziyyətin acınacaqlı olduğunu göstərir.

## Ermənistanın Gorus rayonundan Azərbaycan əraziləri yenidən raket atəşinə tutulub

Oktyabrın 1-də saat 17.28-də Ermənistanın Gorus rayonu ərazisindən Azərbaycan əraziləri yenidən atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistandan atılan raketlər Cəbrayıl-Füzuli ərazisindəki cəbhə xəttinə düşüb.

## Şanlı Ordumuzun apardığı qətiyyətli əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir

*Düşmənin ümumilikdə:*

- **2300**-dən artıq canlı qüvvəsi;
- **200**-dək tank və digər zirehli texnikası;
- **228**-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;
- **30**-dan çox hava hücumundan müdafiə vasitələri;
- **6** komanda-idarəetmə və komanda-müşahidə məntəqələri;
- **5** silah-sursat anbarı;
- **50**-dən artıq tank əleyhinə vasitələr;
- **110**-dan artıq avtomobil texnikası;
- **8** "Qrad" yaylım atəşli reaktiv sistemi;
- **1** "S-300" zenit-raket kompleksi məhv edilib.

Azərbaycan Ordusunun apardığı qətiyyətli əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir. Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilərdəki düşmən mövqelərinə gecə ərzində bölmələrimiz tərəfindən sarsıdıcı artilleriya zərbələri endirilib.



AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 1-də keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistanın ərazisindən cəbhəboyu Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini, Füzuli rayonunun Horadiz şəhərini, Goranboy, Tərtər və Ağdam rayonlarını yenidən artilleriya atəşinə tutub.

Əməliyyatın beşinci gününün sonunadək düşmənin canlı qüvvədə, hərbi və döyüş texnikası baxımından xeyli sayda itkisi var. Düşmən bütün cəbhə boyunca tutduqları mövqelərdən və ərazinin vacib sahələrindən geri çəkilməyə məcbur edilib. Ermənistan ordusunun müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları bölmələrimiz tərəfindən dəqiq atəşlə məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi xüsusilə qeyd edib ki, Ermənistan mətbuatında guya Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus təyyarə və helikopterin vurulması və İran ərazisinə düşməsi barədə yayılan məlumatlar yanlışdır və əsassızdır. Hərbi Hava Qüvvələrimizə məxsus bütün aviasiya vasitələri tam tərkibdə sıradadır və döyüş qabiliyyətlidir.

Məlumat verilib ki, ötən müddət ərzində düşmənin 200-dək tank və digər zirehli texnikası, 228 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatanları, 30 ədəd hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 5 silah-sursat anbarı, 110-dan artıq avtomobil texnikası, 1 ədəd "S-300" zenit-raket kompleksi sıradan çıxarılıb.

"Dünən məlumat verildiyi kimi, Ermənistan ordusunun alay komandiri və onun müavini Azərbaycan Ordusunun bölmələrinin dəqiq artilleriya atəşi nəticəsində məhv edilib. Alayın köməyinə gələn düşmənin əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilib. Əsgəri şərəf, şücaət və şöhrət rəmzi olan döyüş bayrağını döyüş meydanında atıb qaçan düşmən bir daha acizliyini nümayiş etdirib. Döyüş bayrağını qoruya bilməyən ordunun iki yolu var. Ya ərazimizi tərk etməli, ya da yerində məhv olacaq. Qələbə bizimlədir!", - deyə polkovnik-leytenant Anar Eyvazov bildirib.

## Düşmən ordusu itkilərə məruz qalıb

Ermənistan silahlı qüvvələrinin işğal altında olan torpaqlarımızda tutduqları mövqelərinə gecə ərzində bölmələrimiz tərəfindən sarsıdıcı artilleriya zərbələri endirilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

* * *

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan ordusunun artilleriya qurğularının məhv edilməsinin videogörüntülərini yayıb.

AZƏRTAC xəbər verir ki, Müdafiə Nazirliyinin Mətbuat xidmətinin yaydığı videoda düşmənin artilleriya qurğularının Azərbaycan Ordusunun bölmələrinin dəqiq atəşi ilə məhv edilməsi əks olunub.

* * *

Azərbaycan Ordusunun bölmələri düşmənin hava hücumundan müdafiə vasitələrini və yaylım atəşli reaktiv sistemlərini məhv edib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Müdafiə Nazirliyinin Mətbuat xidməti düşmən ordusuna məxsus texnikanın məhv edilməsi ilə bağlı görüntüləri paylaşıb.



## Ermənistan ordusu təminat baxımından ciddi problemlərlə üzləşir

Ermənistan hərbi birləşmələri Azərbaycan Ordusu bölmələrinin hücumlarının təzyiqləri altında bütün cəbhəboyu ağır itkilər verir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən Ermənistan ordusunun hərbi birləşmələrinin öz bölmələrinin maddi-texniki təminatında ciddi çətinliklərlə üzləşdiyi məlum olub.

Ermənistanın hərbi komandanlığını narahat edən məqam odur ki, bölmələrimizin hücumlarına məruz qalmaqdan qorxan arxa cəbhə hərbi qulluqçuları döyüş sursatı və yanacaq-sürtkü materiallarını ön xətt bölmələrinə çatdırmaqdan imtina edirlər.

## Mərakeş Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir

Oktyabrın 1-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov Mərakeş Krallığının ölkəmizdə səfiri Adil Embarş ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan Respublikası ilə Mərakeş Krallığı arasında ikitərəfli siyasi münasibətlərin inkişafından məmnunluq ifadə olunub və gələcək inkişaf perspektivləri müzakirə edilib.

Görüşdə həmçinin iqtisadiyyat, humanitar, turizm, alternativ və bərpa olunan enerji kimi sahələrdə əməkdaşlığın inkişafı üçün əlverişli imkanların olduğu diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov həmsöhbətinə Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin ağır nəticələri ilə bağlı məlumat verib və bölgədə yaşanan bu gərginliyin kökündə Ermənistanın davam edən işğalçılıq siyasətinin durduğunu vurğulayıb. Bu hücumun Ermənistanın son aylar ərzində həyata keçirdiyi məqsədyönlü təxribatçı fəaliyyətin davamı olduğunu bildirən nazir, Azərbaycan tərəfinin özünümüdafiə hüququ çərçivəsində və mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Ermənistan silahlı qüvvələrinə qarşı müvafiq əks-tədbirlər həyata keçirdiyini bildirib. Nazir bölgədə davamlı sülh və təhlükəsizliyinin təmin olunması üçün Ermənistanın silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal çıxarılmasının zəruri olduğunu bildirib və münaqişənin həllinin əsasını təşkil edən qərar və qətnamələr, o cümlədən BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərini qeyd edib.

Səfir Adil Embarş ölkələrimizin oxşar təhdidlər ilə üzləşdiyini vurğulayıb və Mərakeşin Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyini bildirib.

Nazir Ceyhun Bayramov Mərakeşin Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalına münasibətdə tutduğu ədalətli mövqeyinin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Eyni zamanda, tərəflər görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

* * *

Mərakeşin Xarici İşlər Nazirliyinin Azərbaycanın bu ölkədəki səfirliyinə ünvanlandığı notada Dağlıq Qarabağ regionundakı hərbi insidentlərin Mərakeş Krallığı tərəfindən narahatlıqla izləndiyi və günahsız mülki vətəndaşların ölümündən təəssüf hissinin keçirildiyi bildirilir.

AZƏRTAC xəbər verir ki, notada Mərakeş tərəfləri təmkinli olmağa, Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüquq və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll etməyə çağırır.

"Mərakeş Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir, istənilən separatçılıq və ya silahlı üsyan addımlarını qınayır", - deyə notada qeyd edilir.

## Silahlı Qüvvələrimiz məqsədinə nail olmaq üçün hər hansı kənar qüvvəyə ehtiyac duymayacaq qədər peşəkar və güclüdür

Son günlərdə bəzi xarici KİV-də guya ki, Azərbaycana Suriyadan döyüşçülərin gətirilməsi ilə bağlı tamamilə yalan və iftira dolu qarayaxma kampaniyasının aparıldığını müşahidə edirik.

Heç bir fakta əsaslanmayan, uydurma şəxslərlə müsahibələr şəklində yayılan bu iddiaların arxasında Ermənistanın durduğu heç bir şübhə doğurmur.

AZƏRTAC xəbər verir ki, bu sözləri Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayevanın bəzi xarici media agentlikləri tərəfindən yayılan guya Azərbaycana Suriyadan döyüşçülərin gətirilməsi ilə bağlı iddiaları şərh edərkən deyib.

Leyla Abdullayeva bildirib: "Bu qarayaxma kampaniyasının məqsədi Ermənistan tərəfindən son zamanlar nümayişkaranə şəkildə həyata keçirilən və beynəlxalq humanitar hüququn kobud pozulması olan Yaxın Şərq ölkələrindən terror təşkilatlarının nümayəndələrinin Azərbaycanın işğal olunmuş ərazilərinə köçürülməsinin yaratdığı mənfi beynəlxalq ictimai rəyi kompensasiya etmək cəhdidir.

Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarının işğalı zamanı hərbi əməliyyatlarda terror qruplaşmalarından və muzdlu döyüşçülərdən istifadə edildiyinə dair çoxsaylı faktlar mövcuddur. Hazırda da Ermənistan rəhbərliyi bu siyasəti davam etdirərək həyata keçirdiyi yeni təcavüz aktı çərçivəsində Azərbaycana qarşı ekstremist ünsürlərdən geniş istifadə edir. Belə ki, Ermənistanın hərbi məqsədlər üçün istifadə olunacaq "könüllü döyüşçü dəstələrin" yaradılması planı məhz illər ərzində Yaxın Şərq bölgəsindən Ermənistana köçürülmüş terrorçuların "xidmətlərindən" istifadə etmək məqsədi güdür.

İllərdən bəri ağır demoqrafik böhran yaşayan və bunun nəticəsində silahlı qüvvələrini komplektləşdirmək iqtidarında olmayan Ermənistandan fərqli olaraq, Azərbaycanın tam komplektləşdirilmiş Silahlı Qüvvələri mövcuddur və Silahlı Qüvvələrimiz qarşıya qoyulan məqsədə nail olmaq üçün hər hansı bir kənar qüvvəyə, xüsusilə də qeyri-nizami qruplaşmalara ehtiyac duymayacaq qədər peşəkar və güclüdür.

Bu uydurma iddialar sadə məntiqə sığmadığı kimi, hərbi-texniki cəhətdən də tutarsızdır. Müxtəlif mənbələr guya ki, Azərbaycana təxminən bir neçə yüz nəfər muzdlunun gətirildiyini iddia edir. O zaman belə bir sual ortaya çıxır; iki nizami ordunun mümkün toqquşması kontekstində azsaylı qeyri-nizami dəstələr qüvvələr balansında nə dəyişiklik edə bilər? Əlbəttə, dezinformasiyanı yayanlar bu suala cavab vermək iqtidarında deyil.

Bir daha Azərbaycana qarşı aparılan bu çirkin iddiaları qətiyyətlə rədd edir və Azərbaycan Ordusunun öz beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünü təmin etmək üçün heç bir kənar qüvvəyə ehtiyacı olmadığını vurğulayırıq".

## XİN Dağlıq Qarabağda "Le Monde" qəzetinin iki jurnalistinin yaralanmasına dair məlumatla bağlı açıqlama yayıb

Ermənistan KİV-i işğal olunmuş Dağlıq Qarabağ bölgəsində Fransanın "Le Monde" qəzetinin iki jurnalistinin yaralanması ilə bağlı məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin məsələ ilə bağlı yaydığı açıqlamada bildirilir: Ermənistan xarici jurnalistlərin həyatını təhlükə altına ataraq və beynəlxalq humanitar hüququ kobudcasına pozaraq jurnalistlərin hərbi əməliyyatların getdiyi əraziyə səfərini təşkil edir.

Xatırladırıq, Azərbaycan Respublikası Müdafiə Nazirliyi sentyabrın 27-də rəsmi şəkildə bəyan edib ki, Azərbaycan Ordusu mülki əhalini və obyektləri hədəfə almır, işğalçı Ermənistandan fərqli olaraq hərbi əməliyyatlar zamanı Cenevrə konvensiyaları da daxil olmaqla beynəlxalq humanitar hüququn müddəalarının tələblərinə riayət edir.

Xarici jurnalistlərin məqsədyönlü şəkildə təhlükəli əraziyə aparılması Ermənistan hökumətinin jurnalistlərin təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar öhdəliklərinə məhəl qoymadığını və xarici jurnalistlərdən özünün qanunsuz təbliğat məqsədləri üçün istifadə etdiyini açıq şəkildə göstərir.

Tərəfimizdən xarici jurnalistlərə müraciət edərək Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrinə səfərlə əlaqədar, ilk növbədə, Azərbaycan tərəfinin razılığının alınmasını ciddi tövsiyə edirik".

## Gənclər və İdman naziri Ermənistanın təcavüzü ilə əlaqədar beynəlxalq təşkilatlara məktub göndərib

Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov xarici ölkələrin gənclər və idman sahələrinə məsul nazirliklərinə, beynəlxalq təşkilatlara və digər aidiyyəti qurumlara Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı məktub göndərib.

Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məktubda Ermənistanın Azərbaycana qarşı otuz ildir davam edən silahlı təcavüzü nəticəsində ölkəmizin ərazilərinin 20 faizi, o cümlədən Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonun işğal edildiyi, 20 min azərbaycanlının həlak olduğu, 50 min insanın yaralandığı və müxtəlif dərəcəli xəsarətlər aldığı, 5 mindən artıq azərbaycanlının əsir və itkin düşdüyü vurğulanıb.

Həmçinin məktubda Ermənistanın öz ərazisində və işğal etdiyi Azərbaycan torpaqlarında həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsi, 1994-cü ildə əldə edilmiş atəşkəs rejiminə baxmayaraq, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindəki mülki əhalini və hərbi mövqeləri davamlı olaraq hədəfə alması, nəticədə yüzlərlə vətəndaşımızın öldürülməsi və ya müxtəlif dərəcəli bədən xəsarətləri alması əksini tapıb.

Məktubda 1992-ci ilin fevralında Ermənistan ordusu tərəfindən törədilmiş Xocalı soyqırımı haqqında da məlumat verilib. Ermənistanın Cenevrə Konvensiyasını, o cümlədən BMT-nin Uşaq Hüquqları Konvensiyasını və insan hüquqları sahəsində digər sənədlərin müvafiq müddəalarını kobud şəkildə pozması xüsusilə diqqətə çatdırılıb.

Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətinin mühüm məqamlarını özündə əks etdirəm məktubda sentyabrın 27-də səhər saat 06:00-dan etibarən Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini növbəti dəfə kobud şəkildə pozaraq bir neçə istiqamətdə müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək Azərbaycanın yaşayış məntəqələrini, eyni zamanda, hərbi mövqelərini atəşə tutduğu bildirilib. Qeyd olunub ki, nəticədə Naftalan rayonunun Qaşaltı kənd sakini Elbrus Qurbanov və onun ailəsinin dörd üzvü olmaqla, ümumilikdə 20-dək mülki şəxs, o cümlədən uşaqlar həlak olub, onlarla mülki şəxs müxtəlif növ bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib. Mülki şəxslər arasında itkilərin sayının hər gün artdığı diqqətə çatdırılıb.

# Xalq Orduya və Komandana güvənir, arxalanır



# Erməni «pandemiya»sı

## Şanlı Azərbaycan Ordusu Qarabağda şovinizm və separatçılıq virusunun kökünü birdəfəlik kəsəcək

*Əvvəli 1-ci səh.*

Dünyaya qan tökmək missiyası ilə gələn faşist ideologiyalı erməni vandallarının törətdikləri 1918-ci il mart soyqırımı, 1992-ci il 26 fevral - Xocalı soyqırımı, əsir götürdükləri soydaşlarımızın başına gətirdikləri müsibətlər heç kəsin yadından çıxmayıb, dünya durduqca erməni adının qarşısında qara ləkə kimi qalacaq. Amma hələ özləri bunun fərqində deyillər. "Böyük Ermənistan" kimi sərsəm xülyaların başlarını dumanlandırması bu qeyri-insani əməllər zamanı bir həqiqəti dərk etmələrinə imkan verməmişdi...

Zəhərlə itilədikləri yalan neştərlərinin tezliklə özlərinə batacağından xəbərsizdilər...

Elə Azərbaycanın ürəyi Qarabağa göz dikmələri, iştah salmaları, bu igidlər yurduna yiyələnə biləcəkləri kimi xam xəyalları da, uydurmalarına cani-könüldən inanmaları da yalanla yoğrulmuş xüsusiyyətlərindən irəli gəlir. Tarixə saxta izlər qarışdırır, utanmadan erməni köklərinin "minillər" əvvələ uzandığını iddia edir, başqa xalqların mədəniyyətini oğurlayır, hərisliklə mənimsəməyə çalışır, həyasızlıqla özününkü olduğunu söyləyirlər. Namərdliklə, yaltaqlıqla nəsə əldə etmək istəyirlər. Başqalarına aid torpaqlarda qondarma "dövlət" qurmaq kimi gülünc hisslərə qapılırlar...

### Yeriyə bilməyən erməni yalanları

Hə, bir də daim "biçarə" obrazındadırlar. Maskalanaraq, timsah gözyaşları axıdaraq dünyanın gözündə əzilən, çətinliyə düçar olan "zavallı" xalq rolunu oynamağa çalışırlar...

Fitnə,Yalan...

Yer üzərində şərə xidmət edən ən pis insan əməli. Yalanın erməni genetikasında kodlaşdığı reallıqdır. Dünyaca məşhur yazıçılar, şairlər bununla bağlı əsərlərində qeydlər etməyi özlərinə borc biliblər. Gələcək nəsilləri bu barədə xəbərdar edib, ayaq açıb dünyada yeriməyə çalışan erməni yalanlarına qarşı sayıq olmalarını istəyiblər. Yazıçı Jemçuynikov ikicə cümlə ilə onların bu xislətini çox dəqiq təsvir edib: "Qışqıra-qışqıra danışmaq bu xalqın xəstəliyidir. Özgə millətləri də özlərinin xeyrinə qışqırmağa, yalan informasiya yaymağa cəlb edə bilirlər".

Bəli, xəstəlik...

Bir gün isə Valdayda "Qarabağ Azərbaycandır!" deyə hayqıran haqq səsinin başlarına ildırım kimi çaxmasından səksənərək ayılmış, yaşadıqları yalan-palan, qurama, uydurma dünyalarından kəllə-mayallaq gerçəyin özünə yuvarlanmışdılar...

Vurma-çalmaya düşmüş, nə edəcəklərini şaşırıb bir daha yalana sarılmışdılar, yalana...

Amma heyhat, daha əyyam o əyyam deyil. Daha erməni yalanları işə yaramır. Hər keçən an əleyhlərinə işləyir, yürütmək istədikləri məkrli siyasətləri özlərinə qarşı çevrilir. Ermənistan batdıqca-batır, fəlakətə sürüklənir, səfalət içərisində yaşayan xalqlarının zülmü bir az daha artırdı...

Təbii ki, çərxi-fələyin getdikcə haqq yolunda məcraya düşməsi onları özündən çıxarırdı. Daha ağlasığmaz böhtanlara, qarayaxmaya əl atır, təxribatlarına davam edir, dünyanın gözünü boyamağa çalışırdılar. Və hər dəfəsində də Azərbaycan tərəfindən tutarlı cavablarla, inkar edilməsi mümkün olmayan faktlarla susdurulur, yerlərinə otuzdurulurdular...

### Ermənistanın növbəti hərbi təxribatı öz başında çatladı

2020-ci il başlayandan isə dünya COVID-19 adlı pandemiya ilə qarşılaşdı, onunla mübarizəyə atıldı. Ermənistan hakimiyyəti üçün pandemiya vəziyyəti bir fürsətə çevrildi. Yeni yararları, çıxarları üçün istifadə edə biləcəkləri daha bir meydan tapdılar. Koronavirusun ölkə daxilində tüğyan etməsinə, xalqının sağlığını təhlükəyə atmasına əngəl olmağa belə çalışmadan digər ölkələrdən yardım almaq, pul dilənmək üçün hiyləgər bir ova çıxdılar...

Digər tərəfdən isə Ermənistan rəhbərliyi yarıtmaz siyasətini ört-basdır etmək, ictimaiyyətin diqqətini xarici düşmən obrazına yönəltmək üçün məkrli plan da hazırladı.

Dünya birliyinin pandemiyaya qarşı mübarizə apardığı bir şəraitdə Ermənistan Azərbaycana qarşı təxribata əl atdı və bunun sayəsində bəşəriyyət bir daha bu terrorçu rejimin növbəti riyakarlığının, çirkin oyununun və hiyləgərliyinin şahidi oldu.

İyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozdular, artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutdular, hücuma keçməyə cəhd göstərdilər. Amma qəhrəman oğullarımızın şücaəti sayəsində əzildilər, yerlərinə otuzduruldular. Çünki generalından sıravi əsgərinə qədər igid Azərbaycan Ordusunun hər bir üzvü daim ayıq-sayıq vətənimizin müdafiəsindədir.

Bu acı aqibətdən yenə də dərs almayan Ermənistan sentyabrın 27-də növbəti hərbi təxribata əl atdı, mülki əhaliyə qarşı təcavüzkar hücuma keçdi. Və azğın düşmən elə bu uğursuz cəhdi ilə də öz sonunun başlanğıcını yetişdirdi. Məkrli niyyətləri ilə bir daha rüsvay oldu və ağır vəziyyətə düşdü...

### Yağı düşmən, ərlərin, ərənlərin əzəli, əbədi yurdu Qarabağda sən məskən sala bilməzsən!

Şanlı Azərbaycan Ordusunun bütün cəbhə boyu əks-hücum əməliyyatına başlaması çox keçmədən ön xətdən qanadlanan qələbə müjdələrinə çevrildi. Bir həmləsi ilə düşməni pərən-pərən salan qəhrəman oğullarımız Vətən torpaqlarımızı ard-arda azad etməyə başladı. Doğma torpağımızın hər qarışı uğrunda düşmənə qan udduran polad iradəli minlərlə oğlumuz, gözünü qırpmadan Vətən yolunda fədaiyə çevrilən minlərlə igidimiz haqq savaşçısına çevrildi...

İndi Azərbaycan xalqı sevinc göz yaşları içərisində ordumuzun zəfərlərini qeyd edir. Hər kəs əmindir ki, ana yurdumuz Qarabağın bütünlüklə erməni vandallarından azad ediləcəyi o müqəddəs qələbə, ay-ulduzlu üçrəngli bayrağımızın Xankəndidə, Şuşada dalğalanacağı mübarək anlar uzaqda deyil...

Yağı düşmən, sən bil ki, ərlərin, ərənlərin əzəli, əbədi yurdu Qarabağda məskən sala bilməzsən. O igidlər diyarında, o hünərli sərkərdələr meydanında sən at oynada bilməzsən. O vüqarlı dağlarda, o sıldırım qayalarda sən oylaq qura bilməzsən. Elə dahi rus şairi Puşkinin dəqiq təsvir etdiyi kimi: "Sən köləsən, sən qorxaqsan, çünki sən ermənisən"...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Xalqımızın müqəddəs mübarizəsi

*Əvvəli 1-ci səh.*



Əli silah tutan, döyüş qabiliyyətli hər kəs cəbhədə, düşmənə layiqli cavab verən döyüşçülərimizin sırasında olmağı özünə şərəf bilir. Çünki bilirik ki, biz öz torpağımız uğrunda döyüşürük. Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşündə bu həqiqəti bir daha diqqətə çatdırıb: "Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq".

Dövlət başçısı bu münaqişədə bizim istədiyimizə nail olacağımıza, haqq-ədalətin öz yerini tapacağına və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa edəcəyinə, uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımızın öz doğma dədə-baba torpaqlarına qayıdacaqlarına əminliyini ifadə edib. "Mən bir daha demək istəyirəm ki, Azərbaycan öz doğma torpağında vuruşur və siz haqq yolunda yaralanmısınız. Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında - Azərbaycan torpağında ölür. Mən erməni xalqına üz tutub demək istəyirəm ki, onlar öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsinlər. Bu gün öz hökumətini məsuliyyətə cəlb etsinlər. Öz övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər. Nə işi var erməni əsgərinin Azərbaycan torpağında? Biz öz torpağımızda vuruşuruq. Bizim əsgər və zabitlərimiz öz torpağında həlak olur, öz torpağında yaralanır və biz öz torpaqlarımızı azad edirik" - görüşdə Prezident İlham Əliyev belə deyib.

Azərbaycan Ordusunun keçirdiyi uğurlu əməliyyat nəticəsində strateji yüksəkliklər, bir neçə yaşayış məntəqəsi işğalçılardan azad edilib. Hələ də Ermənistan ordusunun işğalında qalan Vətən torpaqlarımızı da bu xoş aqibət gözləyir. Prezident İlham Əliyev bir daha nəzərə çatdırıb: "Ona görə erməni xalqı bunu anlamalıdır. Anlamalıdır ki, 30 ilə yaxın başqa dövlətin torpağını zəbt etmək, orada bütün binaları, bütün tarixi abidələri dağıtmaq, 1 milyondan çox insanı öz doğma torpağından didərgin salmaq, Azərbaycan xalqına qarşı soyqırımı törətmək cinayətdir. Biz tarixi ədaləti bərpa edirik, tarixi ədaləti! Qarabağ bizim doğma, əzəli, tarixi torpağımızdır. Qarabağ xanlığının tarixinə baxmaq kifayətdir ki, hər kəs görsün, Azərbaycan xalqı əsrlərboyu bu torpaqlarda yaşayıb, qurub, yaradıb. Bizim müqəddəs ocağımız Şuşa şəhəri azərbaycanlılar tərəfindən salınıb. Bu gün işğal altında olan torpaqlar bizim tarixi torpaqlarımızdır. Bizim işimiz haqq işidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, buna bizim haqqımız çatır, bunu edirik və edəcəyik".

Haqq, ədalət bizim tərəfimizdədir. Çünki Azərbaycan xalqının, Azərbaycan dövlətinin tarixboyu heç bir ölkənin torpağında gözü olmayıb. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın da bildirdiyi kimi: "Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!"

Uzun illər Ermənistan ordusu atəşkəs rejiminin tələblərinə məhəl qoymayıb. Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə nəinki Azərbaycan Ordusunun mövqelərini, hətta azərbaycanlıların yaşayış məntəqələrini intensiv atəşə tutub. Nəticədə həm Azərbaycan Ordusu, həm də mülki əhali itkilər verib. Şəhid edilən yerli sakinlər arasında uşaqlar, körpələr də olub. Mehriban Əliyeva vurğulayıb: "Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir".

Bu gün dövlətimiz və xalqımız üçün həm də sınaq, necə deyərlər, dostu düşməndən ayırmaq günüdür. Birinci vitse-prezident Azərbaycan dövlətinə və xalqına dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən bütün insanlara, təşkilatlara və dövlətlərə dərin təşəkkürünü bildirib. İlk növbədə, qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana minnətdarlığını ifadə edən Mehriban Əliyeva onların həmrəyliyinin və mənəvi dəstəyinin bu gün hər bir azərbaycanlıya qürur hissi yaşatdığını diqqətə çatdırıb.

Mehriban Əliyeva Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua etdiyini bildirib: "Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görünməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!

Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!"

Bu müqəddəs arzunun tezliklə həyata keçəcəyinə inamımız böyükdür. Azərbaycan Ordusunun zəfər yürüşü bizi qələbəyə aparır!

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Qələbəyə Dəstək Hərəkatı yaradıldı

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə işğal olunmuş Azərbaycan torpaqlarını Ermənistanın işğalçı qoşunlarından təmizləmək üçün başladılan əks-hücum əməliyyatlarını həyata keçirən Azərbaycan Ordusuna dəstək məqsədilə iş adamlarının Qələbəyə Dəstək Hərəkatı ictimai təşəbbüs qrupu yaradılıb. Təşəbbüs qrupuna ilkin olaraq 22 şirkət qoşulub.




Qrupun üzvlərindən biri "Hədəf" şirkətlər qrupunun təsisçisi Şəmil Sadiq bildirdi ki, Qələbəyə Dəstək Hərəkatına qoşulan şirkət rəhbərləri bununla dövlətimizin, Ali Baş Komandanın yanında olduğunu bildirir, istər maddi, istərsə də mənəvi olaraq dövlətin hər bir çağırışına operativ dəstək verməyi, iş adamları arasında vətənpərvərlik ruhunun yüksəldilməsini, maarifləndirici işlərin aparılmasını qarşısına məqsəd qoyub: "Hazırda xeyli iş adamı var ki, könüllü olaraq ayrı-ayrılıqda öz öhdəsinə düşən işi görür, dövlətimizin, ordumuzun yanında olduğunu deyir, Silahlı Qüvvələrə Yardım Fonduna vəsaitlər ödəyir. Lakin düşünürük ki, bunu təşkilatlanmış formada, sistemli şəkildə koordinasiya etmək, ürəyindən keçib dəstəyi necə edəcəyinin yolunu bilməyən həmkarlarımızla birgə hərəkət etmək, bir əl, bir ürəklə müəyyən fəaliyyətlər həyata keçirmək daha yaxşı olar".

Qələbəyə Dəstək Hərəkatı ictimai təşəbbüs qrupunun üzvü İlham Alməmmədov qeyd edir ki, bu, bir könüllü qrupdur, heç bir siyasi, iqtisadi maraq güdmür: "Eyni arzularla yaşayan, vətən sevdalı iş adamları birlikdə hərəkət edərsə, dövlətimizə daha çox fayda verə bilər. Biz, 22 şirkət rəhbəri qarşımıza məqsəd qoymuşuq ki, torpaqlarımız işğaldan tam azad edilənə, yenidənqurma işləri bitənə qədər cani-dildən dövlətimizlə bir yerdə olacağıq".

Qələbəyə Dəstək Hərəkatı ictimai təşəbbüs qrupunun fəaliyyəti indilik bu cür planlaşdırılıb: iş adamlarının ordumuza maddi yardım və ianələrini rahat şəkildə çatdırmaları üçün bütün texniki, hüquqi problemləri həll etmək, düzgün istiqamətə yönləndirmək; Silahlı Qüvvələrə Yardım Fondunun təbliğat-təşviqat işində aktiv iştirak etmək; yaralılar və şəhid ailələrinə lazımi dəstəyi koordinasiya etmək; könüllü şəkildə ordu sıralarına qoşulan gənclərin ailələrinə dəstək, onları stimullaşdırmaq, xüsusən də iş yeri olmadan ordu sıralarına qoşulan könüllülərin ailələrinə aylıq müəyyən maliyyə yardımı etmək; gənc iş adamları arasında vətənpərvərlik və xeyriyyəçilik ruhunu formalaşdırmaq və istiqamətləndirmək adına maarifləndirmə işləri aparmaq; sərhədyanı bölgələrdə, geri alınan torpaqların yenidənqurma işlərində yaxından iştirak etmək.

İş adamlarının Qələbəyə Dəstək Hərəkatı ictimai təşəbbüs qrupunun "Facebook" qrupu və səhifəsi yaradılıb. Səhifənin yaradılmasında məqsəd Qələbəyə Dəstək Hərəkatının bütün fəaliyyətilə ictimaiyyəti mütəmadi olaraq məlumatlandırmaqdır. Təşəbbüs qrupu hərəkatla birgə fəaliyyət göstərmək istəyən iş adamları üçün açıqdır. Qrup üzvləri ümid edir ki, birgə fəaliyyətləri cənab Prezidentin qeyd etdiyi kimi, "Biz birlikdə güclüyük" ifadəsinin əməli nümunəsi olacaq.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Azərbaycan əsgərinin tarix yazacağı günə az qalıb

Saxta tarixi keçmiş yaratmaqla, müxtəlif xalqların mədəniyyətini oğurlamaqla havadarlarının hesabına əzəli Azərbaycan torpaqlarında özlərinə dövlət quran ermənilər xalqımıza qarşı əsrlərboyu düşmənçilik, soyqırımı siyasəti yürüdüblər. "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər XX əsrin sonlarında da yaranmış şəraitdən istifadə edərək Azərbaycana qarşı mənfur siyasətlərini davam etdiriblər.

Yenicə müstəqillik əldə etmiş, rəhbərliyi naşı adamlar əlinə keçən, vahid ordusu olmayan Azərbaycan erməni qəsbkarlarının hücumları nəticəsində ərazilərinin 20 faizini itirmiş, bir milyondan çox soydaşı qaçqın-köçkün şəraitində yaşamalı olmuşdur. Əsrin faciəsi kimi tarixə yazılan Xocalı faciəsi isə erməni vəhşiliyinin zirvəsinə çevrilmişdir.

Sonrakı illər xalqın tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin qətiyyəti, ciddi səyləri nəticəsində Azərbaycanda vahid mərkəzdən idarə olunan qüdrətli ordu yaradılmışdır. Bu ordunun gücünü görən ermənilər məcburiyyət qarşısında atəşkəs barədə müqavilə imzalamalı olmuşlar. Atəşkəs dövründə Milli Ordumuz daha da güclənmiş, hərbi arsenalımız ən müasir silahlarla təchiz edilmişdir. Ölkəmiz eyni zamanda diplomatiya sahəsində böyük uğurlar qazanmış, dünya ictimaiyyətinə erməni qəsbkarlarının iç üzünü açıb göstərmişdir.

Amma 30 ilə yaxın bir müddətdir ki, torpaqlarımızın bir hissəsi hələ də düşmən əsarətindədir. Ermənistan tərəfindən törədilən təxribatlar nəticəsində mülki əhalimiz həlak olur. Mənfur düşmənlərin təxribatlarının qarşısı isə ordumuz tərəfindən qətiyyətlə alınır. Tarixə Aprel döyüşləri kimi yazılan, bir neçə gün davam edən döyüşlər zamanı ordumuz düşmən təxribatının qarşısını almaqla yanaşı, uğurlu əks-hücum əməliyyatı keçirərək işğal altında olan bəzi ərazilərimizi azad etdi. Qarabağa dönüş başladı. Cocuq Mərcanlıda həyat bərpa olundu. Lələtəpə yüksəkliyində üçrəngli dövlət bayrağımız qürurla dalğalandı. Əfsuslar olsun ki, ermənilər tərəfindən təxribatlar davam etdirilir. Tovuz hadisələrində onlar bunu bir daha sübut etdilər.

Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin 75-ci sessiyasındakı çıxışında Ermənistanın işğalçılıq siyasəti barədə məlumat vermiş, Ermənistanın yeni torpaqlar işğal etmək üçün növbəti təxribatlara əl atacağını, sərhəddə texnika və canlı qüvvə topladığını, Qarabağ ərazisinə silahlı muzdluların gətirilməsi məsələsini dünya ictimaiyyətinin nəzərinə çatdırmışdır. Dövlət başçısı qeyd etmişdir ki, BMT qətnamələrini icra etməyən Ermənistan baş verə biləcək hadisələrə görə məsuliyyət daşıyacaq.

Sentyabr ayının 27-də Ermənistan növbəti dəfə təxribata əl atdı, səhər saatlarında erməni artilleriyası mövqelərimizi və mülki obyektlərimizi atəşə tutdu. Azərbaycan düşməni susdurmaq üçün əks-hücuma keçdi. Xalqımız illərlə gözlədiyi qələbə xəbərlərini almağa başladı. İşğalçı erməni qoşunları istər texnika, istərsə də canlı qüvvə baxımından itkilər verərək geri çəkilirlər.

Bəli, bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında müzəffər Ordumuz şanlı tarix yazır. Xalqımız haqq işində Prezidentin ətrafında sıx birləşib. Yüzlərlə gəncimiz könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edir, torpaqlarımızın azad olunmasında iştirak etmək istəyir. Hər zaman dövlətə, dövlətçiliyə sədaqəti ilə seçilən şabranlılar torpaqlarımızın bütövlüyü uğrunda bu gün də müsəlləh əsgərdirlər. İki Milli Qəhrəmanı olan Şabran yurdunun oğulları Ali Baş Komandanın rəhbərliyi altında Milli Ordumuzun əks-hücum əməliyyatlarında iştirak etmək üçün coşqu ilə cəbhəyə yollanırlar.

Ali Baş Komandan öz çıxışında bildirib: *"Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır! Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir. Azərbaycan vətəndaşı Vətən həsrəti ilə yaşayır. Ermənilər tərəfindən, Ermənistan rəhbərliyi tərəfindən öz dədə-baba torpaqlarından zorla didərgin salınmış insanlar öz doğma ocaqlarına qayıtmaq istəyirlər. Baxmayaraq ki, artıq onların ocaqları vəhşilər tərəfindən dağıdılıb".*

İnanırıq ki, Ali Baş Komandanın rəhbərliyi altında ordumuz zəfər yürüşünü davam etdirəcək, tezliklə üçrəngli, ay-ulduzlu dövlət bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq! Azərbaycan əsgərinin tarix yazacağı günə az qalıb.

***Çingiz XALİDOĞLU,***
***Şabran***

## Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir



# Sərkərdə qətiyyəti, əsgər rəşadəti

### İşğalçı Ermənistan ordusuna qarşı uğurlu hərbi əməliyyatlar həyata keçirən Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərini rəhbər tutur

**Sentyabrın 27-si səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mövqelərini, yaşayış məntəqələrini atəşə tutması nəticəsində hərbçilərimiz və mülki vətəndaşlarımız, o cümlədən qadın və uşaqlar qətlə yetirilib, yaralanıb, çoxsaylı evlərə və obyektlərə ciddi ziyan dəyib. Bu hadisə ilk öncə Ermənistanın işğalçı siyasət yürütməsinin növbəti bariz təsdiqidir.**



Dağlıq Qarabağ münaqişənin həlli ilə bağlı proseslərin indiyə qədərki gedişatı göstərir ki, Bakı həmişə danışıqlar prosesinə tərəfdar olub, problemin həllinə dair müxtəlif variantlar ətrafında müzakirələrə hazır olub. Prezident İlham Əliyevin “Rossiya-1” telekanalının “60 dəqiqə” proqramına verdiyi müsahibədə qeyd etdiyi kimi, Azərbaycan danışıqlarda həmişə konstruktivlik nümayiş etdirib. Vasitəçilik missiyası üçün cavabdeh olan Minsk qrupunun həmsədrləri də bunu təsdiq edə bilərlər. O cümlədən son iki ildə dəfələrlə bəyan edilib ki, illər boyu işlənib hazırlanmış, Minsk qrupunun və onun həmsədrlərinin danışıqlar prosesi üçün əsas hesab etdikləri nizamlama prinsiplərinə sadiqik. Üstəlik, son iki ildə və bundan əvvəl də dəfələrlə bəyan edilib ki, Azərbaycan danışıqların formatına da sadiqdir.

Lakin Ermənistanın xüsusən son bir ildə artan hərbi ritorikası, Paşinyan rejiminin öz siyasəti ilə danışıqlar prosesini dalana dirəməsi, o cümlədən son aylarda törətdiyi hərbi təxribatlar problemin müharibə yolu ilə həllindən başqa çıxış yolu qoymadı. Baş nazir Nikol Paşinyanın “Qarabağ Ermənistandır”, “Danışıqların formatı dəyişdirilməlidir”, “Yeni ərazilər işğal edəcəyik” kimi sərsəmləmələri, Yaxın Şərq ölkələrindən erməniəsilli ailələrin, terrorçuların Qarabağa gətirilməsi, qondarma seçkilərin keçirilməsi, Şuşanın paytaxt elan edilməsi kimi təxribatçı hərəkətlər göstərdi, Ermənistanla danışıqların aparılması mənasızdır və müharibədən başqa yol yoxdur. Nümayişkaranə şəkildə əslən Livandan olan ermənilərin Azərbaycanın işğal edilmiş ərazilərində və qədim Şuşa şəhərində məskunlaşdırılması müharibə cinayətidir. Bu, Cenevrə Konvensiyasının pozulması deməkdir. Sonra onlar Şuşada - Azərbaycan mədəniyyətinin qədim incisində cinayətkar Dağlıq Qarabağ rejiminin qondarma başçısının qondarma inaqurasiyasını keçirdilər. Bütün bunlar şüurlu təxribatlar, Azərbaycanı münaqişəyə cəlb etmək və cavab hərəkətlərinə təhrik etmək idi. Azərbaycan son aylarda təmkin, konstruktivlik və sağlam düşüncə nümayiş etdirdi. Lakin Ermənistanın Dağlıq Qarabağdakı təxribatçı hərəkətləri baş tutmayanda sentyabrın 27-də məlum hərbi təxribatı törətdilər. Artıq zaman yetişib, torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsi başlayıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin müharibə yolu ilə həllinə gətirib çıxaran əsas səbəblərdən biri təbii ki, beynəlxalq təşkilatların məsələyə illərdir laqeyd yanaşması, işğalçıya qarşı təsirli mexanizmləri işə salmamalarıdır. Məlumdur ki, ayrı-ayrı təşkilatlar, xüsusən BMT, NATO, ATƏT, Avropa Şurası lazım gələndə beynəlxalq hüququn təmin olunması istiqamətində qətiyyətli addımlar atır, siyasi və hərbi məzmunlu qərarlar qəbul edə bilirlər. Lakin Azərbaycan torpaqlarının işğalına münasibətdə bunların heç biri baş vermədi. Bütün dünyanın gözü qarşısında Ermənistan beynəlxalq hüququn normalarını kobud şəkildə pozub, Azərbaycanın ərazi bütövlüyünə qəsd olunub. BMT-nin 1993-cü ildə qəbul etdiyi 4 qətnamə, o cümlədən ATƏT-in və Avropa Şurasının müxtəlif illərdə qəbul etdiyi sənədlər kağız parçasına çevrilib.

Prezident İlham Əliyev bu günlərdə həm BMT-nin tribunasından, həm Avropa İttifaqının Cənubi Qafqaz üzrə təmsilçisi ilə söhbəti zamanı bu məsələlərə ətraflı toxundu, beynəlxalq təşkilatları həm də Ermənistana qarşı təsirli mexanizmlər tətbiq etməyə çağırdı, həm də Ermənistanın son vaxtlar intensivləşdirdiyi təxribatçı əməlləri diqqətə çatdırdı. Əlbəttə, beynəlxalq təşkilatlar, bu gün Azərbaycanı danışıqlara dəvət edən dövlətlər vaxtında Ermənistana təsir etsəydilər, cəbhədə yenidən hərbi əməliyyatlar başlamazdı, problemin danışıqlar yolu ilə həlli istiqamətində işlər davam edərdi.

Beynəlxalq ictimaiyyətin susqunluğunun, hətta bəzi dövlətlərin təəssübkeşliyinin nəticəsidir ki, Ermənistan özünü tam cəzasızlıq mühitində hesab edərək yenidən Azərbaycan torpaqlarına hücuma keçdi. Ancaq unutdular ki, Azərbaycan 1990-cı illərin əvvəllərindəki dağınıq ölkə deyil. Azərbaycan iqtisadi cəhətdən kifayət qədər inkişaf etmiş, güclü orduya malik, Ermənistandan fərqli olaraq bir çox millətlərin nümayəndələrinin mehriban şəkildə yaşadığı multikultural, tolerant bir ölkədir. Paşinyan hakimiyyəti Azərbaycanın əks-hücum əməliyyatlarına başlayacağını güman etmirdi. Bəli, Tovuzda Azərbaycan Ordusu yalnız erməni hərbi bölmələrini ərazilərimizdən çıxardı. Prezidentin qeyd etdiyi kimi, bizim başqa ərazilərdə gözümüz yoxdu. Amma işğal altında olan Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycanın beynəlxalq hüquq normaları ilə tanınmış əraziləridir. BMT həmin torpaqları Azərbaycan ərazisi olaraq tanıyır. BMT Nizamnaməsinin 51-ci maddəsi isə respublikamıza öz ərazi bütövlüyünü təmin etmək hüququ verir. Bu Nizamnaməyə əsasən heç nə təcavüzə məruz qalmış dövlətin fərdi və ya kollektiv özünümüdafiə haqqını gerçəkləşdirməsini əngəlləmir.

Bu günlərdə cəbhə xəttində işğalçı Ermənistan ordusuna qarşı uğurlu hərbi əməliyyatlar həyata keçirən Azərbaycan məhz beynəlxalq hüququn norma və prinsiplərini rəhbər tutur. Elə bir vəziyyət yaranıb ki, heç bir dövlət və ya təşkilat Azərbaycana bu müharibəyə görə irad tuta bilməz. Çünki döyüşlər Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində gedir.

Prezident İlham Əliyev hər zaman bəyan edib ki, ikinci Ermənistan dövlətinin yaradılmasına imkan verilməyəcək və respublikamız istənilən yolla ərazi bütövlüyünü bərpa edəcək. Bu günlərdə Ordumuz cəbhə xəttində uğurlu hərbi əməliyyatlar həyata keçirməkdədir. Düşmənin ön xətt mövqeləri darmadağın edilib, bəzi kəndlərimiz işğaldan azad edilib. Bu gün istər işğal olunmuş Dağlıq Qarabağda, istərsə Ermənistanın özündə ciddi humanitar və iqtisadi fəlakət baş verməkdədir. Nə qədər gizlətməyə çalışsalar da, Ermənistanın canlı itkisi kifayət qədər böyükdür, xəstəxanalar yaralılarla dolub. Vəziyyət o həddə gəlib çatıb ki, Ermənistanda yaşlı kişilərin, qadınların döyüşlərə cəlb olunması müzakirə edilir.

Son günlər beynəlxalq təşkilatlardan, ayrı-ayrı dövlətlərin rəhbərləri tərəfindən əməliyyatların dayandırılması barədə çağırışlar eşidilməkdədir. Amma görəsən niyə indiyə kimi həmin təşkilatlar Azərbaycan ərazilərinin işğaldan azad edilməsini tələb edən BMT qətnamələrinin yerinə yetirilməsinə çağırış etməyiblər. Niyə bu təşkilatlar Tovuz hadisələrində Ermənistanın işğalçı dövlət olduğunu bəyan etmədilər. Ağdamda 9 yaşlı Fariz, Füzulidə 2 yaşlı Zəhra ermənilər tərəfindən öldürüləndə bu təşkilatlar harada idilər. Niyə o zaman Ermənistanın uşaq və körpə qatili olduğunu demirdilər.

Ona görə bu gün Azərbaycana atəşkəs çağırışını etməyin özü belə ikili standartların göstəricisidir. Azərbaycanı atəşkəsə dəvət etməkdənsə, Ermənistanı işğal olunmuş əraziləri tərk etməyə çağırmaq lazımdır.

Qarabağ Azərbaycandır!

***Zahid CƏFƏROV,***
***Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının professoru, hüquq üzrə elmlər doktoru***

## İki canda bir ürək

# “AZƏRBAYCAN tarix yazır”

### Qarabağ savaşı türk mediasının gündəm mövzusu olaraq qalır




**Azərbaycan və Türkiyə ən çətin anlarda daim bir-birlərinin yanında olub, əməli dəstəklərini göstəriblər.**




Bu günlərdə təmas xəttində erməni təxribatı nəticəsində baş verən hərbi əməliyyatların Türkiyə ictimaiyyətinin xüsusi diqqət mərkəzində yer alması növbəti dəfə iki dövlət, iki xalq arasında dostluğun, qardaşlığın, strateji tərəfdaşlığın möhkəm təməllər üzərində bərqərar olduğunun daha bir təsdiqi oldu.

Cəbhədə gedən döyüşlər ətrafında Türkiyənin aparıcı qəzetləri və xəbər agentlikləri məlumatları operativ şəkildə oxuculara təqdim edir. Prezident İlham Əliyevin mesajları, cəbhə bölgəsindən birbaşa hazırlanan xəbərlər ölkə ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanır və sosial şəbəkədə paylaşılır.

“Sabah” qəzeti “Azərbaycan tarix yazır” başlıqlı xəbərini manşetdən verib. Bildirilir ki, Azərbaycan Ordusunun apardığı gərgin döyüşlər davam edir. Sentyabrın 30-dək Ermənistanın 2300 nəfərədək canlı qüvvəsi məhv edilib və yaralanıb, 130-dək tank və digər zirehli texnikası, 200-dən artıq artilleriyası sıradan çıxarılıb. Əlavə edilir ki, Ermənistanın silahlı qüvvələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

“Milliyet” qəzeti “İşğalı başa çatdır, müharibə dayansın” başlıqlı xəbərində Azərbaycan Prezidenti İlham Əliyevin “Bizim bir şərtimiz var, torpaqlarımızdan qeyd-şərtsiz, tam və dərhal çıxıb rədd olmalıdırlar. Bu şərtim qüvvədədir və əgər bu şərtimə Ermənistan hökuməti əməl edərsə, döyüşlər dayanacaq, qan tökülməyəcək” fikirlərinə geniş yer verilib. O da qeyd olunur ki, BMT-nin münaqişənin həlli ilə bağlı 4 qətnaməsi hələ də kağız üzərində qalıb. Uzun illər ərzində Azərbaycana qarşı ikili standartlar nümayiş etdirilib.

“Türkiye” qəzeti “Bunu siz istədiniz”, “Darmadağın oldular” başlıqlı xəbərləri manşetdən verib. Vurğulanıb ki, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Azərbaycan Ordusu isə döyüş meydanında onların layiqli cavablarını verir. Ermənistanın 2300 nəfərədək canlı qüvvəsi məhv edilib və yaralanıb, 130-dək tank və digər zirehli texnikası sıradan çıxarılıb. Nəşr onu da əlavə edir ki, BMT-nin nizamnaməsində göstərilir ki, hər bir dövlətin özünümüdafiə haqqı var və Azərbaycan da bundan istifadə edərək özünü müdafiə edir, əks-hücum əməliyyatına keçir, Ermənistana sarsıdıcı zərbələr endirir.

“Hürriyet” qəzeti “İlham Əliyevdən tək şərt: çəkilin!” başlıqlı xəbərində qeyd olunur ki, təcavüzkar Ermənistanın təxribatlarına Azərbaycan Ordusu layiqincə cavab verir. Ermənistan hökumətinin təxribat arxasındakı məkrli məqsədi, ilk növbədə, Azərbaycanı yeni işğalla hədələməyə çalışmaq, yeni ərazilər uğrunda işğal siyasətini davam etdirmək idi. Sivil Azərbaycanın dünyaya verdiyi töhfələrdən uzaq olan Ermənistan təcavüzkarlığı və terrorçuluğu ilə bölgənin təhlükəsizliyinə təhdiddir.

“Yeni akit” “Həm meydanda, həm də danışıqlarda qardaşımızın yanındayıq”, “Osmanlı şilləsi dəyəndə diplomatiya yada düşür” başlıqlı xəbərlərində yazır ki, Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycan ərazisini işğalda saxlamaqla beynəlxalq hüququ kobud şəkildə pozur. Qeyd edilir ki, sentyabrın 27-dən etibarən Ermənistan növbəti dəfə təxribat törədərək dinc əhaliyə qarşı müharibə aparır, əsas hədəf yaşayış məntəqələri, mülki əhalidir. Vurğulanır ki, bu vəziyyətdə heç bir dövlət seyrçi mövqe nümayiş etdirə bilməzdi. Odur ki, Azərbaycan da təcavüzkara adekvat cavab vermək, xalqını və torpağını müdafiə etmək məcburiyyətində qaldığı üçün işğalçının hücumlarını dəf edib, Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarına başlamasına qərar verdi. Artıq bir sıra yaşayış məntəqələri işğaldan azad edilib, Ermənistanın 2300 nəfərədək canlı qüvvəsi məhv edilib.

“Akşam” qəzeti “Addım-addım azadlıq”, “Azərbaycan əsgəri hədəfi vurur” başlıqlı xəbərləri manşetdən verib. Yazılır ki, Ermənistanın baş naziri Paşinyan bundan əvvəlki çıxışlarında Azərbaycanın işğal edilmiş torpaqlarında - Xankəndidə “Qarabağ Ermənistandır və nöqtə” dedi və Azərbaycan Prezidenti İlham Əliyevin “Qarabağ Azərbaycandır və nida” cavabı ilə siyasətdə, diplomatiyada ilk dərsini, bu gün davam edən müharibədə isə sarsıdıcı zərbələr almaqdadır. Qeyd olunur ki, artıq son rəsmi rəqəmlərə əsasən Ermənistanın 2300-dən çox canlı qüvvəsi darmadağın edilib.

“Milat” qəzetinin “Qardaşımızın yanındayıq”, “Beynəlxalq hüquq Bakının yanındadır” və “Qarabağa kimi” başlıqlı xəbərlərində yazılır ki, cəbhədə davam edən döyüşlər Azərbaycanın öz ərazi bütövlüyünü bərpa edəcəyini göstərir. Azərbaycan Ordusunda ruh yüksəkliyi var, Qarabağa kimi inamla irəliləyir. Qeyd olunub ki, BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələrin tələbləri hələ də yerinə yetirilməyib. Təcavüzkar Ermənistan dinc əhaliyə qarşı terror əməllərini davam etdirir, yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələri, məktəb binaları, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

“Sözcü” qəzetinin “Ermənistan ordusunun belini qıran zərbə” adlı xəbərində yazılır ki, cəbhədə sentyabrın 27-dən başlanan döyüşlərdə Ermənistanın 2300 nəfərədək canlı qüvvəsi məhv edilib və yaralanıb, 130-dək tank və digər zirehli texnikası, 200-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 25-dək hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqələri, 5 silah-sursat anbarı, 50-dək tank əleyhinə vasitələr, 55 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb. Xocalı rayonunun Şuşakənd ərazisində düşmənin 1 S-300 zenit-raket qurğusu dağıdılıb

“Aydınlık” qəzeti “Sorosun uşağı” başlıqlı xəbərində yazır ki, Ermənistan yeni təxribatlar hazırlayır, Azərbaycanın yaşayış məntəqələrini hər gün atəşə tutur. Hər gün mülki əhali arasında Azərbaycanın itkiləri artır. Bu, erməni faşizminin eybəcər sifətini göstərir. O da əlavə olunur ki, Ermənistanın rəhbərliyində olan, siyasi aləmdə “Sorosun uşağı” adlandırılan Nikol Paşinyan sərsəm bəyanatlar, təkliflər verməklə, əslində sülhə maraqlı olmadığını göstərdi.

“Yeni söz” qəzetinin “Ermənistan rədd olsun”, “Azərbaycan erməni yaraqlılarını əzir”, “Yeni çağ” qəzetinin “Erməni ordusu yerlə-yeksan edilir”, “Yeni Şafak” qəzetinin “Ermənistan ordusunun böyük çöküşü”, “PUA-lar 4 günə təmizlədi”, “Karar” qəzetinin “Dörd tərəfdən mühasirə hərəkatı” başlıqlı xəbərlərində Azərbaycanın haqq yolunda Türkiyənin də yanında olduğu diqqətə çatdırılır, bu gün Azərbaycan Ordusunun öz torpağında ərazi bütövlüyünü qoruduğu, müdafiə etdiyi vurğulanır.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Uğurlu əks-hücum əməliyyatı işğala son qoyacaq!

# “İlham Əliyevə inanırıq və sonadək arxasındayıq”

## Siyasi partiyaların rəhbərləri Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə hazırdırlar

*Azərbaycan Ordusunun Ermənistanın təxribatına cavab verməsi, əks-hücuma keçməsi və işğal altında olan torpaqlarımızın azad edilməsi istiqamətində ciddi irəliləyişlərə nail olması, düşmənə ağır zərbə vurması son 30 ilin ən böyük tarixi hadisələrindən biridir.*

Baş Komandanın bu əmri bütün Azərbaycan cəmiyyətində, siyasi partiyalarda, qeyri-hökumət təşkilatlarında birmənalı olaraq müsbət qarşılanıb. Ölkədə fəaliyyət göstərən siyasi partiyaların birgə bəyanatında göstərilir ki, Ermənistanın genişmiqyaslı hərbi əməliyyatlara başlaması, mülki əhalinin yaşadığı kəndləri və infrastrukturu hədəf kimi seçərək ağır silahlarla bombalaması beynəlxalq hüquqa ziddir və qarşısı qətiyyətlə alınmalıdır. Siyasi təşkilatlar Ali Baş Komandan, Prezident İlham Əliyevin terror təxribatlarının qarşısının alınması məqsədilə həyata keçirdiyi bütün siyasi və hərbi tədbirləri yekdilliklə dəstəkləyir və onun yanında olduğunu bildirirlər. Bu məqsədlə siyasi partiya rəhbərlərinin fikirlərini öyrəndik.
















### İlham Əliyevin qətiyyəti böyük qayıdışı daha da yaxınlaşdırır

**Fəzail AĞAMALI,**
*Milli Məclisin deputatı,*
*Ana Vətən Partiyasının sədri:*

- Azərbaycan vətəndaşı uzun illərdir Vətən həsrəti ilə, qaçqın-köçkün vəziyyətində yaşayır. Dövlət başçımızın da söylədiyi kimi, Ermənistan rəhbərliyi tərəfindən öz dədə-baba torpaqlarından zorla didərgin salınmış insanlar doğma ocaqlarına qayıtmaq istəyirlər.

Bu gün Azərbaycan Prezidentinin qətiyyəti, Azərbaycan Ordusunun iradəsi böyük qayıdışı daha da yaxınlaşdırır. Təqdirəlayiq haldır ki, bu gün xalqımız öz Ali Baş Komandanına və müzəffər ordusuna birmənalı dəstək nümayiş etdirir, torpaqlarımızın işğaldan azad olunacağına yüksək inam ifadə edir. Bununla yanaşı, Azərbaycanda fəaliyyət göstərən 50 siyasi partiyanın Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına dair birgə bəyanat yayması, həmçinin ölkəmizin qeyri-hökumət təşkilatlarının Birləşmiş Millətlər Təşkilatı, ATƏT, ATƏT PA, Avropa Şurası, AŞ PA, NATO, NATO PA, Avropa Komissiyası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, TürkPA, eləcə də bütün digər beynəlxalq təşkilatlara müraciət ünvanlamaları milli həmrəyliyin bariz nümunəsidir.

Yaxın günlərdə bizə böyük qələbəni görmək qismət olacaq. Xalqımız həmrəydir, gənclərimiz, ehtiyatda olan döyüşçülərin hamısı bir bayraq altında, vahid amal uğrunda sıx birləşib. Xalqımızın ürəyi Azərbaycan əsgəri ilə döyünür. Bir fikrimiz, bir amalımız var: Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. İnanıram ki, əli silah tutan hər bir Azərbaycan övladı hazırdır ki, dövlət başçısının bir əmri ilə ordu sıralarına qoşulsun və nəhayət ki, bu münaqişə öz həllini tapsın, işğal altında olan torpaqlarımız azad olunsun.

Tarixin bütün sınaqlarında olduğu kimi, bu gün də bir dövlət və xalq kimi birliyimiz müşahidə olunur. Biz bu birliyi qorumağı bacarmalıyıq və təxribatlara uymamalıyıq. Reallıq budur ki, bu gün cəbhədə gedən döyüşlər Azərbaycan Ordusunun nəzarətindədir. Ordumuz düşmənin hücum təxribatlarına layiqli cavab verərək, əks-hücuma keçib. Təbii ki, kimdən hansı dəstəyi almasından asılı olmayaraq, çökmüş Ermənistanın qorxaq əsgəri anadan əsgər doğulan xalqın qüdrətli ordusunun qarşısından qaçmağa məhkumdur.

### Ermənistan sülhə məcbur olacaq

**Asim MOLLAZADƏ,**
*Milli Məclisin deputatı,*
*Demokrtatik İslahatlar Partiyasının sədri:*

- Bu gün erməni təxribatına cavab verən Azərbaycan Silahlı Qüvvələri əslində sülhməramlı missiyanı həyata keçirir.

Azərbaycanın istəyi Ermənistanı sülhə məcbur etməkdir. Ona görə də ordumuz mülki əhalinin, uşaqların və qocaların qatili olan xain ermənilərə layiqli cavabını verir! Düşmənin itkiləri gizlətməsi onların durumunun gərgin olduğunu bir daha sübut edir. Əminəm ki, bu əməliyyatların nəticəsi olaraq Ermənistan sülhə məcbur olacaq. Hazırda apardığımız əməliyyatların məqsədi tezliklə sülhə nail olmaqdır.

### Vətənimiz uğrunda döyüşə hazırıq

**Tahir KƏRİMLİ,**
*Milli Məclisin deputatı,*
*Vəhdət Partiyasının sədri:*

- Yazıçı Mirzə İbrahimov deyirdi ki, Allah insanın canını almazdan öncə ağlını alır. İndi bu ermənilərin də Allah ağlını əlindən alıb ki, onlar dayanmırlar. Dünən və bu gün səhər saatlarında təxribat törədərək dinc sakinlərimizi atəşə tutublar. Tovuz təxribatı bunlara dərs olmayıb.

Bizim torpaqlarımızı işğal edən, mənəvi dəyərlərimizə zərbə vuran ermənilərdir, generalımızı və zabitlərimizi şəhid edən də, üstəlik müxtəlif çaplı silahlardan və toplardan ilk atəş açıb sivil insanlarımızın canına qəsd edən də onlardır. Bunlara baxmayaraq, Azərbaycan Ordusu bu təxribatların qarşısını almağa və düşmənə layiqli cavab verməyə hazır idi. Dövlət başçısı BMT-nin xüsusi sessiyasında çıxış edərək ermənilərin bu təxribatlarını dünya ictimaiyyətinə çatdırmışdı. Məsuliyyət heç şübhəsiz ki, birmənalı şəkildə Ermənistanın üzərində qalır.

Azərbaycanın tarixində Cavanşir, Babək, Şah İsmayıl Xətai, Nadir şah kimi tarixi şəxsiyyətlər olub. Onlar Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə aparan şəxsiyyətlər kimi adlarını tarixə qızıl hərflərlə yazdırıblar. İndi Azərbaycanın dövlət başçısına da adını qızıl hərflərlə yazdırmaq üçün bu tarixi şans yaranıb.

Ali Baş Komandan İlham Əliyevin əks-hücum əmrini verməsi və ölkədə hərbi vəziyyət elan olunması ictimaiyyət və dövlət nümayəndələri tərəfindən yüksək qiymətləndirilir. Hər kəsdə böyük ruh yüksəkliyi var.

Həm vətəndaşlar, həm də siyasi qurumlar dövlət başçımızın və ordumuzun yanındadır. Vəzifə və rütbəsindən asılı olmayaraq hər kəs bu gün özünü ordunun əsgəri hesab edir. Bütün siyasi qurumlar, partiya rəhbərləri istər siyasi, istərsə də fiziki şəkildə dövlət başçısının, ordunun yanındadır və olmalıdır.

Biz övladlarımızla, yaxınlarımızla və bütün partiya üzvlərimizlə cənab Ali Baş Komandanın əmri ilə vətənimiz uğrunda döyüşə hazırıq.

### Qələbə naminə hamımız birlikdə olub işğala son qoymalıyıq

**Sabir HACIYEV,**
*Milli Məclisin deputatı,*
*Vətəndaş Birliyi Partiyasının sədri:*

- Bu gün ölkənin siyasi partiyaları fəaliyyətlərini hərbi vəziyyətin tələbinə uyğun qurmalıdır. Əsas məqsədimiz torpaqlarımızın işğaldan azad olunmasıdır. Ona görə də mövqeyindən, siyasi düşüncəsindən asılı olmayaraq hamı Ali Baş Komandanın ətrafında sıx birləşib torpaqlarımızın işğaldan azad olunmasına dəstək verməlidir. Bu gün xalq, dövlət və ordu həmrəy olmalıdır. Qələbəmiz birliyimizdən keçir. Qələbə naminə hamımız birlikdə olub işğala son qoymalıyıq.

### Bakıdan səngərə qədər hər kəs qələbə əhvali-ruhiyyəsindədir

**İqbal AĞAZADƏ,**
*Ümid Partiyasının sədri:*

- Bakıdan səngərə qədər hər kəs qələbə əhvali-ruhiyyəsindədir. Qarabağımıza, əsgərlərimizə ən yaxın məsafədə idim. Cəbhə xəttinə gedərkən yolboyu hər bir vətəndaşımızı ayaqda gördüm. Uşaqlarımız, ağsaqqallarımız, ağbirçəklərimiz - hər kəs əsgərimizə uğur arzulayır, Qarabağdan həyəcanla xəbər gözləyirdilər. İnsanlarımızla qürur duydum. Bakıdan səngərə kimi hamı qələbə əhvali-ruhiyyəsindədir”.

Canlarını vətən üçün fəda etmiş əsgərlərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyirik, tez sağalmaları üçün dua edirik. Allah xalqımızı, əsgərimizi utandırmasın. Bayrağımızı həmişə uca etsin. Biz isə sadəcə əsgərik! Ya qazi olacağıq, ya şəhid. Qazavatımız mübarək!

### Ali Baş Komandanın bütün tapşırıqları birmənalı şəkildə icra olunmalıdır

**Arzuxan ƏLİZADƏ,**
*Azərbaycan Milli İstiqlal Partiyasının sədri:*

- Partiyamız fəaliyyətini hərbi vəziyyətin tələblərinə uyğun şəkildə quraraq siyasi fəaliyyətini dayandırıb. Artıq 24 saatlıq fasiləsiz fəaliyyətə keçmək barədə qərar qəbul edilib. Bütün yerli təşkilatların rəhbərlərinə dövlət qurumları ilə əlaqəli işləmək tapşırılıb, cəmiyyətdə təxribatların qarşısının alınması, insanların panikaya düşməməsi üçün maarifləndirmə işinin aparılması istiqamətində işləyirik.

Partiya olaraq biz dövlətin və ordunun yanındayıq. Bununla belə AMİP olaraq tərəfdaşlarımıza və xalqa, siyasi qüvvələrə müraciət edərək bugünkü gündə həmrəylik nümayiş etdirib Ali Baş Komandanın ətrafında sıx birləşərək torpaqlarımızın işğaldan azad olunması istiqamətində ordumuza dəstək verməyə çağırırıq. Ali Baş Komandanın bu istiqamətdəki bütün tapşırıqları birmənalı şəkildə icra olunmalıdır. Bütün fəaliyyət torpaqların işğaldan azad olunmasına köklənməlidir.

### Azərbaycan öz torpaqlarından terrorçuları təmizləmə əməliyyatı aparır

**Sərdar CƏLALOĞLU,**
*Azərbaycan Demokrat Partiyasının sədri:*

- Xalqımız uzun illərdir ki, Dağlıq Qarabağ probleminin birdəfəlik həll edilməsini arzulayırdı. Nəhayət, şərtlər bizim xeyrimizə formalaşdı. Torpaqlarımızı işğaldan azad etməyə başlamışıq. Xalqımızı bu münasibətlə təbrik edirəm. Bu müharibədə itkilərimiz var. Şəhidlərimizə Allah rəhmət etsin. Ailələrinə səbr diləyirəm. Yaralılarımıza Allahdan şəfa arzulayıram.

Hər il Azərbaycanda avtomobil qəzasında 3000-5000 insan dünyasını dəyişir. Biz Dağlıq Qarabağın azad edilməsində bu qədər itki verməyəcəyik. Bu itkilərdən danışıb döyüş əhvali-ruhiyyəsini zəiflətmək olmaz. Beynəlxalq təşkilatlar və bəzi dövlətlər yenidən danışıqlardan, Qarabağın statuslarından danışmağa başlayıb. Dağlıq Qarabağ tamamilə azad edilməyənə, Xankəndidə üçrəngli bayrağımız dalğalanmayana qədər dayanmaq olmaz.

Beynəlxalq təşkilatların çağırışlarına önəm verməməliyik. Çünki Azərbaycan öz torpaqlarından terrorçuları təmizləmə əməliyyatı aparır. ABŞ Suriyada belə bir əməliyyat aparır. Bizim də öz torpaqlarımızda belə bir əməliyyat keçirməyimizi heç kim qınaya bilməz. Biz bu əməliyyatlarda heç kimin torpaqlarını işğal etmirik. Quldur və terrorçu dəstələrini torpaqlarımızdan təmizləyirik. Dağlıq Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlığını qəbul etmək istəyirlərsə, bu barədə təcili istəklərini bildirməlidirlər. Azərbaycan tərəfinə keçməlidirlər. Kimlərsə Azərbaycan vətəndaşlığını qəbul etmirlərsə, torpaqlarımızı dərhal tərk etməlidir.

Ermənistan 30 il ərzində Azərbaycanın iqtisadiyyatına vurduğu ziyana görə beynəlxalq məhkəmə qarşısında cavab verməlidir, kompensasiya ödəməlidir. Xocalı soyqırımına və şəhidlərimizə görə Ermənistan dövləti cavab verməlidir. Azərbaycan xalqı Ali Baş Komandanın və ordumuzun yanındadır. Biz qısa müddət ərzində Dağlıq Qarabağın azad edilməsini arzu edirik. İnanıram ki, bu arzumuza tezliklə çatacağıq.

### Azərbaycan haqq yolundadır

**Araz ƏLİZADƏ,**
*Azərbaycan Sosial Demokrat Partiyasının sədri:*

- Mən 1992-ci ildə bunu demişəm ki, biz vətənimizi qoruyuruq. Bu, əsl Böyük Vətən müharibəsidir. Azərbaycan torpaqları uzun müddətdir ki, işğal altındadır. Biz düz 30 ildir ki, torpaqlarımızın erməni işğalından azad olunacağı günü gözləyirik. Nə qədər sülhdən danışmaq olar?

İyul ayından ermənilər çox ciddi olaraq müharibəyə hazırlaşırlar. Əlbəttə, biz də gözləmirik. Azərbaycan Ordusu və xalqı müharibəyə tam hazırdır. Bizim sərhəd rayonlarımızı Ermənistan işğalçıları nə qədər atəşə tutsalar da, əhalimiz öz yerindən tərpənmədi və tərpənmək fikri də yoxdur. Azərbaycan haqq işi aparır, öz torpağında döyüşür. Biz işğal olunmuş torpaqlarımızı nəyin bahasına olursa-olsun geri qaytarmalıyıq. Azərbaycan xalqı Ali Baş Komandan İlham Əliyevə inanır və onun arxasındadır.

Ermənistan təşvişə düşərək ABŞ, Fransa və Rusiyaya müraciət edir, guya sülh istəyir. Axı nə qədər sülhdən danışmaq olar? Onlar bizim torpaqlarımızı işğal ediblər. Əlbəttə, onlara sülh lazımdır, biz isə torpaqları işğaldan qaytarandan sonra sülhdən danışa bilərik. Güc dövlətləri Ermənistana Azərbaycanla dil tapmağı məsləhət görürlər. Ermənistan sülh istəyirsə, bütün işğal olunmuş torpaqları azad etməli və bundan sonra danışıqlar üçün masa arxasında oturulmalıdır.

Azərbaycan Ordusu rəşadətlə irəliləyir və əminəm ki, bu irəliləyişin davamı olacaq. Burda bir şeyi də qeyd etmək lazımdır ki, Qarabağ müharibəsində müxalifət-iqtidar məsələsi gündəmdə yoxdur. Hamı bir nəfər kimi Ali Baş Komandanın əmrinə tabe olaraq Vətənin müdafiəsinə qalxıb. Müxalifət partiyaları hamısı cənab Prezidentin və Azərbaycan xalqının yanındadır.

### Vətən, torpaq, namus uğrunda savaşa başlamışıq

**Pənah HÜSEYN,**
*Azərbaycan Xalq Partiyasının sədri:*

- İqtidarından, müxalifətindən asılı olmayaraq, bütün siyasi partiyalar ərazi bütövlüyümüzün bərpası və təcavüzün aradan qalxması üçün dövlətin atılacaq bütün addımlarını dəstəkləmək barədə mövqelərini ortalığa qoyublar.

Ona görə də əlaqədə olduğumuz ictimaiyyətlə Vətən, torpaq, namus uğrunda müharibəyə qalxıb, səfərbər olması istiqamətində hüququn verdiyi çərçivədə fəaliyyətimizi davam etdiririk.

Başlanan proses bütövlükdə ümumxalq mübarizəsidir və siyasi partiyalar da xalqın nümayəndələri olduğundan bir yerdə olmalıdır.

### Prezidentin yanındayıq, onun düzgün siyasətini birmənalı dəstəkləyirik

**Abutalıb SƏMƏDOV,**
*Azərbaycan Naminə Alyans Partiyasının sədri:*

- Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarının qarşısını almaq üçün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrimizə əks-hücum əməliyyatlarına başlamaq, təcəvüzkarı ciddi şəkildə cəzalandırmaq əmrini verdi. Əks-hücuma keçən Azərbaycan Ordusu qısa müddətdə uzun illər işğal altında olan bir çox ərazini azad etdi, düşmən ordusuna sarsıdıcı zərbələr vurdu.

Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı və Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları ilə əlaqədar olaraq ölkədə fəaliyyət göstərən 50 siyasi partiyanın imzaladığı birgə bəyanat təkcə xalqla hökumətin həmrəyliyinin nümayişi olmadı, eyni zamanda Azərbaycanda son dövrlər hakimiyyətin ciddi səyi nəticəsində formalaşan siyasi birliyin, həmrəyliyin təcəssümünə çevrildi.

Bəyanat göstərdi ki, Ermənistanın işğalçı siyasətinə etiraz edən siyasi partiyalar beynəlxalq hüququn aliliyinin bərqərar olunmasını, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını, ikili standartlara son qoyulmasını tələb edirlər. Ermənistanın təxribatlarına susmağın və onları qınaq predmetinə çevirməməyin beynəlxalq riyakarlığın təzahürü olduğunu bildirən siyasi partiya rəhbərləri öz birgə bəyanatlarında bu ölkənin işğalçılıq siyasətinə beynəlxalq təşkilatların göz yummasını pisləyir və onlardan adekvat tədbirlərin görülməsini tələb edirlər.

Bəyanat bir daha nümayiş etdirdi ki, Azərbaycan xalqı və ölkənin siyasi partiyaları yekdilliklə Prezidentin, Ali Baş Komandanın yanındadır, onun yeritdiyi son dərəcə düzgün siyasəti dəstəkləyir və torpaqlarımızın azad olunması naminə hər an silaha sarılmağa hazırdırlar.

### Bu, Vətən müharibəsidir, hamının ürəyindən gələn mübarizədir

**Əhməd ORUC,**
*Azadlıq Partiyasının sədri:*

- Faktiki olaraq aktiv hərbi əməliyyatlar başlayıb. Odur ki, bütün siyasi partiyalar dövlətə və orduya dəstəyini bildirdi.

Qoy işğalçıya qarşı mübarizə, torpaqlarımızın azad olunması istiqamətində Azərbaycan cəmiyyəti arasında fikir ayrılığının olmamasını xalq görsün.

Eyni zamanda düşmən anlasın ki, Azərbaycan cəmiyyəti yekdildir. Bu, Vətən müharibəsidir, hamının ürəyindən gələn mübarizədir.

### Milli birliyimizin, həmrəyliyimizin bariz nümunəsi...

**Elçin MİRZƏBƏYLİ,**
*Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini:*

- Siyasi baxışlarından, ideoloji prinsiplərindən asılı olmayaraq, ölkənin demək olar ki, bütün siyasi spektrinin - 50 partiyanın bir araya gələrək Ali Baş Komandan, Prezident İlham Əliyevin Vətənimizin ərazi bütövlüyünün və vətəndaşların təhlükəsizliyinin qorunması, Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi genişmiqyaslı terror təxribatlarının qarşısının alınması məqsədilə həyata keçirdiyi siyasi və hərbi tədbirləri yekdilliklə dəstəkləyirlər.

Siyasi təşkilatların Ali Baş Komandanın yanında olduqlarını bəyan etmələri də bir o qədər tarixi əhəmiyyət kəsb edən hadisədir, milli birliyimizin, həmrəyliyimizin bariz nümunəsidir. Dövlətimiz və xalqımız üçün həyati əhəmiyyət kəsb edən mürəkkəb bir şəraitdə siyasi partiyalar tərəfindən ölkəmizin bütün vətəndaşlarının, dünya azərbaycanlılarının milli birliyə, vəhdətə səslənilməsi siyasi yetkinliyin göstəricisi kimi mühüm əhəmiyyətə malikdir.

Siyasi partiyaların xalqımızın, dövlətimizin bu haqq işində vahid mövqe nümayiş etdirmələrini Azərbaycan Prezidenti də yüksək qiymətləndirib. Cənab İlham Əliyevin belə bir çətin, həssas məqamda milli birlik, həmrəylik nümayiş etdirən siyasi partiyalara ayrı-ayrılıqda diqqət ayırması ölkəmizdə etimadlı siyasi münasibətlərin formalaşmasında mühüm irəliləyişlərin əldə olunduğunu göstərir.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Vətən müharibəsi zəfərlə başa çatacaq!

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 66 əməkdaşı səfərbərlik üzrə hərbi xidmətə yola salındı

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" 28 sentyabr 2020-ci il tarixli sərəncamı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemində çalışan və ehtiyatda olan hərbi vəzifəlilər tərəfindən də böyük ruh yüksəkliyi ilə qarşılanıb.

Sərəncama uyğun olaraq, nazirlik sistemindən 66 əməkdaş ehtiyatda olan hərbi vəzifəlilər kimi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin çağırışına əsasən səfərbərlik üzrə hərbi hissələrə yola salınıblar.

Onlar işğal olunmuş ərazilərimizin düşməndən azad edilməsi istiqamətində uğurlu hərbi əməliyyatlar həyata keçirən Ordumuzun sıralarına qoşulmaqdan şərəf və qürur hissi keçirdiklərini vurğulayıblar.

***"Azərbaycan"***




## Mənim igid əsgərlərim

*(Səngərə məktub)*



***Döyüşçülərimiz qələbə sevincini bizimlə bölüşürlər***

***Müəllif***

Salam, əsgər!
Salam igid!
Mübarəkdi qələbəniz!
Bizim qədim torpaq üstə,
sizin təzə
qədəminiz!
Ordan mənə bu zənginiz!
Qarabağa işıq saçan
fişənginiz!
Qaya üstə çay süfrəniz!
Siz hərəniz bir əsrarəngiz,
açılan bir səhərsiniz.
Xeyir çıxıb qabağıma,
döyüşlərin səsi gəlir
qulağıma.
Mənim igid qazilərim,
əsgərlərim
Heydərim[1]
və heydərlərim!
Raketlərə yazıbsınız
siz adımı,
düşmən görsün,
unutmasın soyadımı.
Söz - indi bir sərkərdədir,
döyüşçünün yanındadır,
səngərdədir.
Yoxdur sizin əvəziniz,
Qarabağı qızdıracaq -
nəfəsiniz.
Salam deyin:
Qarabağın
kəhrizinə!
Ot göyərən o yoluna,
o izinə,
unudulan bulaqlara,
o sürüsüz yaylaqlara,
Qarabağın bizə məlhəm
havasına,
Şahinlərin, qartalların
yuvasına.
Şahin kimi, qartal kimi
uçun siz də,
Qıyya çəkin, nəfəs alaq
burda biz də.
Dünən Ali Baş Komandan,
"Qarabağ" və nida!,- dedi[2] ,
düşmənə əlvida dedi.
Xəbər verin son raketi
atan kimi,
Xankəndinə, ya Şuşaya
çatan kimi.
Mən də burda bir əsgərəm,
Esxil[3] dünən,
mən də bu gün
səfərbərəm.

***Nəriman HƏSƏNZADƏ, Xalq şairi***

*30.09.2020*

*1 Səngərdən zəng vurub, sevincini şairlə bölüşən əsgər - Heydər Quliyev.*
*2 Cənab Prezidentin Rusiyada, Valday konfransındakı tarixi çıxışına işarədir.*
*3 Qədim yunan dramaturqu.*

## Gəncəlilər ordumuzun zəfər yürüşünü alqışlayırlar

Tarix çox müharibələrin və bu müharibələrdə saysız-hesabsız insanların həlak olmasının şahidi olub. Ancaq bəşəriyyət zaman-zaman erməni təcavüzkarlarının bizə qarşı törətdikləri vəhşilik səviyyəsində ikinci bir faktla qarşılaşmayıb. Uzun əsrlər boyu havadarlarına arxalanan ermənilər təcavüzkarlıqla ən gözəl və bərəkətli torpaqlarımızda məskunlaşmış, pənah gətirdikləri torpağa, onun əsl sahiblərinə sonralar xəyanət edərək həmin əraziləri özününküləşdirməyə çalışmışlar.

20-ci yüzillikdə baş vermiş belə hadisələr nəticəsində Azərbaycanın dilbər guşəsi olan qədim Qarabağ işğal olunmuşdur. Təəssüflə demək lazımdır ki, ermənilərin bu hərəkətlərinə beynəlxalq ictimaiyyət göz yummuş, Azərbaycanın haqq işini müdafiə etməmişdir.



Lakin haqq əyilər, üzülməz deyiblər. Bu gün ədalətin bərpa olunması naminə ordumuz haqq savaşına çıxıb. Sentyabrın 27-də erməni hərbi birləşmələrinin həyata keçirdikləri təxribata cavab olaraq Azərbaycanın Silahlı Qüvvələri geniş əks-hücuma keçmiş və düşmənə sarsıdıcı zərbələr endirməyə başlamışdır.

Başlanan bu müharibə Azərbaycan xalqının istəyi deyil. Bu müharibə ermənilərin Azərbaycan xalqına qarşı 30 ildən artıq bir dövr ərzində apardıqları təxribatın məntiqi nəticəsidir. Təbii ki, belə bir dönəmdə biz özümüzü müdafiə etmək hüququna malikik və Azərbaycanın ərazi bütövlüyü, mülki insanların təhlükəsizliyi təmin olunmalı, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə son qoyulmalıdır.

İndi həmin məqam gəlmişdir. Gündən-günə təkmilləşən və qüvvətlənən ordumuz düşmənə ağır zərbələr endirməklə öz sözünü deyir. Bunun əvəzində düşmən Azərbaycanın mülki əhalisini - qadınları və uşaqları hədəfə alır. Bu onu göstərir ki, ermənilər yenə də beynəlxalq hüquqa zidd addımlar atmaqla öz hiyləgər planlarını həyata keçirmək niyyətindədirlər. Həmin niyyətin hədəfi əhalinin sıx yaşadığı məntəqələr, rayon və kənd mərkəzləri, mülki infrastruktur obyektləri, xəstəxanalar, tibb məntəqələri, məktəb və uşaq bağçalarıdır.

Bütün bu təxribatlara baxmayaraq, Azərbaycan əhalisi qorxmur. Çünki xalqımız üçün bu, Vətən müharibəsidir və hamı əmindir ki, qısa vaxtda müqəddəs torpaqlarımız düşmən tapdağından azad ediləcək.

Cəbhədə mövcud vəziyyətlə bağlı Gəncənin bir neçə ziyalısına müraciət etdik. Yekdil fikir bu oldu ki, hamı Azərbaycanın haqq işini dəstəkləyir və Azərbaycan Ordusunun düşmənə layiqli cavab verməsinə sevinir.

**İlham Həsənov, məktəb direktoru:** "Bütün Azərbaycan vətəndaşları kimi mən də Dağlıq Qarabağın azad edilməsi uğrunda gedən döyüşləri diqqətlə izləyirəm. Hər gün televizorun qarşısında dayanaraq verilən məlumatları dinləyirəm. Eşidəndə ki, bir neçə yaşayış məntəqəmiz düşməndən azad edilib, sevincimin həddi-hüdudu olmadı. Hətta sevincimdən gözlərim yaşardı".

**Hasil Fətəliyev, Azərbaycan Dövlət Aqrar Universitetinin professoru:** "Hələ bir neçə gün əvvəl Prezident İlham Əliyev BMT-nin Baş Assambleyasının 75-ci sessiyasında çıxışı zamanı Ermənistanın təmas xətti boyunca öz qoşunlarını cəmləməsi və əlavə hərbi tədbirlər görməsi barədə ətraflı məlumat vermişdir ki, bütün bunlar da növbəti təxribatların hazırlanması haqqında xəbərdarlıq idi. İndi Azərbaycan vətəndaşları ordumuzla həmrəylik nümayiş etdirir və düşmənə qarşı aparılan müharibədə iştirak etməyə hazır olduqlarını bildirirlər. Bu, erməni təxribatlarına qarşı ən bariz tədbirlərimizdir".

**Sənan Hacıyev, mədəniyyət işçisi:** "Görünən odur ki, Ermənistan silahlı qüvvələri həmişə çətin vəziyyətə düşəndə və öz acizliklərini gördükdə mülki əhalini hədəfə alırlar. Biz bu hiyləgərliyi 90-cı illərin əvvəllərində də, 2016-cı il Aprel döyüşlərində də görmüşük. Sentyabrın 27-də də cəbhə xəttində yerləşən yaşayış məntəqələrimiz atəşə məruz qaldı. Hətta cəbhə xəttindən xeyli uzaqda yerləşən Naftalan şəhərinin kəndlərindən biri ağır artilleriya atəşinə tutuldu. Nəticədə bir ailənin, ikisi azyaşlı olmaqla, 5 üzvü həlak oldu. Bu onu göstərir ki, ermənilər 1949-cu il Cenevrə Konvensiyasının tələblərinə məhəl qoymurlar".

**Mehman Rzayev, həkim:** "Hər bir xalqın həyatında çətin, lakin şərəfli məqamlar olur. İndi Dağlıq Qarabağ uğrunda gedən müharibə belə məqamlardandır. Bu günlərdə bizim haqq işimizi dəstəkləyənlər çoxdur. Onlar haqsızlığa, ədalətsizliyə, beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulması hallarına göz yummayaraq öz sözlərini deyirlər. Dünya birliyinə gəldikdə isə demək kifayətdir ki, münaqişənin sülh yolu ilə həll edilməsi üçün çoxlu sayda imkanlar yaranmışdı. Lakin həmin birlik problemin həlli yolunda ikili mövqe tutdu. Elə buna görə də Azərbaycan problemin həll yolunu genişmiqyaslı əks-hücumda görür. Erməni işğalına son qoyulması bizim haqqımız və ədalətin bərpasıdır".

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Biz də əsgərik!

Bu gün Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə şərəfli səhifələr yazılır. Bu gün erməni faşizminin Azərbaycan xalqına dəfələrlə etdiyi xəyanətin, körpələrin, yaşlı insanların, qız və gəlinlərimizin tökülən qanlarının, Xocalı soyqırımının intiqamı alınır. Bu gün düşmən ayaqları altında inildəyən ata-baba torpaqlarımıza üçrəngli bayrağımız sancılır.

Havadarlarına arxalanan erməni separatçıları uzun müddət torpaqlarımızda at oynatdı, əzəli ərazimiz Dağlıq Qarabağı "dövlət" elan etdi. Ermənistanın baş naziri Paşinyan döyünən ürəyimiz Şuşada şərab içib yallı getdi, qədim şəhərimizi paytaxt etmək istədi. Dişlərində şirə qaldığından yenidən torpaqlarımıza göz dikərək sentyabrın 27-də sərhədboyu hərbi hissələrimizə, dinc əhaliyə iriçaplı silahlardan güllələr, mərmilər yağdırdılar. Qanlar töküldü, mülki obyektlər dağıdıldı.

Heç kimin torpağında gözü olmayan, sülh carçısı olan Azərbaycan xalqı səbrlə 30 il bu günü gözlədi. Lakin səbrin də bir həddi olur. Və sentyabrın 27-də səbrimiz növbəti dəfə sınağa çəkiləndə Ali Baş Komandanın əmri ilə ordumuz bütün cəbhə boyu əks-hücuma keçdi. Bu gün erməni faşistləri qüdrətli Azərbaycan Ordusunun qabağında diz çökür.



İllərlə xalqımızın haqq səsini eşitməyən, işğal olunan torpaqlarımızın geri qaytarılması haqqında yalnız yalan vədlər verən və bununla Qarabağın unudulmasına çalışan ermənipərəst qüvvələr əsgərlərimizin yenilməz igidliyini, sonsuz Vətən, torpaq sevgisini, qələbə əzmini görüb əl-ayağa düşərək Prezidentimizi müharibəni dayandırmağa, danışıqları bərpa etməyə səsləyirlər. Bu çağırışlara İlham Əliyevin verdiyi əsaslı, cəsarətli cavablar hər birimizdə iftixar hissi yaradır. Xalq bir daha şahid olur ki, Prezidentimiz ordumuzla birlikdə sıxıntılara, torpaq həsrətinə son qoymaq əzmindədir.

Bu gün on minlərlə gənc könüllü surətdə cəbhəyə getmək, düşmənlə vuruşmaq, günahsız insanların qanını almaq, torpaqlarımızı qaytarmaq, bayrağımızı Şuşada, işğal olunmuş hər kənddə, şəhərdə ucaltmaq arzusundadır. Belə bir müqəddəs istək əsl vətəndaşlığın, Ali Baş Komandana, Ordumuza inamın göstəricisidir.

Vətən müharibəsi davam edir. Erməni faşizmi yenə də simasını göstərməkdədir. İşğalçılar kəndlərimizi, dinc əhalini nişana almaqdan çəkinmirlər. Nəticədə çoxsaylı evlər dağılır, günahsız insanlar, hətta uşaqlar həlak olurlar. Cənab İlham Əliyev Dağlıq Qarabağ ermənilərinə müraciətdə ordumuzun dinc əhali ilə ədavəti olmadığını dönə-dönə bildirmişdir. Azərbaycan döyüşçüləri yanız muzdlu əsgərlərlə, doğma torpaqlarımızda bizə silah qaldıranlarla döyüşür. Biz başqa yad torpaqlarda deyil, öz ərazimizdə torpağımızın işğaldan azad olunması uğrunda vuruşuruq. Dünya da görür ki, Azərbaycan Ordusu dinc əhaliyə silah tuşlamır, bir güllə, mərmi belə atmır. Çünki ordumuz Qarabağda məhz sülhün bərqərar olması uğrunda savaşa qalxıb.

Biz qalib gələcəyik! Çünki Prezidentimizin dediyi kimi, bizim döyüşümüz haqq döyüşüdür. Bu günlər Azərbaycan üçrəngli bayraqlarla bəzənib. Küçələrdə dəstə-dəstə insanlar "Ya Qarabağ, ya ölüm!", "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarları səsləndirib ordumuzla, dövlətimizlə həmrəy olduqlarını nümayiş etdirirlər.

Gəncə Dövlət Universitetinin rəhbərliyi, çoxsaylı professor-müəllim heyəti də həmişə olduğu kimi, bu sınaq günlərində də Ali Baş Komandanın ətrafında sıx birləşib qələbələrimizi alqışlayır və hər an Vətənin, Torpağın bütövlüyü naminə veriləcək tapşırıqları yerinə yetirməyə hazır olduqlarını bildirir.

***Yusif YUSİBOV, Gəncə Dövlət Universitetinin rektoru, professor***

## Xaçmazlı könüllülər cəbhəyə böyük coşqu ilə yola salınıblar

Oktyabrın 1-də xaçmazlı könüllülər düşmənlə döyüşə qatılmaq üçün cəbhəyə yollanıblar. AZƏRTAC xəbər verir ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xaçmaz rayon şöbəsinin qarşısında könüllülərin cəbhəyə yola salınması zamanı böyük coşqu yaşanıb.

Qardaşı oğlunu cəbhəyə yola salan Ağakişi Bədirov böyük qürur hissi keçirdiyini bildirib. "Bir əmi kimi fəxr edirəm. Vətənimiz dardadır. Torpaqlarımızı biz almasaq, kim alacaq? Gənclərimizə uğurlar arzulayıram. Qələbə ilə qayıtsınlar. Qalib gələcəyimizə də yüz faiz inanıram", - deyə A.Bədirov bildirib.

Oğlunu döyüşə yola salan İmran Babayev xalqımızda daha səbr qalmadığını deyib. "Otuz ildir dözürük. Bəsdir daha. Övladlarımız döyüşərək torpaqlarımızı geri almaq əzmindədirlər. İnşallah, mənfur düşmənin başını əzəcəyik", - deyə İ.Babayev söyləyib.

Könüllü çağırışçı Əbülfəz Fətullayev: "Cəbhəyə yollanmaqdan qürür duyuram. Vətənimi müdafiə etmək üçün gedirəm. Canım fəda olsun Vətənimə. Könüllü yazılmışdım. İnşallah, qələbə ilə qayıdacağam!"

Nəvəsini yola salan Cəmilə Məhəmmədova bütün döyüşçülərimizə cansağlığı, qələbə arzulayıb. "Əsgərlərimiz Vətəni qoruduğu kimi, Allah da onları qorusun. Qələbə xəbəri ilə qayıtsınlar. Neçə gündür televizorun qarşısındayam. Xəbərləri həyəcanla izləyirəm", - deyə Cəmilə nənə söyləyib.

Könüllülər işğal altındakı torpaqlarımızı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə düşmən tapdağından azad edəcəklərinə söz veriblər.

Xaçmazlı könüllülər böyük coşqu, alqış sədaları və "Əsgər marşı" sədaları altında cəbhəyə yola salınıb.



# Oğullar döyüşə gedir





Barıt qoxulu Qarabağda günəşli, xoş müjdəli bir payız səhəridir. Tezdən olsa da, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Bərdə rayon şöbəsinin qarşısında qələbəlikdir. Səsgücləndiricidən yayılan vətənpərvərlik ruhunda mahnılar gözlərdəki intiqam qığılcımları, üzlərdəki fərəh cizgiləri ilə qəribə bir ahəngdarlıq yaradır.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin səfərbərlik çağırışı vətən sevdalı Bərdə gənclərinin ürəyində böyük əks-səda doğurub. Bərdə şəhərindən, rayonun yaxın-uzaq kəndlərindən hərbi mükəlləfiyyətli gənclər axın-axın çağırış məntəqəsinə gəlirlər.

İlk müsahibimiz Seymur İslamovdur. O, Bərdə şəhər internat məktəbinin direktorudur. Rayonun qabaqcıl təhsil işçisi kimi böyük nüfuz sahibidir. Seymur müəllim həm də ehtiyatda olan leytenantdır:

- Çoxdan gözlədiyimiz gün axır ki, gəlib çatdı. İndi düşməndən qisas almaq zamanıdır. Çox şadam, hədsiz qürur hissi keçirirəm ki, döyüş meydanında düşmənlə üz-üzə gəlib ürəyimdə qalaqlanan intiqamı söndürmək fürsəti qazanıram. Ali Baş Komandanın polad iradəsi, Azərbaycan əsgərinin qəhrəmanlığı hər birimizə yenilməz inam verir, qələbəyə ruhlandırır. İllərdən bəri həsrətlə gözlədiyimiz Qələbə isə çox yaxındadır. Mən özümü xoşbəxt sayıram ki, o parlaq zəfəri qazananların sırasında mən də olacağam.

Təlim mərkəzlərinə, döyüş bölgələrinə yol alacaq avtobuslar şöbənin həyətində cərgələnib.

Çağırış məntəqəsinə oğlu ilə birlikdə gələn Alaçadırlı kənd sakini Eyvaz Şirinovla söhbət edirik. Müsahibim deyir:

- Bu gün burada belə böyük bir izdihamı görmək mənə xoş duyğular yaşadır. Bu möhtəşəm görüntü xalqın öz ordusuyla sarsılmaz birliyinin parlaq ifadəsidir. Mən inşaat mühəndisiyəm. Cəbhə bölgələrində çoxsaylı yaşayış evlərinin tikilməsində zəhmətim olub. Ancaq bu gün faşist xislətli ermənilər insanlığa sığmayan hərəkətlər edir, kəndləri, şəhərləri atəşə tutur, mülki əhalini qətlə yetirirlər. Artıq onlara dərs verməyin vaxtı çatıb. Buraya oğlum Elnurla gəlmişəm. Bir ata olaraq oğlumun döyüşə getməsində qürur duyuram. Oğul düşmən çəpəridi deyib babalarımız. Doğma Qarabağımızın azadlığı yolunda qanımızı, canımızı verməyə hazırıq!

Vətənin çağırışına ilk səs verənlərdən biri də Bərdə Rayon Təhsil şöbəsinin əməkdaşı, ehtiyatda olan leytenant Ziya İsmayılzadədir. Üz-gözündən qürur yağan gənc düşüncələrini bizimlə həvəslə bölüşür.

- Hər gün döyüş bölgələrindən qələbə soraqlı xoş xəbərlər alırıq. Əsgərlərimiz əsl qəhrəmanlıq göstərir, düşməni ağır itkilərə məruz qoyub ərazilərimizdən qovurlar. Çox sevinirəm ki, bu gün şanlı tarix yazan əsgərlərimizin sırasına tezliklə mən də qoşulacağam.

Müharibəyə getmək, döyüşlərə atılmaq bu gün hər kəsin arzusudur. Suyunu içdiyimiz, havasını udduğumuz, torpağına qədəm qoyub gəzdiyimiz Vətən qoyub bu şərəfli haqqı boynumuza. Vətən sevdalı oğullar bu gün Qarabağ uğrunda həlledici döyüşə inamla, qələbə eşqiylə, düşməndən layiqli qisas almaq ehtirası ilə gedirlər. Sağ gedin, salamat qayıdın! Tanrı sizi qorusun. Gözü yolda, qulağı səsdə olanları QƏLƏBƏ xəbəri ilə sevindirin!

***Lazım QULİYEV, "Azərbaycan"***

# Azərbaycan Prokurorluğunun yaradılmasının 102-ci ildönümü qeyd olunub





Azərbaycan Prokurorluğunun yaradılmasının 102-ci ildönümü münasibətilə Baş Prokurorluğun kollegiya üzvləri oktyabrın 1-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə gül dəstələri qoyublar.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər çiçəklər düzülüb.

Şəhidlər xiyabanına gələn kollegiya üzvləri Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda şəhid olmuş qəhrəman vətən övladlarının xatirəsinə dərin ehtiramlarını bildirib, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Daha sonra Baş Prokurorluqda milli prokurorluğun yaradılmasının ildönümünə həsr olunmuş mərasim keçirilib.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev bildirib ki, Azərbaycan Prokurorluğunun demokratik məzmunda tamamilə yenidən formalaşması, milli maraqlarımıza xidmət edən bir təsisat kimi hərtərəfli təkmilləşməsi və müasirləşməsi müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin həyata keçirdiyi dövlətçilik siyasəti nəticəsində mümkün olub. Ulu Öndərin milli inkişaf strategiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gündəlik diqqət və qayğısı sayəsində bu gün Azərbaycan Prokurorluğu insan hüquq və azadlıqlarının müdafiə edilməsində, cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayır.

Qeyd edilib ki, dövlətimizin qüdrətlənməsinə, sosialyönümlü siyasətin reallaşdırılmasına, bütövlükdə həyata keçirilən hərtərəfli islahatlara və görülən böyük işlərə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti misilsiz töhfələr verməkdədir.

Diqqətə çatdırılıb ki, 2020-ci il prokurorluq orqanları üçün əlamətdar olmaqla prokurorluğun tərəqqi dövrü kimi tarixin yaddaşına həkk olunub. Prezident İlham Əliyev tərəfindən mayın 1-də Baş prokuror vəzifəsinə təyinatı ilə əlaqədar Kamran Əliyev videoformat qaydasında qəbul edilərkən məhkəmə-hüquq sisteminin keyfiyyətcə yenilənməsi prosesi çərçivəsində prokurorluq orqanlarında da islahatların həyata keçirilməsi zərurəti vurğulanıb və prokurorluq orqanları qarşısında bir sıra mühüm vəzifələr qoyulub. Həmin vəzifələrin və tövsiyələrin icrası ilə bağlı mayın 12-də "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanlarında işin təkmilləşdirilməsi və islahatların dərinləşdirilməsinə dair göstərişlərinin icrası üzrə 2020-ci il üçün Fəaliyyət Planı" təsdiqlənərək icrası vacib olan işlərin əsas istiqamətləri müəyyənləşdirilib, çoxsaylı tədbirlər həyata keçirilib.

Belə ki, prokurorluq orqanlarının fəaliyyətində çevikliyin və səmərəliliyin artırılması, şəffaflığın təmin edilməsi, müasir dövrün tələblərinə cavab verən peşəkar kadr korpusunun formalaşdırılması məqsədilə dövlət başçısının 2020-ci il 10 iyun tarixli sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiqlənib, daha mobil və dinamik idarəetməni təmin etmək məqsədilə idarə və şöbələrinin sayı 15-dən 18-ə çatdırılıb.

Qısa müddətdə struktur qurumlar və rayon (şəhər) prokurorluqları arasında işgüzar münasibətləri müasir tələblər səviyyəsində tənzimləmək, icra və intizam, kadrlarla iş, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkilini təmin etmək üçün milli qanunvericiliyin tələbləri və beynəlxalq təcrübə nəzərə alınmaqla Baş Prokurorluq üzrə "İşin Təşkili Qaydaları" təsdiq edilib.

Qeyd olunub ki, prokurorluq orqanlarının inkişaf istiqamətlərini və hədəflərini müəyyənləşdirən yenicə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun 2020-2023-cü illər ərzində Strateji İnkişaf Konsepsiyası" qurumun qarşısında duran vəzifələrin yerinə yetirilməsində uğurlu nəticələrin əldə olunmasına, fəaliyyətin təkmilləşdirilməsinə və səmərəliliyin artırılmasına şərait yaradacaq.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Baş prokuror bildirib ki, riyakar və qeyri-konstruktiv siyasət aparan Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə son günlər düşmənin silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc sakinlərimizə qarşı terror əməllərini davam etdirir, mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

Bildirilib ki, prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq əməliyyat tədbirləri həyata keçirilir. Ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bütün imkanlardan istifadə olunaraq lazımi tədbirlər görüləcək.

Mərasimdə inam ifadə olunub ki, prokurorluq orqanları xalqımızın vətən müharibəsi üçün səfərbər olduğu belə bir həssas dönəmdə üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, dövlət müstəqilliyimizin və milli maraqlarımızın, cəmiyyətin cinayətkar qəsdlərdən qorunmasında digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə bütün səylərini səfərbər edəcək.

Tədbirin yekununda Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından Prezident İlham Əliyevə müraciət qəbul olunub.

# İlham Əliyevin dəyişməz şərti

## Ermənistan silahlı birləşmələri torpaqlarımızdan qeyd-şərtsiz, tam və dərhal çıxdıqdan sonra döyüşlər dayanacaq, qan tökülməyəcək

*Əvvəli 1-ci səh.*

Prezidentin də söylədiyi kimi, artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz. Ona görə erməni xalqı anlamalıdır ki, 30 ilə yaxın başqa dövlətin torpağını zəbt etmək, orada bütün binaları, tarixi abidələri dağıtmaq, 1 milyondan çox insanı öz doğma torpağından didərgin salmaq, Azərbaycan xalqına qarşı soyqırımı törətmək cinayətdir. İndi Azərbaycan tarixi ədaləti bərpa edir.

Erməni xalqının bədbəxtliyi ondan ibarətdir ki, uzun illər ərzində ona quldur kriminal rejim rəhbərlik edib. O rejim ki, ancaq öz şəxsi maraqlarını güdmək üçün azərbaycanlılara qarşı soyqırımı törədib və torpaqlarımızı işğal altında saxlayır: "Mən əminəm ki, erməni xalqı mənim bu sözlərimi düzgün başa düşəcək, düzgün anlayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Azərbaycan çoxmillətli dövlətdir və burada bir çox millətlər sülh, əmin-amanlıq şəraitində yaşayır, o cümlədən erməni xalqı. Minlərlə erməni Azərbaycan ərazisində yaşayır. Onlara söz deyən yoxdur, onlar bizim vətəndaşlarımızdır".

### Ermənistan İlham Əliyevin xəbərdarlığından dərs götürməli idi

Bu gün cəbhədə Azərbaycan Ordusu düşmənə layiqli cavab verir, yüzlərlə canlı qüvvəsi, hərbi texnikası məhv edilir.

Bütün bunların səbəbkarı Ermənistan hakimiyyətidir. Cənab İlham Əliyev dəfələrlə işğalçıya xəbərdarlıq etsə də, nə beynəlxalq təşkilatlar Ermənistana təzyiq etdi, nə də N.Paşinyan təxribatlarından, uydurma fikirlərindən, qanunsuz "məskunlaşdırma" siyasətindən əl çəkdi. Ermənistanın rəhbərliyi bu əməlləri ilə açıq-aşkar müharibəyə hazırlaşdığını göstərdi.

Cənab İlham Əliyev isə BMT kürsüsündən bir daha həm Ermənistana, həm də beynəlxalq təşkilatlara mesaj ünvanladı. Prezident bəyan etdi ki, Ermənistan yeni müharibəyə hazırlaşır və bunun qarşısı alınmalıdır. Əgər iyul və avqust aylarındakı təxribatlar təkrarlanarsa, Azərbaycan Ermənistanı həyata keçirdiyi istənilən təxribata görə ağır cəzalandıracaq və təcavüzkar etdiyi əmələ görə peşman olacaq.

Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət və bu məsələ ilə məşğul olan tərəflər işğalçıya lazımi səviyyədə təsir edə bilmədilər və nəhayət, sentyabrın 27-də Ermənistan təxribata başladı. Azərbaycan Ordusu isə əks-hücum əməliyyatları ilə düşmənə layiqli cavab verdi və bu gün də uğurlu əməliyyatlar davam edir. "Mən demişdim ki, əgər iyul və avqust aylarında bizə qarşı törədilmiş hərbi təxribatlar təkrarlanarsa, Ermənistan peşman olacaq və sözümün üstündə dururam. Bu gün döyüş meydanında əldə olunmuş üstünlük, azad edilmiş yaşayış məntəqələrimiz, strateji yüksəkliklər bir daha onu göstərir ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirir", - deyə Prezident bildirdi.

Hər zaman olduğu kimi, bu gün də Ermənistan silahlı birləşmələrinin hədəfi dinc əhalidir. Artıq işğalçının çirkin əməlləri nəticəsində 17 dinc sakin həlak olub, 50-dən çox mülki şəxs yaralanıb, 200-ə yaxın ev dağıdılıb. Lakin Ermənistan hərbi birləşmələrindən fərqli olaraq, Azərbaycan Ordusu mülki əhalini vurmur və ümumiyyətlə, əhaliyə qarşı heç vaxt vuruşmayıb. Silahlı Qüvvələrimizin hədəfləri erməni silahlı birləşmələrinin mövqeləri, texnikası və canlı qüvvəsidir.

Bəllidir ki, istənilən münaqişə sülhlə bitir. Azərbaycan tərəfi yaxşı anlayır ki, Qarabağın erməni icması ilə yenidən bir yerdə yaşamağa davam edəcək, onlar da Azərbaycan vətəndaşlarıdır və ordumuzun hədəfi ola bilməz.

### Həm orduda, həm də cəmiyyətdə ruh yüksəkliyi var

Bu gün Azərbaycan Ordusunda da, ölkə ictimaiyyətində də böyük ruh yüksəkliyi var. Dövlət başçısının söylədiyi kimi, qanlı döyüşlər Azərbaycan xalqı üçün həqiqət anıdır. Məhz bu günlərdə Azərbaycana dəstək olan ölkələr, təşkilatlar, insanlar da heç vaxt unudulmayacaq. Müxtəlif ölkələrdə yaşayan dünya azərbaycanlıları, eləcə də qardaş Türkiyədən, Ukraynadan, Pakistandan olan gənclər Prezidentə məktub yazaraq torpaqlarımızın azadlığı uğrunda gedən savaşlara könüllü qoşulmaq istədiklərini bildirirlər. Cənab İlham Əliyev də bütün bunları çox yüksək dəyərləndirir.

Ancaq dövlət başçısı buna lüzum görmür. Ona görə ki, Azərbaycan Ordusu kifayət qədər güclüdür və üzərinə düşən tapşırığı layiqincə yerinə yetirir. Azərbaycan dövləti isə öz prinsipial mövqeyindən dönməyəcək, ərazi bütövlüyünü bərpa edəcək.

Artıq bütün əsas beynəlxalq təşkilatlar da Azərbaycanın mövqeyini dəstəkləyirlər. BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti, ATƏT - bütün bu təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyən bəyanatlar veriblər.

Bütün bunlar cənab İlham Əliyevin illərdir dəyişməyən prinsipial mövqeyinə, Azərbaycanın haqq səsinə verilən beynəlxalq dəstəkdir. Artıq Ermənistan bundan dərs götürməlidir ki, meydanda tək qalıb, havadarları da təcavüzkara yardım əlini uzatmır. İşğalçı ölkənin tək yolu Azərbaycan torpaqlarından silahlı birləşmələrini çıxarmaqdır.

### Adlarını Azərbaycan tarixinə yazdıran qəhrəman oğullar...

Prezident vətən vurğunda savaşaraq yaralanan hərbi qulluqçuları da təbrik edərək bildirdi ki, onlar gənc yaşlarında böyük qəhrəmanlıq, şücaət göstərib adlarını Azərbaycan tarixinə yazdırırlar.

Ali Baş Komandan bütün yaralı hərbçilərimizin, eyni zamanda, şəhid olmuş hərbçilərimizin valideynləri qarşısında baş əyərək onlara öz adından, Azərbaycan xalqı adından təşəkkürünü bildirdi. Əminliklə vurğuladı ki, Azərbaycan xalqı onlarla qürur duyur.

Yaralı hərbçilərimizin tez bir zamanda sağalması üçün xəstəxanalarda bütün imkanlar yaradılıb. Dövlət başçısı da dedi ki, bütün xəstəxanalarda, hərbi hospitallarda hazırda müalicə alan hər bir insan xüsusi qayğıya layiqdir və bütün həkimlər, nəinki həkimlər, xalq onlara dəstək olmalıdır: "Siz əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq. Bir arzumuz var ki, siz tezliklə sağalıb, normal həyata qayıdıb öz şərəfli missiyanızı davam etdirəsiniz. Gənclər üçün siz nümunə olmalısınız, örnək olmalısınız. Azərbaycan xalqı qəhrəman xalqdır ki, sizin kimi övladlar yetişdirib".

Ali Baş Komandanın sonuncu fikri isə hər kəsin ürəyini dağa döndərdi: "Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Hər şey cəbhə üçün, hər şey Qələbə üçün

# Vətənə can da qurban, qan da...

## Qanvermə aksiyası keçirən könüllülərimiz Milli Orduya hərtərəfli dəstək olmağa çalışırlar

*Əvvəli 1-ci səh.*

Əlbəttə, söhbət yalnız gənclərimizin könüllü olaraq vətənin müdafiəsinə qalxmasından getmir.

Azərbaycan Respublikası Prezidentinin ölkədə qismən səfərbərliklə bağlı sərəncam imzalamamışdan da öncə ölkə gənclərinin könüllü olaraq ordu sıralarına yazılması kütləvi hal almışdı. Adıçəkilən sərəncam isə vətənpərvər Azərbaycan gəncliyini düşmən üzərində qələbə çalmaq üçün bir daha ruhlandırdı ki, bu da minlərlə çağırışçının ordu sıralarına yazılmasına stimul verdi.

Bütün bunlar Azərbaycan Ordusunun xalqın, onun vətənpərvər övladlarının Ali Baş Komandanın hər bir əmrinə hazır olduqlarını göstərdi. Orduya dəstək, ön cəbhədə vuruşub yaralanan əsgər və zabitlərimizə qan vermək üçün gənclərin müraciəti və keçirdiyi aksiyalar da həmrəyliyin başqa bir formasıdır.

### Qələbəyə doğru...





B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hemotologiya və Transfiziologiya İnstitutuna könüllü qan vermək üçün kütləvi şəkildə gələn gənclərimiz bir daha vətənə canı ilə bağlı olmalarını təsdiqləyirdilər.

Bakı şəhər sakini Rəşad Əliyev belə tədbirlərin əhəmiyyətini dilə gətirməmişdən öncə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətindən sitat gətirərək qeyd etdi ki, bu gün ordumuz öz torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Prezident müraciətində xüsusi olaraq bildirdi ki, hazırda Azərbaycan Ordusu öz torpağında ərazi bütövlüyünü qoruyur, müdafiə edir: "...Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

R.Əliyev dedi ki, Ali Baş Komandanın bu fikirləri biz gənclərdə çox böyük ruh yüksəkliyi yaradıb! Bura könüllü şəkildə qan verməyə gələn gənclər ön cəbhədəki əsgər və zabitlərimizlə həmrəy olduqlarını nümayiş etdirir. Bu isə o deməkdir ki, biz lazım olanda vətənə canımızla, qanımızla xidmət etməyə, torpaqlarımızın azadlığı uğrunda, haqq yolunda aparılan mübarizəyə qoşulmağa hazırıq! Bu gün Azərbaycan gəncliyinin bir devizi var: "Qələbəyə doğru... İlhamla, inamla irəli!"

"Rəşadətli Milli Ordumuzun düşmənə sarsıdıcı zərbəsi ilə bir sıra ərazilərimizi, xüsusən strateji yüksəkliklərimizi azad etməsindən ruhlanan xalqımızın Prezident İlham Əliyevin ətrafında daha sıx, monolit birlik nümayiş etdirməsi qələbə əzmimizi bir az da artırır".

Bu fikirlərin müəllifi isə qan verməyə gəlmiş Bakı Dövlət Universitetinin tələbəsi Günay Behbudovadır: "... Yaşından, hərbi mükəlləfiyyətindən asılı olmayaraq, on minlərlə ölkə vətəndaşı, ehtiyatda olan zabitlər, qazilər, xüsusən də gənclərimiz döyüşən Milli Orduda xidmət göstərmək üçün Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şəhər və rayon şöbələrinə axışır. Döyüşən orduya öz dəstəyini müxtəlif formada göstərməklə biz düşmən üzərində qələbəni tezləşdirmiş oluruq. Bax belə: kimi silahı, canı, kimisi də qanı ilə. Qan vermək üçün gələn gənclərimizə bildirilir ki, hələ buna ehtiyac yoxdur. Qan bankında kifayət qədər ehtiyatımız var. Bu, bir daha Azərbaycan səhiyyəsinin, hətta koronavirus pandemiyası şəraitində inkişaf səviyyəsi deməkdir. Bu, eyni zamanda onu da təsdiqləyir ki, düşmən bizə nəinki cəbhədə, səhiyyə sahəsində də uduzmağa məcburdur. Çünki Ermənistanda nə hospital təminatı var, nə də qan ehtiyatı. Biz gənclərin vətən qarşısında borcu bu günlərdə daha müqəddəsdir! Vətənə ana deyiriksə, onu düşmən əsarətindən xilas etmək üçün, sadəcə, sözlə yox, əməlimizlə təsdiqləməliyik. Ona görə də canımızla, qanımızla bu qələbəni qazananların yanındayıq!"

### Vətən üçün qan verməyə cümlə hazırız...

Bütün bunlar onu göstərir ki, döyüşkən ruhu ilə düşməni layiq olduğu yerdə oturdan Azərbaycan xalqı və onun qüdrətli ordusu qələbə sevincini yaşamağa və yaşatmağa qadirdir. Bunu ölkəmizin ayrı-ayrı vətəndaşlarının ürək sözlərindən də duymaq, hiss etmək çətin deyil. Hər kəs ordumuzdan zəfər və qələbə gözləyir. Buna görə də hər an onun yanında olduğunu təsdiqləyir.

Goranboy rayonunun Qızılhacılı kəndindən olan müəllimə Həsənova İradə Saleh qızı isə sözünə döyüşən ordumuzu hərtərəfli təmin etdiyi üçün Ali Baş Komandana minnətdarlıqla başlayır: "...Möhtərəm Ali Baş Komandan, cənab İlham Əliyev! Ümummilli Liderimiz Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycan Sizin rəhbərliyinizlə Qələbəyə doğru inamla addımlayır. Ata tərəfim ulu Göyçədən, anam isə Kəlbəcərdən olub. Hər ikisi dünyasını dəyişib. İki dəfə qaçqınlıq-köçkünlük ağrısını yaşayan ulu kökümüz ermənilərin daşnak və faşist ideologiyası ilə silahlanan quldur dəstələrinin bəd niyyətinin şahidi olub. Sonuncu dəfə isə qohum-əqrəbamız Göyçə və Kəlbəcərdən qovulub. Ata yurdum Goranboyun kəndlərini ermənilərin bu gün də atəşə məruz qoyması bir qadın, ana kimi məni də çox hiddətləndirir. Nə lazımdırsa, qanla-canla hazırıq! Vətənimizin bu günlərində Sizin, eləcə də Milli Ordumuzun yanındayıq! Bütün Azərbaycan analarının bu günlər dua etdiyi yeganə bir övladı var - doğma vətən torpağı! Balalarımız cəbhədə, ruhumuz səngərdədir! Qanımız da halaldır vətənə, canımız da! Bu günü həsrətlə, intizarla gözləmişik! İnşallah ki, qətiyyətli addımınız büdrəməyəcək! Düşmən sarsılacaq! Torpaqlarımızı işğaldan azad etmək üçün Tanrı Sizi, əmrinizə hazır olan əsgər və zabitlərimizi qorusun!"

Belə ürəkaçan fikir söyləyən, dua edən, qanını əsirgəməyən, sevincini bölüşən, hər an ordumuzdan xoş xəbər, qələbə müjdəsi gözləyənlərimizi saymaq-sadalamaq mümkün deyil. Əslən göyçəli olan, 1988-ci ildə ermənilər tərəfindən ailələri didərgin salınıb, Tərtər rayonunun Bəyimsarov kəndində məskunlaşan Rzayev Sirac Əmir oğlu, Bakı şəhərindən Emin və Rəşad Əliyevlər, Aytac və Murad Rzayev qardaş-bacıları, həkimlərdən Aybəniz Nəcəfova, Leyla Abdullayeva, Sumqayıt şəhər sakini, oğlunu bu günlərdə ordu sıralarına yola salmış kitabxanaçı Sevda Məmmədova, ibtidai sinif müəllimi Aynurə Nəcəfova, Anar Əliyev, Ramin və Bəhram Bəylərov qardaşları kimi qan verən yüzlərlə vətənpərvərin səmimi fikirləri, arzu və istəkləri Ali Baş Komandanın, ordumuzun və xalqımızın birliyi ilə tezliklə düşmən üzərində böyük qələbə çalmaq, torpaqlarımızı faşist xislətli erməni daşnaklarından azad etməkdir. Onlar bu gün öz qanlarını verməklə xalqımızın vətənpərvərlik ruhunu əzmkarlıqla daşıdıqlarını da təsdiqləyirlər.

Bəli, Azərbaycan qələbə ruhlu döyüşlərini davam etdirməkdə, Ermənistan isə qazandığı fəlakətin acı nəticələri ilə üz-üzə qalmaqdadır. Düşmənin fəlakəti yalnız hərbi texnika və canlı qüvvə itkisi deyil. Cəbhədə yaralananların hospitalizasiyası, müalicəsi üçün yaradılmayan şərait onların itkilərinin durmadan artmasına səbəb olur. Qan ehtiyatının olmaması isə bir daha Ermənistan səhiyyəsinin iflic vəziyyətini təsdiqləyir. Ermənistan KİV-inin yazdığına görə, N. Paşinyan rejiminə qarşı ölkədə səngiməyən etirazların səbəblərindən biri də məhz yaralı əsgərlərin qan, eləcə də onları cəbhədə əvəz edəcək canlı qüvvənin çatışmamasıdır. Bir sözlə, Ermənistanın qan dilənməsi onun müharibəyə necə hazırlığının göstəricilərindən biridir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Erməni faşistlərinin hədəfi dinc əhali və mülki obyektlərdir

## Ağdamın Birinci Baharlı qəsəbəsində 25 evə ziyan dəyib

Ağdam işğal altındakı vətən torpaqlarının azad edilməsi uğrunda müqqədəs savaşın şiddətlə davam etdiyi qaynar bölgələrdəndir. Artilleriya mərmilərinin gurultusu, iriçaplı silahların atəş səsləri ara vermir.

Döyüş meydanında sarsıdıcı zərbələr alan Ermənistan silahlı qüvvələri qəhrəman Azərbaycan əsgərinin dəmir iradəsi qarşısında tab gətirə bilməyib geri çəkilsə də, köhnə faşist xislətini dəyişmir. Düşmən mülki obyektləri, dinc əhalini, yaşayış məntəqələrini artilleriya atəşinə tutmaqda davam edir.

Müharibənin başladığı 3 gündə rayonun yaşayış məntəqələrinə atılan mərmilər 100-dən çox evə, mülki tikiliyə müxtəlif dərəcəli zərər vurmuşdur. Sentyabrın 29-dan 30-na keçən gecə atılan artilleriya mərmilər təkcə Birinci Baharlı qəsəbəsində 25 evə zərər vurmuşdur. Evi artilleriya mərmisi ilə dağılan Birinci Baharlı qəsəbəsinin sakini Elşən Məmmədovla əlaqə saxlayıb baş verən hadisə ilə bağlı məlumat aldıq.

- Top mərmisi evimizi yararsız vəziyyətə salmışdır. Məkrli düşmən etdiyi xəyanət üçün elə məqam seçir ki, o zaman hamı evdə olur. Hadisə gecəyarısı baş verdi. Xoşbəxtlikdən gündüzdən ailə-uşağı nisbətən təhlükəsiz yerə köçürmüşdük. Bizim qəsəbədə xeyli evə zərər dəyib. Amma heç kəs uçurulub dağılan evlərə görə üzülmür. Bundan yaxşı da evlər tikə bilərik. Əsas məsələ ordumuzun qazandığı uğurlardır. İgid əsgərlərimizin döyüş meydanında göstərdikləri sücaət, qazandıqları zəfərlər bizə qol-qanad verir, sonsuz qürur bəxş edir. Biz 30 ildir ki, bu günü gözləyirdik. İndi inanırıq ki, qələbə yaxındadır. Tezliklə Ağdama qovuşacağımız o anı gözləyirik. Ali Baş Komandanımıza, Azərbaycan Ordusuna güvənirik!

Ağdamda döyüşlər intensiv xarakter alıb. Cəbhədən gələn qələbə soraqlı xəbərlər əhalidə yüksək əhvali-ruhiyyə yaradır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Düşmən Tapqaraqoyunluda dinc sakinlərin evlərini hədəfə alır








Sentyabrın 27-si səhər saatlarından başlayaraq Ermənistan silahlı bölmələrinin hücumuna əks-həmlə ilə cavab verən Azərbaycan Ordusunun ağır zərbələri qarşısında xeyli sayda canlı və hərbi-texniki itkilərə məruz qalan düşmən cəbhəboyu kəndləri və dinc sakinləri atəşə məruz qoyur.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, hazırda bütün cəbhəboyu ağır döyüşlərin davam etdiyi bir vaxtda ən çox düşmən təxribatına məruz qalan yaşayış məntəqələrindən biri də Goranboy rayonunun Tapqaraqoyunlu kəndidir.

Rəşadətli ordumuzun əks-həmləsi ilə strateji əhəmiyyətli Talış yüksəklikləri düşməndən geri alındıqdan sonra bu yüksəkliklərlə üzbəüz yerləşən Tapqaraqoyunlu kəndi erməni birləşmələri tərəfindən daha intensiv atəşə məruz qalıb.

Kənddəki yaşayış evlərini, dinc sakinləri, eləcə də əhalinin təsərrüfatını hədəfə alan düşmən Cenevrə Konvensiyasının müddəalarına zidd olaraq cəbhədəki məğlubiyyətinin əvəzini dinc sakinlərdən çıxmaq istəyir.

Hazırda düşmən təxribatı nəticəsində Tapqaraqoyunluda onlarla ev, yardımçı təsərrüfatlar qismən, yaxud tamamilə dağılıb. Kənd sakinləri arasında düşmənin atdığı mərmilər nəticəsində xəsarət alanlar da var.

Bununla belə Tapqaraqoyunlu sakinləri arasında böyük ruh yüksəkliyi var. Kənd sakini Azər Nağıyev deyib: "Tapqaraqoyunlu qəhrəman kənddir. Hələ 1990-cı illərin əvvəlində bizim silahlı qüvvələr yenicə formalaşmağa başladığı bir dövrdə düşmən dəfələrlə bu kəndi işğal etmək istəmişdi, amma istəyinə nail ola bilməmişdi. 2016-cı ilin Aprel döyüşlərində də düşmənin silahlı birləşmələri kəndimizi - evləri, yolları, məktəbi və dinc sakinləri atəşə məruz qoydu, dağıntı törətdilər. Onda da istəkləri baş tutmadı. Ümumiyyətlə, bizim kəndimizin sakinləri 27 ildir ki, düşmənlə üz-üzə dayanıb, hər səhərini atəş səsləri ilə açıb. Biz ordumuza inanır, qələbə müjdəli xəbərlər gözləyirik".

## Ermənistan silahlı qüvvələrinin mülki əhalinin yaşayış sahələrini atəşə tutması yanğın və dağıntılara səbəb olub



Beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Azərbaycanın mülki əhalisini atəşə tutmaqda davam edir.



Şanlı ordumuzla döyüş meydanında üz-üzə gəlməyə cürət etməyən düşmən Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından atəşə tutaraq mülki obyektlərdə dağıntı və yanğınlar törədir, dinc əhaliyə, eləcə də dövlət əmlakına ciddi ziyan yetirir.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, çirkin əməllərini davam etdirən Ermənistan silahlı qüvvələrinin ötən gün axşam və gecə saatlarında atdığı mərmi nəticəsində Naftalan rayonunun Qaşaltı Qaraqoyunlu kəndində vətəndaşa məxsus evdə yanğın baş verib. Hadisə yerinə cəlb edilmiş FHN Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələrinin operativ müdaxiləsi sayəsində evin bir hissəsi yanğından mühafizə olunub. Bundan başqa, Tərtər rayonunun Səhləbad kəndində vətəndaşa məxsus təsərrüfat obyekti yanıb. Ərazi intensiv atəşə tutulduğundan yanğınsöndürmə qüvvələrinin söndürmə əməliyyatını başa çatdırması mümkün olmayıb.

Bundan başqa, Tərtər rayonunda qəbiristanlıq ərazisinə mərmi düşməsi nəticəsində başlayan yanğına ərazi atəşə tutulduğundan müdaxilə etmək mümkün olmayıb.

Qeyd edək ki, düşmənin artilleriya atəşləri nəticəsində müxtəlif obyektlərə, o cümlədən mülki obyektlərə, fərdi və çoxmənzilli yaşayış evlərinə, təsərrüfatlara, infrastruktur obyektlərinə dəyən ziyanın, zərbələr nəticəsində baş verən yanğınların dərhal aradan qaldırılması üçün Fövqəladə Hallar Nazirliyi gücləndirilmiş iş rejimində fəaliyyət göstərir.

## Ermənistan ordusu Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsini artilleriya atəşinə tutur



Oktyabrın 1-də səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsini artilleriya atəşinə tutur.

AZƏRTAC-ın cəbhə bölgəsindəki çəkiliş qrupu xəbər verir ki, mülki əhalini hədəfə alan düşmənin atdığı artilleriya atəşi nəticəsində sakinlər arasında ölən və xəsarət alan olmayıb.

Qeyd edək ki, Aşağı Ağcakənd qəsəbəsinə atılan düşmən mərmilərindən biri ərazidə çəkiliş aparan AZƏRTAC-ın müxbirlərinin yaxınlığında partlayıb. Müxbirlərimiz atəş altındakı ərazidən xəsarət almadan çıxa biliblər.

Azərbaycan Ordusunun bölmələri düşmənə sarsıdıcı zərbələr endirir.

## Düşmənin Cocuq Mərcanlı kəndini intensiv atəşə tutması nəticəsində çoxlu sayda evə külli miqdarda ziyan dəyib

Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə düşmənin silahlı qüvvələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, işğalçı ölkənin silahlı qüvvələrinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində evləri intensiv atəşə tutması nəticəsində çoxsaylı evlərə külli miqdarda ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bütün zəruri tədbirlər görüləcək.

## Düşmənin Tərtər şəhərini ağır artilleriyadan atəşə tutması nəticəsində bir mülki şəxs həlak olub

Məlum olduğu kimi, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Düşmənin silahlı qüvvələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, işğalçı ölkənin silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx olduğu əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində oktyabrın 1-də saat 09 radələrində Tərtər şəhər avtovağzalına düşmüş top mərmisinin qəlpələrindən 1982-ci il təvəllüdlü Həsənov Zabil Məhəmməd oğlu həlak olub, avtovağzala ciddi ziyan dəyib.

Faktla bağlı Tərtər Rayon Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adamöldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adamöldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adamöldürmə), 100.2-ci (təcavüzkar müharibəni aparma) və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb olunmaları üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bütün zəruri tədbirlər görüləcək.

## Düşmənin ağır artilleriyadan atəşi nəticəsində Ağdam rayonunun Hacıməmmədli kəndində ata və oğlu həlak olub

Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. İşğalçı ölkənin silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində oktyabrın 1-də saat 13 radələrində Ağdam rayonunun Hacıməmmədli kəndində yaşadıqları evə düşmüş top mərmisinin qəlpələrindən 1966-cı il təvəllüdlü Məmmədov Mürşüd Rəşid oğlu və oğlu, 1996-cı il təvəllüdlü Samir Məmmədov həlak olub, yaşadıqları evə külli miqdarda ziyan dəyib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, faktla bağlı Ağdam Rayon Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adamöldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adamöldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adamöldürmə), 100.2-ci (təcavüzkar müharibəni aparma),186.3-cü (əmlakı qəsdən məhv etmə və ya zədələmə xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə) və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bütün zəruri tədbirlər görüləcək.

## Düşmənin atdığı top Goranboyun Yenikənd kənd sakininin evinə düşüb




Ermənistan ordusu Goranboy rayonunun yaşayış məntəqələrini artilleriya atəşinə tutmaqda davam edir.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, düşmənin atdığı top mərmisi rayonun Yenikənd kəndində Seymur Mustafayevin evinə düşüb. Evə ciddi ziyan dəyib.

Ev sahibinin qardaşı Səbuhi Mustafayev AZƏRTAC-a bildirib ki, hadisə səhər saatlarında baş verib. Ev və içindəki əşyalar yararsız hala düşüb. "Xoşbəxtlikdən evdə olan qardaşım həyətdə imiş. Ermənilər kəndi hədəf alırlar. Özü də ancaq mülki əhalini. Atılan bəzi raketlər partlamayıb. Düşmənin fikri sakinləri qorxutmaqdır. Amma kənddən heç kim çıxası deyil. Hamı öz evindədir. Çünki biz düşməndən qorxmuruq".

Kənd sakini Əkbər Abdullayev də kənddə heç kimin öz evini tərk etmədiyini bildirib. "Düşmənin atdığı mərmilərdən qorxmuruq. Özüm bu ərazilərdə beş il döyüşmüşəm. Hazırda da doğma kəndimdəyəm. Ermənilərin atdığı top qohumumun evinə düşüb. Həmin vaxt evdə kimsə olmayıb. Ermənistan ordusu kəndi atəşə tutmaqda davam edir. Amma buna baxmayaraq, kəndimizi qoyub heç yana getmirik, Azərbaycan Ordusuna güvənirik".

Ermənilərin ancaq mülki şəxsləri atəşə tutduğunu deyən Ə.Abdullayev qeyd edib ki, düşmən Azərbaycan əsgəri ilə döyüşə girməkdən qorxur deyə, sakinləri hədəf alır. "Ordumuzun döyüş ruhu yüksəkdir. Düşmənə layiqli cavab verir. Azərbaycan əsgəri ilə fəxr edirik", - deyə o vurğulayıb.

## Ermənistan ordusunun mülki əhalini atəşə tutması nəticəsində 16 nəfər həlak olub, 55 nəfər isə bədən xəsarətləri alıb

Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Düşmənin silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 55 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib, 16 nəfər isə həlak olub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan hərbi birləşmələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

İşğalçı ölkənin silahlı qüvvələrinin mülki infrastruktur obyektləri atəşə tutması nəticəsində 163 evə, həmçinin 36 mülki obyektə külli miqdarda ziyan vurulub. Eləcə də dinc sakinlərə məxsus nəqliyyat vasitələri yararsız vəziyyətə düşüb, çoxsaylı xırda və iribuynuzlu heyvanlar tələf olub.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bütün zəruri tədbirlər görüləcək.

# Tarix ermənilərin mənfur sifətlərinin dəfələrlə dəyişdiyinə şahidlik edib

**"Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"**

**İlham ƏLİYEV**

"Erməni xəstəliyi" adlanan bir termin var. Bu xəstəlik irsi Ağdəniz qızdırması adlanır və genetik analiz nəticəsində müəyyən edilir. Bu barədə kifayət qədər yazılıb. Bu yazıda isə biz erməni xislətindən, onların şəraitə uyğun olaraq simalarını necə dəyişmələrindən söhbət açacağıq.

"Erməni" adlandırılan toplumun xarakteristikası çox mürəkkəbdir. Özünü "mədəni", "sivilizasiyalı", "talesiz", "soyqırımına məruz qoyulan xalq" kimi qələmə verən bu toplum, fərqli situasiyalarda özünü müxtəlif görünüşdə təqdim edir. Nə zaman ki, onu qısqırdan, zəncirini əlində saxlayan dövlətlərin güclü olduğunu hiss edir, bu "məzlum xalq" birdən-birə quduzlaşır, insanlıq sifətini itirir, özünü vəhşi kimi aparır. Tarix təkcə XX əsrdə erməni toplumunun sifətini bir neçə dəfə dəyişdiyinə şahidlik etmişdir. Tarixə qısa ekskurs edək.

1918-ci ilədək tarixdə müstəqil erməni dövləti olmadığı kimi, erməni ordusu da olmayıb. Bunun üçün ən azından orta əsrlərdən XX əsrin əvvəllərinədək zaman kəsiyinə nəzər salmaq kifayətdir. Osmanlı və Səfəvilər imperiyalarının, Qacarlar dövlətinin apardıqları müharibələrdə gürcülərdən fərqli olaraq erməni varlığı olmayıb. Ermənilər öz varlıqlarını yalnız XIX əsrin əvvəllərindən etibarən göstərməyə başlamışlar. Bu, o zaman idi ki, Rusiyanın Şərq siyasətində erməni amilindən, yəni erməni xislətindən istifadə etməyə ehtiyac yaranmışdı. Rusiya Osmanlı imperiyası ilə Qacarlar dövlətinin sərhədində - yəni İrəvan və Naxçıvan xanlıqları ərazisində xristian bufer zonası yaradılmasını lazım bilirdi. Bu işdə ermənilər öz xidmətlərini göstərdilər. İşğal prosesində ruslara yardım etdilər. Xanlıqların süqutundan sonra imzalanan Türkmənçay (1828) və Ədirnə müqavilələrinə əsasən keçmiş Azərbaycan xanlıqlarının ərazilərinə təqribən 150 minə yaxın erməni gətirildi və regionun demoqrafik mənzərəsi kəskin surətdə dəyişdirildi. Qarabağa da, Zəngəzura da ermənilər həmin vaxt kütləvi surətdə yerləşdirildilər.

Cari il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən paneldə Prezident İlham Əliyev Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağla bağlı yalanını tarixi faktla ifşa etdi. Cənab Prezident bildirdi ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir, 1805-ci ildə Qarabağ xanı İbrahim xanla rus generalı Sisianov arasında imzalanan Kürəkçay sazişinə əsasən Qarabağ xanlığı müstəqil diyar kimi Rusiya imperiyasının tabeçiliyinə keçmişdir və həmin sazişdə Qarabağın erməni əhalisi barədə heç nə deyilmir.

Həqiqət odur ki, 18 aprel 1836-cı ildə çar I Nikolayın fərmanı ilə Qarabağ yeparxiyasının Eçmiədzin katolikosluğuna tabe etdirilməsindən sonra Zəngəzurun və Qarabağın yerli xristian, lakin erməni olmayan əhalinin böyük bir qismi tədricən erməniləşmişdir.

Ermənilər öz mənfur simalarını ilk dəfə XIX əsrin sonlarında göstərdilər. Osmanlı imperiyasını parçalamaq istəyən dövlətlər erməni amilindən istifadə etdilər. Halbuki həmin dövrdə ermənilər osmanlı dövlətinin sadiq təbəəsi hesab edilirdi və hökumətdə bir sıra nazir, vali, qaymaqam və s. yüksək vəzifələr tuturdular. Türkiyə ərazisində yaşayan digər xristian əhalidən fərqli olaraq ermənilər dövlətin parçalanması üçün əllərindən gələni edirdilər. 1878-ci il Berlin konfransının qərarına əsasən Osmanlı dövlətinin ərazisində erməni muxtariyyəti yaradılmasına nail olmaq üçün silahlı dəstələr təşkil edərək kütləvi qırğınlar və terror törətdilər. 1890-cı illərdə Osmanlı dövləti erməni iğtişaşlarına son qoyduqdan sonra təqribən 400 min erməni Cənubi Qafqaza gəldi.

Erməni siyasi partiyalarının silahlı dəstələri İrəvan və Yelizavetpol (Gəncə) quberniyası ərazisində azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınlar törədərək 200-dən artıq kəndi ələ keçirdilər və orada Türkiyədən gələn erməni ailələrini yerləşdirdilər. Necə ki, bu gün işğal etdikləri Azərbaycan ərazilərində xaricdən gətirilən ermənilər məskunlaşdırırlar. Dövlətimizin başçısı sentyabrın 27-də xalqa müraciətində bu barədə demişdir: "Ermənistan işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma siyasəti aparır. Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirildi. Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Bu cinayətə görə Ermənistan cavab verəcəkdir. Bu, bizə qarşı növbəti təxribatdır. İşğal edilmiş torpaqlarda məskunlaşma aparmaq cinayət hesab olunur və bu siyasət Ermənistan tərəfindən uzun illər ərzində aparılır".

Bəli, erməni siyasi dairələri Qarabağı ələ keçirmək üçün 100 ildən artıqdır ki, əlləşirlər.

Bununla bağlı üç erməni müəllifinin etiraflarından sitatlar gətiririk.

Əsərlərini "Leo" imzası ilə çap etdirən erməni tarixçisi Arakel Babaxanyan 1925-ci ildə Tiflisdə erməni dilində çap etdirdiyi "Ançyaliç" ("Keçmişdən") adlı əsərində qeyd edir ki, "Daşnaksütyun"un "fədailəri" Zəngəzur qəzasında və digər qəzaların kəndlərində elə dəhşətli zorakılıqlar törətdilər ki, bu cür zorakılıqların törədilməsi heç zaman xatırlanmır. O, daşnakların Qarabağda "Ermənistan" yaratmaqla məşğul olduqlarını və bunun üçün türklərə qarşı "sil-süpür" siyasəti həyata keçirdiklərini yazır.

Başqa bir erməninin etirafına diqqət yetirək. Leonard Ramsden Hartillin müəllifliyi ilə 1928-ci ildə ABŞ-ın İndianapolis şəhərində çap edilən "Men AreLikeThat" ("İnsanlar belə imiş") kitabı Hovanes Apresyanın xatirələri əsasında qələmə alınmışdır. Bu kitabın ikinci adı "1918-1920-ci illər Azərbaycan hadisələri bir erməninin xatirələrində" adlanır. Azərbaycanlılarla ermənilərin qarışıq şəkildə yaşadıqları Xankəndidə 1892-ci ildə doğulan, ibtidai təhsilini Şuşada alan Hovanes Apresyan öz xatirələrində 1905-1906-cı illər və 1918-1920-ci illərdə erməni silahlı dəstələrinin Qarabağda, İrəvan quberniyasında və Qars vilayətində törətdikləri qırğınlar və insanlığa sığmayan vəhşiliklərdən bəhs edir. H.Apresyan belə xatırlayır: "Bu yerlərin sakinləri türklər və ermənilərdir. Əslində bir türk yurdu olan bu diyarda ermənilər gəlmə idilər. Sayca çoxluq təşkil edən müsəlman türkləri arasında bir xristian azlığı halında yaşayırdıq. İrq-din, adət-ənənə ayrılıqlarının bu iki toplum arasında yaratdığı məsafə heç zaman aradan götürülməmişdi". Apresyan ermənilərin rus ordusunda xidmət etdiklərini və yaxşı silahlandıqlarını, lakin sakit təbiətli türklərin isə əsgər aparılmadıqlarını və bıçaqdan başqa silahlarının olmadığını qeyd edir. 1905-1906-cı illər qırğınlarından bəhs edən Apresyan söyləyir: "Ara bir qədər sakitləşən kimi, Şuşanı yenə gördüm. Şəhərin türk məhəlləsində daş-kəsək yığınlarından başqa bir şey qalmamışdı. Bütün evlər yandırılmış, onların sakinləri isə öldürülmüşdü. Eyni hal Xankəndidəki türk məhəlləsinin başına da gəlmişdi".

Tarix necə də təkrarlanır. Erməni həmin ermənidir! Unutqan bizik.

Əsl adı Hovannes Ter-Martirosyan olan, lakin əsərlərini "A-Do" imzası ilə çap etdirən erməni müəllifinin 1907-ci ildə İrəvanda erməni dilində çap edilən irihəcmli "Qafqazda erməni-türk toqquşmaları (1905-1906-cı illər). Sənədli, statistik, topoqrafik izahlarla" əsərində ermənilərin törətdikləri vəhşiliklər barədə kifayət qədər faktlar yer almışdır. Ermənilər 1992-ci ildə Xocalıda törətdikləri soyqırımın analoqunu XX əsrin əvvəlində - 1905-ci il avqustun 23-də də törətmişdilər. A-Do yazır ki, erməni silahlı dəstələrinin Xocalıya hücumu zamanı kənd əhalisinin bir qismi qaçaraq canlarını qurtarmış, bir qismini də ermənilər öldürmüşdülər. Müəllif daha sonra yazır ki, Xocalını ələ keçirən ermənilər əvvəlcə evləri talamış, sonra isə od vurub yandırmışdılar ki, bir də əhali geri qayıda bilməsin.

100 il öncədən başlanan faktlar bu günün mənzərəsini göz önünə gətirir. Yüz il öncə erməni hansı xislətdə idisə, indi də həmin xislətdədir. Sadəcə, qiyafəsini dəyişib, mahiyyəti eynidir.

Görünən odur ki, erməni etdiyi qələtin qarşılığında ağır zərbə alandan sonra bir müddət ağlı başına gəlir, onu başqalarının yoldan çıxardığını söyləyir. Yenə faktlara müraciət edək.

Birinci Dünya müharibəsi zamanı rus ordusu Qafqaz cəbhəsindən Türkiyəyə hücum edən zaman ordunun tərkibində 150 min erməni əsgər və zabiti var idi. Üstəlik, Tiflisdə səfərbərlik elan edilmiş, 120 min erməni də könüllü olaraq cəbhəyə getmək üçün növbəyə yazılmışdı. Bütün bunlar azmış kimi, dörd erməni drujinası da yaradılmışdı və onlar Eçmiədzin kilsəsinin xeyir-duası ilə cəbhə bölgələrinə yola salınmışdılar. Ermənilər güman edirdilər ki, ruslar onlara Anadoluda dövlət quracaqlar. Ona görə də bütün cəbhə boyu türk-müsəlman əhalisini soyqırımına məruz qoyurdular. Elə ki, 1917-ci il inqilabından sonra rus qoşunları silah-sursatı erməni birliklərinə təhvil verərək Anadoludan çəkildi, ermənilər türk ordusu ilə təkbətək qaldı. Necə ki, bu gün arxasız qaldığı üçün Qarabağda Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilmir. O zaman əks-hücuma keçən türk ordusu nəinki Şərqi Anadolunu erməni quldurlarından təmizlədi, üstəlik, yenicə müstəqillik əldə edən Ermənistanı da dizə çökdürdü. Erməni müəllifləri etiraf edirlər ki, o vaxt daşnak hökuməti İrəvanda olan türk generallarının diktəsi ilə hərəkət edirdilər. Daşnak Ermənistanının baş naziri olmuş Ovanes Kaçaznuni "Daşnaksütyuna nə qaldı ki" əsərində yazır ki, ruslar bizi aldatdılar və satdılar, knyaz Lobanov-Rostovskinin "Ermənisiz Ermənistan" siyasətini həyata keçirdilər. Elə ki, 1918-ci ilin oktyabrında imzalanan Mudros sazişinə əsasən türk ordusu Qafqazdan çəkildi, ermənilər bu dəfə rus ağalarını ingilislərə dəyişdilər. Təqribən iki il ərzində İrəvan quberniyası ərazisində, Qars vilayətində və Zəngəzurda azərbaycanlı əhaliyə qarşı soyqırımı, Qarabağda isə kütləvi qırğınlar törətdilər. 1920-ci ilin avqustunda imzalanan Sevr müqaviləsi Ermənistana Trabzon üzərindən Qara dənizə çıxmaq şərtilə təqribən 160 min kvadratkilometr ərazi tanıdı. Bu müqavilə qüvvəyə minməmiş erməni ordusu sentyabr ayında Türkiyəyə hücum etdi. Əks-hücuma keçən türk ordusu ikinci dəfə Ermənistanı kapitulyasiyaya uğratdı. Dekabrın 2-də Gümrüdə iki dövlət arasında imzalanan müqaviləyə əsasən Ermənistan səkkiz dağ və ya səhra topu ilə 20 pulemyota malik muzdla tutulan 1.500 əsgərdən ibarət bir birlikdən artıq hərbi qüvvəyə malik olmayacağını öhdəsinə götürmüşdü.

1921-ci ilin oktyabrında Qarsda imzalanan müqaviləyə əsasən Türkiyə ilə Ermənistan arasında sərhəd dəqiqləşdirildi. Bu müqavilə Ermənistan parlamentində ratifikasiya edildikdən sonra şəhər meydanında bayram şənliyi keçirildi. İndi isə ermənilər bütün bunları unudaraq yenə də Türkiyəyə qarşı ərazi iddiası irəli sürür və Qars müqaviləsinin qüvvədən düşdüyünü deyirlər. Yenə də erməni xisləti və erməni simasızlığı göz önünə gəlir. Yenə də gicişən buynuzlarını türkün çomağına sürtürlər.

Son yüz ilin tarixi göstərir ki, ermənilər bəd əməllərinə görə layiq olduqları zərbəni almasalar, ağılları başlarına gəlməyəcəkdir.

Tarixdən dərs çıxarmaq istəyində olmayan ermənilərə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev sentyabrın 27-də keçirdiyi Təhlükəsizlik Şurasının iclasında növbəti dəfə xəbərdarlıq etdi: "Biz onlara 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verdik. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir".

Bu günlərdə Azərbaycan Ordusunun işğalçı Ermənistan qüvvələrinə qarşı apardığı ədalətli müharibə elə bir qələbə ilə nəticələnəcək ki, ermənilərə həmişəlik dərs olacaq. Bir daha Azərbaycana qarşı hər hansı təxribata əl ata bilməyəcək, ərazi iddiası irəli sürməyə cəsarət etməyəcək. Çibanı kökündən təmizləmək vaxtıdır.

***Nazim MUSTAFA,***
***Prezident Kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru***

# "Azərişıq" ASC və "Azərenerji" ASC rəhbərliyi cəbhə xəttindədir





Cəbhə xətti boyunca yerləşən rayonlara səfər edən "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov və "Azərenerji" ASC-nin vitse-prezidenti Ziyəddin Quliyev vəziyyətlə yerindəcə tanış olublar.

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə yerlərdə icra orqanlarının rəhbərləri və həmçinin "Azərişıq" ASC-nin yerli şəbəkələrinin rəhbərləri ilə görüşüblər.

Vüqar Əhmədov bildirib ki, yaşayış məntəqələrinin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təminatı "Azərişıq" ASC əməkdaşlarının fədakar əməyi sayəsində uğurla icra olunur. Erməni silahlı qüvvələrinin kənd və yaşayış məntəqələrini atəşə tutması nəticəsində 250 dəfədən çox müxtəlif gərginlikli xətlər, həmçinin 30-dan çox transformator məntəqəsi vurulub. Bununla belə təmas xəttinə yaxın kəndlərdə 24 saat fasiləsiz xidmət göstərən "Azərişıq" ASC əməkdaşları qısa vaxtda bu qəzaları aradan qaldırıblar.

"Azərişıq" ASC sədri onu da bildirib ki, ərazi bütövlüyü uğrunda aparılan vətən müharibəsinə indiyədək ASC-nin 300-dən çox əməkdaşı könüllü olaraq qoşulub.

Vüqar Əhmədov cəbhə xəttində yaradılmış Xüsusi Qərargahda toplantı keçirib, cəbhəboyu rayonlara ehtiyat dayaqlar, naqillər, KTM və generatorların çatdırılması ilə bağlı tapşırıqlarını verib.


## Azərbaycan Respublikası "Azərenerji" ASC 2 ədəd yeni yük avtomobilinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini **dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 500 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra **https://etender.gov.az/ dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** iştirakçı kimi qeydiyyatdan keçə bilərlər. Əlaqələndirici şəxs: Elçin İsmayılov, telefon: 598-05-56, 490-09-27.

İddiaçı şirkətlərin asan/elektron imzaları olması zəruridir. Yalnız asan imzası, yaxud elektron imzası olan iddiaçı dövlət satınalmalarının vahid internet Portalında qeydiyyatdan keçə bilər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı Dövlət Statistika Komitəsi tərəfindən verilmiş sənəd (iri sahibkarlıq subyektləri qanuna əsasən tenderdə iştirak edə bilməz);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *mallar sifariş verildiyi vaxtdan sonra ən çoxu 1 ay (30 gün) müddətinə çatdırılmalıdır;*
- *müvafiq sertifikatlar.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **23 oktyabr 2020-ci il saat 09:00-a** qədər, bank zəmanəti və tender təklifini isə **02 noyabr 2020-ci il saat 09:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflərə baxılmayacaq.

İddiaçıların tender təklifləri **03 noyabr 2020-ci il saat 09:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

***Tender komissiyası***



## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti *açıq tenderə dəvət edir*

**LOT-1 Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 107 ünvanında yerləşən inzibati binanın dam örtüyünün yenidən qurulması işlərinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1 üzrə - 150 (bir yüz əlli) manat (ƏDV daxil)**

iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN Ödəniş" portalı vasitəsilə ödəniş etdikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **23 oktyabr 2020-ci il saat 11:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **02 noyabr 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **03 noyabr 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada* **etender@gov.az** *dövlət satınalmalarının vahid internet Portalında aparılır.*

***Tender komissiyası***


# Azərbaycanda koronavirus infeksiyasından daha 114 nəfər sağalıb, 80 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 114 nəfər sağalıb, 80 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 40 min 309 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 38 min 68 nəfər müalicə olunaraq sağalıb, 593 nəfər vəfat edib. Aktiv xəstə sayı 1648 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 121 min 290 test aparılıb. Dünənki test sayı isə 5542-dir.



# Bu həlledici günlərdə “Azercell” də ön cəbhəyə dəstək olur

## Şirkət Silahlı Qüvvələrə Yardım Fonduna 1 milyon manat həcmində vəsait köçürüb

Sentyabrın 27-dən etibarən Milli Ordu hissələrimiz 30 ildən artıq hər bir azərbaycanlının sağalmaz yarasına çevrilmiş Qarabağ münaqişəsinin ön cəbhələrinə qəhrəmancasına atılaraq düşmən mövqelərini məhv edir. Ordumuz bütün cəbhə boyu əks-hücum əməliyyatına başlayaraq bir sıra strateji nöqtələrdə həlledici uğurlar qazanmışdır.

Ölkəmizin tarixində və taleyində həlledici olan bu döyüş günlərində ölkənin lider mobil operatoru “Azercell Telekom” da Milli Ordumuza öz dəstəyini əsirgəmir. Şirkət tərəfindən Silahlı Qüvvələrə Yardım Fonduna 1 milyon manat həcmində vəsait köçürülüb.

Vətənimizə və ordumuza həmrəylik ifadəsi olaraq “Azercell Telekom”un baş qərargahı Tbilisi prospektində yerləşən “Azercell Plaza”nın üzərində üçrəngli bayrağımız asılmışdır. Eyni zamanda, şirkət tərəfindən bütün əməkdaşlara avtomobil üzərinə quraşdırılan Azərbaycan bayraqları da paylanılıb.

“Azercell” həyata keçirdiyi təşəbbüslərlə ordumuzun, xalqımızın və dövlətimizin yanında olduğunu ifadə edir.Şirkət bundan sonra da bu istiqamətdəki fəaliyyətini davam etdirəcək, vətənimizin bütövlüyü uğrunda ön və arxa cəbhədə mübarizə aparan bütün soydaşlarımıza yardım göstərəcəkdir.

Qarabağ Azərbaycandır!

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 24.07.2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilmiş Azərbaycan Respublikası Mərkəzi Bankında, həmçinin Regional və Ehtiyat mərkəzlərində kart buraxılış, video muşahidə və server otağı üzrə monitorinq sisteminin alınaraq quraşdırılması işlərinin satın alınmasına dair tender üzrə Tender komissiyasının 11 sentyabr 2020-ci il tarixli qərarına əsasən “STELL TECHNOLOGY” MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

“Aztelekom” MMC tərəfindən 18.08.2020-ci il tarixdə vahid satınalma Portalında “2021-ci ilin sonunadək vəkil xidmətlərinin” satın alınması məqsədilə elan olunmuş açıq tender üsulu ilə satınalma prosedurunun davamından tender təklifi verən iddiaçıların sayı 3-dən az olduğu üçün “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.1-ci bəndinə uyğun olaraq imtina olunur.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

**Bakı Metropoliteninin III yeni (Bənövşəyi) xəttinə aid “Xocasən” elektrik deposunun “Blok post” binasında fasadın daş şüşə yunu ilə izolyasiya edilməsi, dekorativ suvağı və boyanması işlərinin satın alınmasına** dair 01.10.2020-ci il tarixdə keçirilən açıq tenderdə iddiaçıların sayı 3 (üç)-dən az olduğuna görə tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

*Tender komissiyası*

## “Azərişıq” ASC müxtəlif plastik boruların satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız “ASAN Ödəniş” vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün müsabiqəyə daxil olduqdan sonra “ASAN Ödəniş”lə “ödə” düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak edə bilərsiniz.

**LOT-1** Müxtəlif plastik boruların satın alınması
**İştirak haqqı - 500 manat**

**“Azərişıq” ASC**
**Hesab N: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab N: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Orxan İbrahimov, telefon: 440-39-93 daxili (28-15)
orxan.s.ibrahimov@azerishiq.az

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış, sahibkarlıq kateqoriyası haqqında məlumat (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir (iri sahibkarlıq subyektləri qanuna əsasən elektron Portal vasitəsilə keçirilən tenderdə iştirak edə bilməz);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizii həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının analoji işlərdə təcrübəsi haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır).*

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **23 oktyabr 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **02 noyabr 2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **03 noyabr 2020-ci il saat 16:00-da** açılacaqdır.
İddiaçılar açılışın nəticələri ilə Portal vasıtəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 29.07.2020-ci il tarixdə elan edilmiş Tbilisi prospekti, 107 ünvanında yerləşən inzibati binanın dam örtüyünün yenidən qurulması işlərinin satın alınması üzrə açıq tender ləğv edilmişdir.

*Tender komissiyası*

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

*Təkrar*

## “Azərsu” Açıq Səhmdar Cəmiyyəti *açıq tender elan edir*

“Azərsu” ASC-nin yeni inzibati binasının son tamamlama (tikinti-quraşdırma, interyer, landşaft, elektromexanika, yoxlama və sazlama) işlərinin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin Təchizat və satınalmaların idarə olunması departamentindən (Əlaqələndirici şəxs: Tağıyev İlqar Rauf oğlu, telefon: + 99 412 431 47 67/87 - daxili 1033 E-mail: i.tagiyev@azersu.az və Novruzov İntizam Cəmil oğlu, daxili 3019, E-mail: intizam.novruzov@azersu.az) ala bilərlər.

Tenderdə iştirak haqqı: 500 (beş yüz) AZN

**“Azərsu” Açıq Səhmdar Cəmiyyəti**
**VÖEN: 9900001751**
**Bank: “Kapitalbank” ASC-nin 1 saylı Nəsimi filialı**
**Kodu: 200112**
**VÖEN: 9900003611**
**Yerli valyutada hesab nömrəsi: AZ65AIIB33070019441100216111**
**Xarici valyutada hesab nömrəsi: AZ55AIIB33170018401100216111**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı ilkin uyğunluq sənədlərini təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti;*
- *iddiaçının son 3 ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (ən azı 10 milyon manat dövriyyə tələb olunur);*
- *iddiaçının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri;*
- *son üç ili əhatə edən audit hesabatı;*
- *iddiaçının işçi heyəti, avadanlığı və texnikası barədə məlumat;*
- *Azərbaycan Respublikası dövlət standartlarına uyğun olaraq İ və İİ məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üzrə verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 23 oktyabr 2020-ci il saat 16:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 03 noyabr 2020-ci il saat 16:00-a qədər Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin Təchizat və satınalmaların idarə olunması departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İştirakçıların təklifləri Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən “Azərsu” Açıq Səhmdar Cəmiyyətində 04 noyabr 2020-ci il saat 16:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

*Tender komissiyası*

## “Azərişıq” ASC *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız “ASAN Ödəniş” vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün müsabiqəyə daxil olduqdan sonra “ASAN Ödəniş”lə “ödə” düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak edə bilərsiniz.

LOT-1 “ASAN xidmət” mərkəzlərinin “Azərişıq” ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif mal-materialların satın alınması

**İştirak haqqı - 1500 manat**
**“Azərişıq” ASC**
**Hesab N: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab N: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Emil Əliyev, telefon: 440-39-93 daxili (29-18) emil.aliyev@azerishiq.az

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış, sahibkarlıq kateqoriyası haqqında məlumat (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd; (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir (iri sahibkarlıq subyektləri qanuna əsasən elektron Portal vasitəsilə keçirilən tenderdə iştirak edə bilməz);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının analoji işlərdə təcrübəsi haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır).*

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 23 oktyabr 2020-ci il saat 16:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini 02 noyabr 2020-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 03 noyabr 2020-ci il saat 16:00-da açılacaqdır.
İddiaçılar açılışın nəticələri ilə Portal vasıtəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 14 iyul 2020-ci il tarixdə vahid satınalma Portalında elan edilmiş “12 voltluq müxtəlif təyinatlı və amperajlı akkumulyator batareyalarının satın alınması” üzrə keçirilmiş açıq tender prosedurunun qalibi “TS Motors” MMC müəyyən edilmişdir.

“Aztelekom” MMC ilə “TS Motors” MMC arasında 10 sentyabr 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

“Azərsu” ASC tərəfindən “Azərbaycan” qəzetinin 01.09.2020-ci il və 11.09.2020-ci il tarixli nömrələrində **“Pirşağı Tullantı Sutəmizləyici Qurğusunun gətirici kanalizasiya kollektorlarının tikintisi (Pirşağı-Kürdəxanı-Zabrat kollektoru)”** işlərinin satın alınması üçün dərc edilmiş açıq tenderdə iştirakçıların rəsmi müraciətlərini nəzərə alaraq, təkliflərin qəbulu vaxtı uzadılaraq 23 oktyabr 2020-ci il saat 16:00-a, zərflərin açılışı isə 26 oktyabr 2020-ci il saat 16:00-a təyin edilmişdir. Əlaqələndirici şəxs: İntizam Novruzov, tel: (012) 431-47-67, daxili: 3019.

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin əməkdaşları İlham və Şahin Süleymanovlara əzizləri

**SƏRVAN RÜSTƏMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Sosial Xidmətlər Agentliyinin sədrinin müavini Faiq Ağayevə əzizi

**PƏRİ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7565
Sifariş 2292
Qiyməti 40 qəpik